Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Bakı Dövlət Universiteti

## Akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının

## YEKUN HESABATI

**2023-cü il**

**AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ**

**Komissiyanın sədri:** Musayev Müsavər Abdusalam oğlu, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Fizika kafedrasının müdiri, fizika üzrə elmlər doktoru, professor,

**Üzvlər:**

1. Pirverdiyeva Könül İsaq qızı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Strateji inkişaf məsələləri üzrə prorektor
2. Rəcəbov Xalid Arif oğlu, BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda Sosial Sərmayələr üzrə rəhbəri, işəgötürən
3. Bilalov Bahadur Ənvər oğlu, Azərbaycan Turizm və Menecment Universiteti,Turizm və qonaqpərvərlik fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent
4. Hüseynov İslam Əhməd oğlu, Dövlət Gömrük Komitəsinin Akademiyası, Tədris-metodiki işin təşkili şöbəsinin rəisi, filologiya üzrə fəlsəfə doktoru, dosent
5. Əsədov Nizami Şakir oğlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Keyfiyyət təminatı və strateji planlama departamentinin müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru
6. Şərifov Qalib Mövsüm oğlu, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Keyfiyyət təminatı şöbəsinin müdiri, fizika üzrə fəlsəfə doktoru,dosent
7. Məhərrəmov Rəşad Rəhim oğlu, Azərbaycan Dövlət İqtisad Universiteti, Karyera planlaşdırılması və inkişafı kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru
8. Hacıyeva Könül Xanlar qızı, Dövlət İmtahan Mərkəzi, Şöbə müdiri, pedaqogika üzrə fəlsəfə doktoru
9. Qurbanzadə Fatma Nazim qızı, Azərbaycan Dillər Universiteti, Tələbə qeydiyyatı və biliyin qiymətləndirilməsi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru
10. Cumayeva Lalə Rayət qızı, ADA Universiteti, İctimai və beynəlxalq münasibətlər fakültəsinin baş müəllimi, beynəlxalq siyasət üzrə fəlsəfə doktoru
11. Vernygora Vlad Alex, Xəzər Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor, beynəlxalq münasibətlər üzrə fəlsəfə doktoru, beynəlxalq ekspert
12. Axundova İranə Elçin qızı, Azərbaycan Turizm və Menecment Universiteti, Turizm işi ixtisası üzrə 1-ci kurs magistr tələbəsi

## Mündəricat

Giriş ........................................................................................................ 4
Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar ................................................ 4
Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri ................................... 5
Qiymətləndirmənin icmalı ................................................................................. 5
1. STRATEJİ İNKİŞAF ..................................................................................... 6
2. KEYFİYYƏT TƏMİNATI .................................................................................. 9
3. TƏLİM VƏ TƏDRİS ..................................................................................... 14
4. ELMİ TƏDQİQAT ....................................................................................... 41
5. İDARƏETMƏ SİSTEMİ ................................................................................... 56
6. İNFRASTRUKTUR ........................................................................................ 71
7. BEYNƏLMİLƏLLƏŞMƏ ..................................................................................... 74
Komissiyanın istiqamətlər üzrə təhlili ..................................................................... 81
Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ........................ 944
Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi. 944

## Giriş

## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi: 26.05.2017<br>Müddəti: 5 il |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin məsul şəxsi | Babayev Elçin Səfəralı oğlu |
| Fakültələrin sayı | 16 |
| Kafedraların sayı | 120 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 83 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 246 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 123 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalanların sayı: 24584<br><br>Bakalavriat: 21885<br>Magistratura: 2006<br>Doktorantura: 645<br>Hazırlıq: 48 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 1382 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilər: 74 nəfər<br>Saathesabı yolu ilə işləyənlər: 1066 nəfər |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | E-mail: info@bsu.edu.az<br>Tel.: (012) 430 32 45 |
| Müəssisənin hüquqi ünvanı | Ünvan: Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 33 |
| Müəssisənin faktiki ünvanı | Ünvan: Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 33 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri

## Qiymətləndirmənin icmalı

BDU Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) 2022-ci il 14 noyabr tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Qiymətləndirmə proseduru 24 yanvar 2023-cü il tarixindən 19 fevral 2023-cü il tarixinədək Akkreditasiya Komissiyası tərəfindən aparılmış və Komissiya 20 fevral 2023-cü il tarixində müəssisəyə səfər etmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

# 1. STRATEJİ İNKİŞAF

## *1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

BDU-nun "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə Missiya və Strateji İnkişaf Planı", "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı", 2021-2030-cu illər üzrə "Strateji İnkişaf Planı" (SİP) əsasında 2017-2019-cu və 2019-2022-ci illər üçün fəaliyyət planları hazırlanmışdır. SİP 2021-2030 insan kapitalı, davamlılıq, modernləşmə, idarəetmə kimi mühüm prinsip və yanaşmaları özündə əks etdirir. Plan çağdaş elm və təhsil üzrə prioritetləri əsas götürərək hazırlanmış, Universitetin struktur bölmələri üçün inkişaf prioritetlərinin çərçivəsini müəyyənləşdirən, təhsilalanlar və akademik heyət arasında qarşılıqlı əlaqələrin dərinləşməsini və müvafiq proseslərin stimullaşdırılmasını əks etdirən vasitələri təqdim edir.

SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu gözlənilmişdir. Planda müəyyən edilən prioritet istiqamətlər Universitetin qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur.

SİP-dəki istiqamətlər üzrə işlərin icrasına nəzarətə rektorun strateji inkişaf məsələləri üzrə müşaviri məsuldur. SİP-dən irəli gələn fəaliyyətlərin strukturlar tərəfindən icrasının vəziyyətini müəyyənləşdirmək üçün Keyfiyyətin təminatı və monitorinqi şöbəsi tərəfindən monitorinqlərin aparılması nəzərdə tutulur.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

2021-2030-cu illər üzrə "Strateji İnkişaf Planı"nda (SİP) beş istiqamət və hər istiqamət üzrə dörd yanaşma müəyyənləşdirilmişdir. Belə ki, "Təhsil", "Elmi Tədqiqat", "İnnovasiyalar", "Beynəlmiləlləşmə" və "Sosiallıq" istiqamətlərinin müvafiq olaraq hər biri üçün, həmçinin, "İnsan kapitalı", "Davamlılıq", "Modernləşmə", "İdarəetmə" adlı yanaşmalarına uyğun hədəflər müəyyən edilmişdir. Hədəflərə çatmaq üçün icra ediləcək fəaliyyətlərin müddəti qısa, orta və uzun müddətli olaraq fərqləndirilmişdir. Hədəflər üzrə təyin edilmiş indikatorlar əsasən ölçülə biləndir. Hədəflərin qiymətləndirmə meyarları aydın qeyd olunmuşdur.

**1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**
**1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Universitet tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyətinə dair məlumat öz əksini tapmamışdır. Verifikasiya zamanı və Universitetin aidiyyatı şöbə/mərkəzlərində görüş zamanı bu bölgüyə dair məlumatı əks etdirən hər hansı sənəd təqdim edilməmişdir. SİP-in icrasında insan və maliyyə resurslarının ayrılması vəziyyəti barədə sualların aidiyyatı struktur rəhbərləri tərəfindən cavablandırılması zamanı müvafiq məsələlərlə bağlı tam məlumatlılığın təmin edilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, yeni Strateji İnkişaf Planının hazırlanmasında Universitetin professor-müəllim heyətinin, həmçinin təhsilalanların iştirakının tam təmin edilməməsi səbəbindən Planda nəzərdə tutulan hədəflərlə bağlı məlumatlılıq səviyyəsinin müvafiq heyət üzvləri arasında təmin edilməsi ehtiyacı gəlinmiş yekun qənaətlərdəndir. Ümumilikdə, Universitet rəhbərliyinin Planda nəzərdə tutulan hədəf və məqsədlər, onların reallaşması üçün görülməsi nəzərdə tutulan işlər və Universitetin gələcək vizyonu haqqında tam təsəvvürə sahib olması da müəyyən edilmiş digər məsələlərdəndir.

SİP-in hazırlanması məqsədilə keçirilən iclaslar, görüşlər, tədbirlərə dair, həmçinin SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakını sübut edən protokollar, press-relizlər, nəşrlərin və s. tam əhatəli olmadığı yerində baxış və müsahibə müddətində heyət üzvləri tərəfindən bildirilmişdir. Müvafiq görüşlərin əksər hissəsinin əsasən Himayəçilər Şurası ilə birgə aparıldığı verifikasiya müddətində qeyd olunmuşdur.

**1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**

SİP-in maliyyə təminatının Universitetin büdcə planlaşmasında nəzərə alınması vəziyyətinə dair aidiyyatı strukturlardan yetərincə qənaətbəxş deyildir.

**1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamların öz əksini tapması ümumilikdə təmin olunmuşdur.

**1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**
**1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması**

Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinə dair təhlillər aparılmasını əks etdirən vasitələr və onların nəticələri Özünütəhlil Hesabatında geniş şərh olunmamış, əlavə sənədlər qismində təqdim edilməmişdir. Verifikasiya zamanı SWOT analiz olaraq tələbələrin universitetə giriş balları, fakültələr üzrə tələbələrin ÜMOG-lərinin

müqayisəsi (semestr və yekun qiymətləndirmə üzrə) şəklində aparılmışdır. Himayəçilər Şurasının iclası üçün hazırlanmış təhlil təqdimatı nümayiş etdirilmiş, konfedensiallıq üçün əyani şəkildə göndərilməmişdir. Professor-müəllim heyəti, tələbələrlə görüşlərin, söhbətlərin keçirildiyi qeyd olunsa da, bunun sistemli aparılması, işin hansı meyarlar/indikatorlar üzrə təşkil edilməsi, onların təhlilinin qeydə alınması həyata keçirilməmişdir.

**1.1.13. SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu**

**1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi**

SİP-də nəzərdə tutulan fəaliyyətlərin icrası üçün mövcud struktur bölmələrinin bölgüsü və müvafiq rollar tam müəyyən edilməlidir. Qeyd etmək lazımdır ki, Universitetdə struktur bölmələrinin optimallaşdırılmasına və təkmilləşdirilməsinə ehtiyac vardır.

*1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

**1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti**
**1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti**
**1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti**
**1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti**
**1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti**

Özünütəhlil Hesabatında SİP-in icrası üzrə Universitetin struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatları bu bölmələrin iclaslarında və Elmi Şurada müzakirə edilir, nəticələr təhlil olunur və gələcək fəaliyyətdə nəzərə alındığı qeyd edilir. Əlavə olunur ki, BDU-nun Keyfiyyətin təminatı və monitorinq şöbəsi uyğun struktur bölmələri ilə birgə təhsil, elmi-tədqiqatlar, innovasiyalar, beynəlmiləlləşmə və sosiallıq sahələrində monitorinqlər aparır. Monitorinq əsasında SİP-də müəyyən olunan prioritet istiqamətlərin hədəflərinin qiymətləndirilməsi işi yerinə yetirilir.

Keyfiyyətin təminatı və monitorinq şöbəsinin uyğun struktur bölmələri ilə birgə təhsil, elmi-tədqiqatlar, innovasiyalar, beynəlmiləlləşmə, sosiallıq sahələrində SİP-də müəyyən olunan prioritet istiqamətlərin hədəfləri üzrə əldə olunmuş nəticələrin qiymətləndirilməsinə dair monitorinqlərin və müvafiq sənədləşdirmənin aparılmasına ehtiyac vardır.

SİP-in icrası üzrə hesabatların və monitorinq nəticələrinin sistemli müzakirəsininin, təşkil edilmiş tədbirlərin və görüşlərin protokollaşdırılmasına, bu istiqamətdə press-relizlərin və nəşrlərin sənədləşdirilməsinə ehtiyacın olduğu verifikasiya müddətində müəyyən edilmişdir. Əsasən, nəzərdə tutulan bəzi məsələlər Elmi Şura iclaslarında təqdim edilmişdir.

Ümumiyyətlə, SİP-də nəzərdə tutulan fəaliyyətlərin icrasının sistemli, ardıcıl monitorinqi və hesabatlılığının təmini üçün təkmilləşdirilmələrin aparılmasına, mexanizmlərin hazırlanmasına ehtiyac vardır. Bu hissədə təqdim edilən hesabatların təqdim edilməsi inkişafyönümlü rəylərin verilməsinə kömək ola bilər.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1. Keyfiyyət təminatı siyasəti*

**2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı**

Universitetdə keyfiyyət təminatı (KT) siyasəti sənədi Elmi Şuranın 23.02.2021-ci il tarixli iclasında verilən qərarına əsasən rektor tərəfindən 25 fevral 2021-ci ildə təsdiq olunmuşdur. Özünütəhlil Hesabatında qeyd edilmişdir ki, bu sənədin formalaşdırılması zamanı daxili və xarici maraqlı tərəfdaşlardan, habelə Universitetdə müvafiq strukturlardan rəylər alınmış və rəsmiləşdirilmişdir. Hərçənd ki, şöbə əməkdaşları ilə müsahibə və sahə baxışı zamanı bu istiqamətdə müvafiq təsdiqedici sistemləşdirilmiş sənədlərin mövcud olmadığı müəyyən edilmişdir. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, müvafiq sənədləşdirmənin sistemləşdirilməsinin təmin edilməsinə ehtiyac vardır.

**2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti**

KT siyasət sənədi ümumi müddəalar, əsas anlayışlar, Universitetin missiyası, vizyonu, keyfiyyət təminatının təmin olunmasında prinsiplər, onun məqsədi, məqsədlərə nail olmaq üçün görüləcək işlər, bu sahədə qiymətləndirmə meyarları və Universitetdə aparılan siyasət, daxili keyfiyyət təminatı üçün müəyyən edilən 10 standartı “Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar” sənədi (ESG-də) üzrə əsaslı şəkildə bəyan edilmişdir.

**2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

KT siyasəti sənədi barədə professor-müəllim və tələbə heyəti əsasən məlumatlıdır. Müvafiq sənədin Özünütəhlil Hesabatında qeyd edildiyi kimi məlumat lövhələrində yerləşdirilməsinə baxmayaraq, BDU könüllüləri və Universitetin kafedra əməkdaşları ilə müsahibə zamanı bu sənəd barədə müvafiq heyət üzvlərinin məlumatlandırılması ehtiyacı müəyyən edilmişdir.

**2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

Sənəd sadə, anlaşıqlı formada olmaqla ESG standartları əsasında hazırlanmışdır.

### *2.2. Daxili keyfiyyət təminatı mexanizmləri*

**2.2.1. ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

Universitetin Keyfiyyət təminatı və monitorinq şöbəsinin 2017-ci ildə yaradılmasına baxmayaraq, şöbənin əsasnaməsi Elmi Şuranın 09.10.2019 tarixli qərarına əsasən rektorun

29.10.2019 tarixli əmri ilə rəsmiləşdirilmişdir. Bununla yanaşı, şöbə 2021-ci ilə qədər Tədris Metodiki Şura ilə birgə fəaliyyət göstərdiyi üçün, 2017-2021-ci illər ərzində yalnız tədris-metodiki məsələlərdə müvafiq məsələlərin həlli istiqamətində fəaliyyət göstərmişdir. Prosesin qeyd edilmiş formada təşkilinə əsas verən fakt kimi Tədris Metodiki Şuranın Əsasnaməsində (*2015-ci il 16 yanvar tarixində keçirilmiş Elmi Şuranın qərarına əsasən təsdiq edilmiş*) tədrisin keyfiyyətinin artırılmasında müəyyən monitorinqlərin həyata keçirilməsi ilə bağlı bəndlər əsas götürülmüşdür.

Universitetdə keyfiyyətin təminatı sisteminin və Universitetin bütün fəaliyyətlərini monitorinq edə bilən sistemli mexanizmin yetərli olmadığı verifikasiya müddətində müəyyən edilmişdir. Belə ki, Keyfiyyətin təminatı şöbəsi tərəfindən bütün sorğu və monitorinqlər 2017-2021-ci illər ərzində Fakültə Metodiki Şurasının sədrinə yönləndirilərək və Şuralar vasitəsilə tələbələrə ötürülmüşdür. 2021-ci ildən isə bu sorğular dekanlıqlar və BDU könüllüləri vasitəsilə tələbələrə ötürülür. Bu prosesdə məsuliyyət dekanlıqların üzərinə düşsə də, onların məlumat toplanması prosesində vəzifə öhdəliklərinə nəzarət edilmir. Şöbə əməkdaşları ilə müsahibə əsasında müəyyən edilmişdir ki, şöbədə toplanılan məlumatın (Excel cədvəllərdə verilmiş) müvafiq təhlilini həyata keçirəcək uyğun kompetensiyalara malik mütəxəssis çatışmamazlığı mövcuddur. Ümumilikdə şöbə əməkdaşlarının peşəkar bacarıqlarının artırılması istiqamətində fəaliyyətlərin icra edilməsinə ehtiyac vardır.

Universitetdə “Student İnformation System” və Blackboard kimi təhsilin elektron idarə edilməsi platformalarının keyfiyyətin təmin olunması prosesində istifadəsi mümkün olsa da şöbə tərəfindən istifadə edilmir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, istər təlim və tədris, istərsə də SİP-də müəyyən edilmiş hədəflərin monitorinqini və keyfiyyətini davamlı təhlil və təmin edə biləcək mexanizmlərin formalaşdırılmasına və icrasına xüsusi önəmin verilməsinə ehtiyac vardır. Bu məsələlərin təmin edilməsi üçün müvafiq şöbənin strukturuna yenidən baxılması, fəaliyyətlər (monitorinq, təhlil və s.) üzrə alt strukturların formalaşdırılması, rolların, səlahiyyətlərin və Universitetin digər strukturları ilə qarşılıqlı əlaqələrin və məsuliyyət bölgülərinin müəyyən edilməsi tövsiyə edilən məsələlərdəndir.

### 2.2.2. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

Özünütəhlil Hesabatında keyfiyyət təminatı üzrə Universitetdə Komissiyanın 2021-ci ildən fəaliyyət göstərdiyi vurğulanır. Hazırda fəaliyyət göstərən Komissiya Elmi Şuranın 2023-cü il 18 yanvar tarixli qərarı ilə yaradılmışdır..

### 2.2.3. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Komissiyanın yaranmasının 18 yanvar 2023-cü ilə təsadüf etməsi səbəbindən Komissiyanın fəaliyyət planı və ya bu istiqamətdə hər hansı verifikasiyaedici sübutlar təqdim edilməmişdir.

### 2.2.4. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Universitetin keyfiyyətin təminatı sistemi üzrə fəaliyyəti əsasən planlaşdırma, icra, nəzarət, düzəlişlər et (PDCA) modeli üzrə aparıldığı vurğulansa da həm mərhələlər üzrə ardıcıl fəaliyyətlərin, həm də mərhələlər çərçivəsində fəaliyyətlərin tamlığının təmin olunmasına ehtiyac vardır.

**2.2.5. ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

Universitetdə daxili keyfiyyət təminatı sistemində əsasən təlim və tədris prosesi çərçivəsində müəyyən addımlar üzrə məsuliyyətlər müəyyən edilmişdir.

**2.2.6. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

BDU-da daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı əsasən təlim və tədris prosesini əhatə edir.

**2.2.7. ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

Keyfiyyət təminatı siyasətini özündə ehtiva edən kitabça professor-müəllim və tələbə heyəti arasında paylaşılmış və məlumat lövhəsində yerləşdirilmişdir.

**2.2.8. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Universitetdə təlim və tədris prosesinin keyfiyyətinə dair məlumatların toplanması dörd istiqamətdə aparılır:

1. *“Açıq dərslərin qiymətləndirmə forması”*- Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən aparılır. Forma professor-müəllim heyətinin performansını 10 meyar üzrə 100 ballıq şkala ilə qiymətləndirir. Lakin hər meyarın alt meyarları üzrə ballar müəyyən edilməmişdir. Yalnız meyarlar üzrə ballar qeyd edilmişdir.

2. Tədris ili ərzində bir dəfə tələbələr arasında *“Fənlər üzrə məmnunluq sorğusu”* Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən aparılır. Sorğu dörd əsas sual və səkkiz alt sualdan ibarətdir. Sorğunun tədris semestrləri üzrə aparılmasına və sorğu mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır.

3. *Akademik heyətin elmi fəaliyyəti* 75 meyar əsasında Elmi-Tədqiqatların təşkili və təhlili şöbəsi tərəfindən qiymətləndirilir. Şöbə tərəfindən professor-müəllim heyətinin meyarlar üzrə şöbəyə göndərdikləri sənədlərin meyarlara uyğunluğunu müəyyənləşdirərək cədvəllər tərtib edilir və Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektora göndərilir. Tətbiq edilən qiymətləndirmə sisteminin, təxminən 1300-ə yaxın professor-müəllim heyəti arasında aparıldığını, həmçinin müsahibə zamanı professor-müəllim heyətinin geri dönüşünün aparılmadığının qeyd edilməsini nəzərə alaraq, qiymətləndirmə barədə müvafiq

heyətin məmnunluq göstəricilərinin qeydiyyatının sistemli və davamlı formada aparılması məqsədəuyğun hesab edilir.

4. *“Müəllim tələbənin gözü ilə”* sorğusu Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən aparılır. Sorğu vərəqləri cildlənərək şöbədə saxlanılır.

Şöbəyə baxış zamanı və əməkdaşlarla müsahibə zamanı “Açıq dərslərin qiymətləndirmə forması”, “Fənlər üzrə məmnunluq sorğusu”, Akademik heyətin elmi fəaliyyəti və “Müəllim tələbənin gözü ilə” sorğusunun təhlilinin yetərincə sistemli və müqayisəli şəkildə aparılmadığı müəyyən edilmişdir. Belə ki, professor-müəllim heyətinin reytinq qiymətləndirməsində yer tutması üçün yuxarıdakı dörd sorğudan uğurlu keçməsi Universitet tərəfindən əsas şərt kimi qəbul edilir. Yekun reytinq qiymətləndirməsi Universitetdə yaradılan Komissiya tərəfindən həyata keçirilir.

Özünütəhlil Hesabatında qeyd edilmişdir ki, hər tədris ilinin yekununda keyfiyyətin yaxşılaşdırılması istiqamətində görülmüş işlərin güclü, zəif tərəfləri, imkanlar və təhlükələrin (GZİT (SWOT)) analizi aparılır və hesabat hazırlanaraq Elmi Şurada müzakirə olunur. Baxış zamanı GZİT təhlil nümunəsinin olmadığı, müvafiq hesabatların isə tələbələrin fənlərdən məmnunluq sorğularını əhatə etdiyi müəyyən edilmişdir.

### 2.2.9. Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Universitetin rektoru illik hesabatlarında Universitetdə mövcud vəziyyəti və əldə etdiyi nailiyyətləri qeyd edir.

### 2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

Əvvəlki akkreditasiyada göstərilən tövsiyə və iradlarla bağlı fəaliyyət planı hazırlanmış və ötən müddət ərzində əksər məsələlər öz müsbət həllini tapmışdır.

### 2.2.11. ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

Universitetdə tələbələr arasında sorğuların aparılması üçün “Student information System”i mövcuddur. Bundan başqa Universitetdə BDU könüllüləri arasında təşkilatlanma səviyyəsinin müsbət olduğunu qeyd etmək lazımdır. Universitetdə tələbələr arasında hər il “Müəllim tələbənin gözü ilə” anket sorğusu aparılır və akademik heyətin açıq dərslərinin qiymətləndirilmə meyarları mövcuddur. Bundan başqa akademik heyətin elmi fəaliyyətinin müəyyən edilməsi prosesi sistemlidir. Bundan başqa “Student İnformation System”in (Tələbə Məlumat Sistemi) mövcud olmasına baxmayaraq təqdim edilən xidmətlərdən, akademik və tələbə heyətinin məmnunluğunun ölçülməsində yetərincə istifadə edilmir. Universitetdə keyfiyyətin təminatı istiqamətində işlərin səmərəli təşkili üçün müəyyənləşdirici və qərarverici fakültə nümayəndələrindən ibarət olan Keyfiyyət Komissiyasının təşkil olunması tövsiyə olunur. Bu tip komissiyanın yaradılmasına 18 yanvar 2023-cü ildə keçirilən Elmi Şurada qərar verilmişdir.

### *2.3. Keyfiyyət təminatı mədəniyyəti*

#### 2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Universitet rektoru və digər idarə heyətinin üzvləri keyfiyyətin artırılması istiqamətində bütün proseslərə birbaşa nəzarət edir. Belə ki, Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor keyfiyyət sisteminin yaradılmasına, tətbiqinə və daim təkmilləşdirilməsinə məsuliyyət daşıyır. Keyfiyyətin təmin olunması və artırılması üçün isə Universitet rəhbərliyi, fakültələr, kafedra və struktur bölmələri ümumi və ayrı-ayrılıqda məsuliyyət daşıyırlar. Universitetdə mövcud olan Blackboard platforması vasitəsilə LMS sisteminin qurulması hədəflənmişdir. Müsahibə zamanı bu platformanın bir modulunun əldə edildiyi vurğulanmışdır. Digər iki modulun əldə olunması və platformanın akademik heyət və tələbələr üçün əlçatanlığının təmin edilməsi daxili maraqlı tərəflər arasında qarşlıqlı əlaqənin qurulmasına töhvə verməsi ilə yanaşı təlim və tədris prosesinin keyfiyyətinin artırılmasına da müsbət təsir edə bilər.

#### 2.3.2. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Universitet rəhbərliyi ilə keyfiyyətə məsul şöbə arasında səmərəli kommunikasiya sistemi kimi Blackboard platformasından istifadə edilməsi nəzərdə tutulmuşdur. Keyfiyyət təminatı sistemi üzrə qiymətləndirmə əsasən təlim və tədris prosesini əhatə edir. Bunun təsdiqi kimi tələbələr arasında müəllimdən və fənnin məzmunundan məmnunluqla bağlı məsələlərin qiymətləndirilməsi üçün keçirilən sorğuları qeyd etmək olar. Qeyd edilənləri nəzərə alaraq, daxili maraqlı tərəflər arasında keçirilən sorğuların istiqamətlərinin şaxələndirilməsi məqsədəuyğun hesab edilir. Bundan başqa sorğularda iştirak edən respondentlərin iştirak faizinin 1-5 faizi əhatə etməsi sorğular üzrə əldə edilmiş təhlillərin statistik və məzmun etibarlılığına tam təminat vermir. Sorğuların keçirilməsi prosesində sistemliliyin təmin edilməsi üçün Universitetdə mövcud olan “Student information System”in imkanlarından istifadə edilməsi tövsiyə ediləndir. Universitetdə “BDU könüllüləri”nin təşkilati işlərdə və Universitet həyatında yaxından iştirakı qeyd edilməsi gərəkən müsbət məsələlərdəndir. Vurğulamaq lazımdır ki, Universitetdə tələbələr arasında hər il “Müəllim tələbənin gözü ilə” anket sorğusu aparılır və akademik heyətin açıq dərslərinin qiymətləndirilmə meyarları mövcuddur. Bundan başqa akademik heyətin elmi fəaliyyətinin müəyyən edilməsi prosesi sistemliliyi də qeyd edilməlidir.

#### 2.3.3. Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Universitet rəhbərliyi tərəfindən mütəmadi olaraq universitetdə keyfiyyətin aparılması prosesləri yaxından izlənilir və keyfiyyət istiqamətləri üzrə təkmilləşdirilmələrin aparılması məqsədilə fəaliyyətlər və islahatlar davamlı olaraq müzakirə və müəyyən edilir.

#### 2.3.4. Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

BDU-da strukturlararası koordinasiya vəziyyətinin təkmilləşdirilməsinə ehtiyac vardır. Fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac duyulan digər struktur vahidi isə Keyfiyyətin təminatı və monitorinq şöbəsidir. Belə ki, adıçəkilən şöbə yalnız təlim və tədrisə dair fəaliyyətlərin keyfiyyətinin izlənilməsini icra edir. Bu fəaliyyətlərin icrası məqsədilə fakültələr üzrə müxtəlif tipli informasiyaların toplanmasının dekanlıqlar və qismən də BDU könüllüləri vasitəsilə həyata keçirildiyi müəyyən olunmuşdur. BDU-da qurulmuş Keyfiyyət təminatı sisteminin Universitet üzrə bütün prosesləri əhatə etməsinin təmin edilməsinə, həmçinin bu fəaliyyətlərin davamlı monitorinq edilən və maraqlı tərəflərin rollarının və səlahiyyətlərinin dəqiq əks olunan sistemli bir mexanizm üzərində qurulmasına ehtiyac vardır.

## 3 TƏLİM VƏ TƏDRİS

### *3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

**3.1.1.Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti**
**3.1.2. ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti**
**3.1.3. Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti**
**3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması**

Müsahibədə tələbə qəbulu üzrə sifarişlərin formalaşdırılmasında əmək bazarının tələblərinin müəyyən edilməsi və bu prosesdə işəgötürənlərin iştirakının təmin edilməsi ilə bağlı müvafiq prorektora sual ünvanlanmışdır. Bu prosesdə Dövlət proqramları, istehsalatdakı müxtəlif müəssisələrdə olan “kafedra filiallarının” rəyləri, o cümlədən Universitetin infrastrukturunun nəzərə alındığı qeyd olunmaqla, Özünütəhlil Hesabatında müəssiələrdəki kafedra filialları haqqında məlumat Əlavə 7-də verilmişdir. Müvafiq məlumatların Özünütəhlil hesabatında verilməsi daha məqsədəuyğun hesab edilir. Bundan başqa, tələbə qəbulu sifarişlərinin hazırlanması prosesində əmək bazarı nümayəndələrinin iştirakı istiqamətində daha effektiv iş aparılması məqsədəuyğundur.

Qeyd olunan meyar ilə bağlı fakültələrdə müvafiq komissiyaların (Ekvivalentlik komissiyaları) fəaliyyət göstərdikləri bildirildi və həmin komissiyaların rəyi əsasında kreditlərin uyğunluğunun müəyyənləşdirildiyi qeyd olundu. Komissiya tərəfindən uyğunlaşdırılma prosesi başa çatdıqdan sonra kreditlərin tanınması müvafiq qaydada əmrlə rəsmiləşdirilir. Bu məsələ ilə bağlı yerində sənədlərə baxış keçirilmişdir. Fakültələrdə kreditlərin tanınması işinin normal təşkil olunması təsbit edilmişdir.

### *3.2. Təhsil proqramları*

**3.2.1. ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi**

BDU-da təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır. Belə ki, Universitetdə ali təhsilin bakalavriat səviyyəsində 83 ixtisas üzrə, magistratura səviyyəsində 246 ixtisaslaşma üzrə və doktorantura səviyyəsində isə 123 ixtisas üzrə müvafiq olaraq tələbə, magistr və doktorant (dissertant) qəbulu həyata keçirilir.

**3.2.2. ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti**

SİP-ə uyğun olaraq təhsillə bağlı hesabatlardan biri də təhsil proqramlarına aiddir. İkili diplom olan proqramlarda (10-a yaxın proqram) təhsil proqramları xarici tərəfdaşlarla razılaşdırılır və beynəlxalq proqramlara uyğunlaşdırılır. Müsahibə müddətində Universitet tərəfindən ümumi şəkildə qeyd olundu ki, təhsil proqramlarının məzmununun əmək bazarına uyğunlaşdırılması zamanı işəgötürənlərlə məsləhətləşmələr aparılır.
Proqramların monitorinqi Keyfiyyət təminatı və monitorinq şöbəsi tərəfindən həyata keçirilir. Monitorinqin şöbənin fakültələrdəki nümayəndələri tərəfindən sorğular və görüşlər vasitəsilə aparıldığı müəyyənləşdirilmişdir.

Əmək bazarının tələbləri nəzərə alınaraq BDU-da magistratura səviyyəsində “Aktuar riyaziyyat”, "Ekologiya hüququ”, “Vergi hüququ”, “Mədəniyyət hüququ”, “Tətbiqi biotexnologiya”, “Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı” və s. kimi ixtisaslaşmalar üzrə kadr hazırlığı aparılır.

İkili diplom proqramları üzrə təhsil proqramlarının hazırlanmasında Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müasir tələblər, milli qanunvericilik və ölkənin strateji prioritetləri nəzərə alınmışdır.

Sahə baxışı müddətində tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında fakültə və kafedra iclaslarında müzakirələrin aparıldığı, əmək bazarının tələbləri, ixtisas üzrə məzun kompetensiyaları, kadr hazırlığı üçün infrastruktur və kadr potensialı, məzunların işədüzəlmə və təhsilini artırma imkanları əsasında formalaşması müəyyən olunmuşdur.

**3.2.3. ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti**
**3.2.4. Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu**

BDU-da təhsilin bütün pillələri və səviyyələri üzrə tədris proqramlarının hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması prosesləri “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun təşkil olunur və bu sahədə mütəmadi işlərin aparılması qeyd olunmuşdur.

**3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu**

Bakı Dövlət Universitetinin 2021-2022-ci illərdə daxili keyfiyyət təminatı üzrə fəaliyyətinə dair Hesabatın “Təhsil proqramlarının məzmunu” hissəsində (4-cü maddə) Təhsil proqramlarının və onların komponentlərinin proqramın və fənnin təlim nəticələri nəzərə alınmaqla tərtib edilməsi qeyd olunub. Lakin “Göstəricilər”, “Əsaslandırma” və “Təkmilləşdirilməsi üçün görülən işlər” barədə qeydlər aparılmamışdır. Yerində baxış zamanı isə bu sahədə işlərin aparılması müəyyən olunmuşdur.

**3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTS) prinsiplərinə uyğunluğu**
**3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu**

Universitetin Avropa Ali Təhsil Məkanına inteqrasiyasını sürətləndirmək, diplomların qarşılıqlı tanınmasını təmin etmək və tələbə-müəllim mobilliyini inkişaf etdirmək məqsədilə Təhsil proqramları Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır. Yerində baxış zamanı bəzi praktiki fənlərin mühazirə-seminar şəklində keçirilməsi müəyyən olunmuşdur. Bu tipli fənlərin təcrübi formada tədrisi daha məqsədəuyğun hesab edilir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Müsahibə zamanı bildirildi ki, kreditlərə uyğun olaraq auditoriya saatlarının müqdarı əsasən kafedralar tərəfindən müəyyən olunur. Bu prosesə tədrisə məsul müvafiq şöbələr tərəfindən nəzarət edilir.

### 3.2.9.Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

BDU-nun rəsmi saytının, rəsmi sosial media hesablarının və s. olmasına baxmayaraq təhsil proqramları üzrə təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı yetərincə təşkil olunmamışdır. Lakin bu sahədə də işlərin aparıldığı, nümunə olaraq, BDU-nun rəsmi saytının yenilənməsi məsələsi qeyd olunmuşdur.

### 3.2.10. Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Hesabatda da qeyd edildiyi kimi BDU-da təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində Respublikanın istehsalat və sənaye müəssisələrindən aparıcı mütəxəssislərin rəyi nəzərə alınmışdır (Məs. Azərsu ASC-də kafedra filialının fəaliyyət göstərdiyi qeyd olunub). Əmək bazarının nümayəndələri tədrisə cəlb olunmuşdur.

## *3.3. Tədrisin təşkili*

### 3.3.1.Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

BDU-da tədris planları, əsasən, kredit sisteminin tələbləri gözlənilməklə tərtib edilmişdir. Bakalavr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 240 kredit və magistr dərəcəsinin alınması üçün 120 kredit normativ hüquqi sənədlərə müvafiq olaraq semestrlər üzrə bərabər şəkildə (hər semestr üzrə 30 kredit) bölünmüşdür.Tədris planında öyrənilməsi məcburi olan ümumi fənlərə 24 kredit, bu modulun seçmə fənlər blokuna 6 kredit, ixtisas fənləri blokuna (o cümlədən, Mülki müdafiə fənni üzrə) 120 kredit, universitet tərəfindən müəyyən edilən ixtisasın seçmə fənlərinə 60 kredit ayrılmışdır. Tədris planında ümumi və ixtisas fənləri arasında balans 30:180 nisbətində saxlanılır. Bu zaman məcburi fənlər nisbəti 24:120, seçmə fənlər nisbəti isə 6:60-dır.

Bununla yanaşı, yerində aparılan verifikasiya zamanı Tədris planlarında və işçi tədris planlarında bəzi çatışmamazlıqlar aşkarlanmışdır (Kimya müəllimliyi ixtisası üzrə 2020-ci ildə təsdiq olunmuş tədris qrafiki müvafiq təhsil proqramı ilə tam uyğun deyil, Mexanika ixtisasında həftəlik dərs saatları ümumi auditoriya saatlarına uyğun deyil). Fakültə Elmi Şurasının illik planında qoyulan bəndlər fakültənin fəaliyyət istiqaməti üzrə nəzərdə tutulan bütün məsələləri tam əks etdirmir (Məs. kollokviumların müzakirəsi).

### 3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki bəzi texniki qüsurlar olsa da, ümumilikdə uyğundur.

**3.3.3.Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti**

Hesabatda qeyd edildiyi kimi fakültələrdə seçmə fənn kataloqu mövcuddur. Ehtiyaca uyğun olaraq tədris planlarında sonradan bəzi dəyişikliklərin aparıldığı vurğulandı.

**3.3.4. Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti**

Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması əsasən gözlənilmişdir.

**3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi Fənn üzrə sillabusların mövcud olmasına baxmayaraq (işçi fənn proqramları) təhsil proqramında göstərilən fənnin təlim nəticələrinə uyğunluğun təmin edilməsi məsələsinin tənzimlənməsinə ehtiyac vardır. Yerində baxış zamanı İxtisasın tədris planlarının tərtibində isə fənlərin say həddi (5-6 fənn) gözlənilmişdir.

**3.3.6.Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Fənn müəllimləri tərəfindən hazırlanmış sillabuslar (fənn proqramları) kafedralarda müzakirə olunmuş və kafedra müdiri tərəfindən təsdiq olunmuşdur.

Universitet üzrə vahid sillabus formasının tətbiq olunduğuna baxmayaraq, 2022/2023-cü tədris ilinin yaz semestri üçün bəzi kafedralarda formadan kənaraçıxmaların olması və bəzi fənlər üzrə təlim nəticələrinin ətraflı təsvir edilmədiyi müşahidə edilmişdir.

**3.3.7.Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

BDU-da beş günlük iş rejimində tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik auditoriya saatının miqdarı ixtisaslar üzrə əsasən 22 saat həcmində müəyyənləşib, fənlərin sayı isə 5-6 tərtibindədir.

**3.3.8.Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Fərdi tədris planlarında ixtisasın tədris planına əsasən tələbənin tədris ili ərzində semestrlər üzrə keçəcəyi fənlər, onların kreditləri və fənni tədris edəcək müəllimlərin ad və soyadları göstərilmişdir.

Tələbənin fərdi tədris planının hazırlanması ilə bağlı Özünütəhlil Hesabatında *"Birinci kursa qəbul olunan tələbələr üçün fakültə tərəfindən fərdi tədris planı hazırlanır. Növbəti tədris ilində tələbələr ixtisasın tədris planı əsasında öz fərdi tədris planını hazırlayır, lazımi*

*hallarda akademik məsləhətçi (tyutor) ilə bu barədə məsləhətləşmələr aparır, onu imzalayır, tarix qeyd olunur və 25 iyun - 10 iyul tarixinə qədər fakültəyə təqdim edir. Yalnız payız semestrində akademik borcu olanlar qış tətilinin ilk həftəsində fərdi tədris planlarında müvafiq düzəlişlər edə bilərlər"* qeyd edilmişdir. Lakin, Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarının 3.3. (Tələbənin fərdi tədris planının tərtibi) hissəsində tələbələr öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir.

Yerində baxış zamanı bəzi fakültələrdə Tələbənin fərdi tədris planlarında dəqiqləşdirilmələrin aparılmasına ehtiyacın olduğu aşkar edilmişdir (Məs. Geologiya, Kitabxanaçılıq və informasiya və s. fakültələri).

**3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən təsdiq olunmuş ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı mövcuddur.

**3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən kafedralar üzrə təsdiq olunmuş müəllimin illik işçi tədris planları mövcuddur.

**3.3.11.Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, ixtisas üzrə Təhsil proqramında hər fənn üzrə AKTS krediti müəyyən olunmuşdur. Bu kreditlərə uyğun olaraq, mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin saatları kafedralarda professor-müəllim heyətinin müzakirələri əsasında müəyyən edilir və tədris planlarında öz əksini tapır.

**3.3.12.Məsləhət xidmətinin təşkili vəziyyəti**

BDU-da məsləhət saatları hər bir mühazirə dərsinə bir tədris qrupu üçün 1 saat olaraq müəyyənləşdirilmişdir.

### 3.3.13.Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Tələbələrin sərbəst işinin təşkili BDU-nun Elmi Şurasının 2014-cü il 15 oktyabr tarixli iclasının qərarı ilə təsdiq edilmiş "Bakı Dövlət Universitetində tələbələrin sərbəst işlərinin yerinə yetirilməsi haqqında Təlimat"a əsasən aparılır.

Müxtəlif ixtisaslar üzrə bəzi fənlərdə hər bir tələbə üçün 10 sərbəst iş, bəzilərində isə bir sərbəst iş verilir. Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Sərbəst işin yerinə yetirilməsinə görə tələbəyə maksimum 10 bal verilir.

### 3.3.14.Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, ixtisaslar üzrə təcrübələr (istehsalat, pedaqoji, çöl, elmi-tədqiqat və s.) Universitetin Quba tədris, təcrübə və istirahət Mərkəzində, BDU-nun Altıağac tədris-təcrübə bazasında, dövlət qurumları, dövlət və özəl şirkətlər, ümumtəhsil məktəbləri, BDU-nun və elmi-tədqiqat institutlarının laboratoriyaları, beynəlxalq təşkilatlar və digər müəssisələrdə təşkil edilir. Yerində baxış zamanı müəyyən edilmişdir ki, Universitetlə təcrübə təşkil olunacaq təşkilat arasında müvafiq qaydada müqavilələr imzalanmışdır. Bununla yanaşı, bəzi müqavilələrdə tarix və nömrənin yazılmadığı müəyyən edilmişdir.

Müsahibələrdə təcrübələrin təşkili, xüsusilə də qiymətləndirilməsi ilə bağlı verilən suallara heyət üzvləri tərəfindən əhatəli cavablar təqdim edilməmişdir. Təcrübələrin təşkili vaxtının müəyyənləşdirilməsinə, həmçinin qiymətləndirilməsi ilə bağlı təkmilləşdirmələrin aparılmasına ehtiyac vardır (məs: Geologiya fakültəsi).

### 3.3.15.Stajkeçmənin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, hesabat dövründə BDU-nun əməkdaşları stajkeçmə üçün Respublikanın 33 müəssisəsinə göndərilmişdir. BDU-ya stajkeçmə üçün əməkdaş göndərən müəssisələrin sayı isə səkkiz olmuşdur. O cümlədən BDU-dan kənar müəssisələrə stajkeçməyə göndərilən əməkdaşların sayı 454, kənar müəssisələrdən stajkeçməyə gələn əməkdaşların sayı isə 44 olmuşdur. Mövlanə və Erasmus+ proqramları çərçivəsində 56 əməkdaş xarici ölkələrdə ixtisasartırma prosesində iştirak etmişdir.

### 3.3.16.Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Kurs layihəsi (işi) və referatların hazırlanması BDU-nun Elmi Şurasının 2014-cü il 15 oktyabr tarixli iclasının qərarı ilə qəbul edilmiş "Bakı Dövlət Universitetində tələbələrin kurs işləri (layihələri) haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir. Kurs layihəsinin (işinin) və referatların müdafiəsi müvafiq kafedralar tərəfindən müəyyən edilmiş müddətlərdə tələbələrin iştirakı ilə təşkil olunur.

### 3.3.17.Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

İxtisas kafedralarında elmi-tədqiqat işi ilə məşğul olan professor-müəllim heyəti tərəfindən buraxılış işi və dissertasiya mövzuları hazırlanır. Buraxılış işi və magistr dissertasiyası işlərinin mövzuları müvafiq kafedralarda müzakirə olunur və Fakültə Elmi Şurasının qərarı ilə təsdiq olunur. Müsahibələr zamanı bildirildi ki, buraxılış işi üzrə müdafiəyə qədərki bal (50 bal) may ayının sonuna qədər kafedralarda ilkin müzakirələr əsasında müəyyən olunur. Özünütəhlil Hesabatda qiymətləndirmə ilə bağlı meyarların göstərilməsi məqsədəuyğun olardı.

### 3.3.18.İmtahan sessiyasının təşkili vəziyyəti

BDU-da imtahan sessiyalarının təşkili mövcud qanunvericiliyə və müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir. İmtahan sessiyası ilə bağlı müvafiq qaydada əmr verilir. İmtahanların Universitetdə Tədris mərkəzinin nəzdində yaradılmış şöbədə monitorlarla təchiz olunmuş kabinetdə xüsusi təyin olunmuş əməkdaşlar tərəfindən izlənilməsi təqdirəlayiqdir.

### 3.3.19.Yay semestrinin təşkili vəziyyəti

BDU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən tənzimlənir.

Hesabat dövründə yay semestri üzrə statistik göstəricilər aşağıdakı kimidir:



### 3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Hesabat dövründə BDU-da kredit borcu yaranmış tələbələrin və fənlərin illər üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

| Tədris ili | I tədris ili üzrə | II tədris ili üzrə | III tədris ili üzrə | IV tədris ili üzrə | V tədris ili üzrə | Cəmi |
|---|---|---|---|---|---|---|
| **2016/2017** | **2717** | **2382** | **1577** | **903** | **81** | **7660** |
| **2017/2018** | 2780 | 2460 | 1931 | 783 | 84 | 8038 |
| **2018/2019** | 2542 | 2132 | 1696 | 793 | 93 | 7256 |
| **2019/2020** | 1665 | 1480 | 1332 | 724 | 49 | 5250 |
| **2020/2021** | 279 | 390 | 242 | 86 | 33 | 1030 |
| **2021/2022** | 2400 | 2258 | 1653 | 457 | 60 | 6828 |

Cədvəldən də göründüyü kimi, pandemiya dövründə (məs. 2020/2021-ci tədris ili) kredit borcu olan tələbələrin sayı digər tədris illərinə nisbətən 4-7 dəfə az olmuşdur. Bu da pandemiya dövründə ali təhsil müəssisələrində tətbiq edilmiş qiymətləndirmə mexanizminin tətbiqi ilə bağlıdır.

### 3.3.21.Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

| Tədris ili | Cəmi say |
|---|---|
| 2016/2017 | 1544 |
| 2017/2018 | 1553 |
| 2018/2019 | 1517 |
| 2019/2020 | 1128 |
| 2020/2021 | 512 |
| 2021/2022 | 1583 |

### 3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris prosesində səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə bağlı sorğuya Keyfiyyət təminatı və monitorinq şöbəsi tərəfindən hər hansı tədbirlərin görüldüyü və ya mexanizmin mövcudluğu barədə əhatəli cavab təqdim edilmədi.

## *3.4. Tədris metodları və üsulları*

### 3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

BDU-nun Özünütəhlil Hesabatında qeyd olunur ki, "təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə BDU-da prioritet istiqamət hesab edilir" (s. 49). Eyni zamanda BDU-da əməkdaşlarla aparılan müsahibələr zamanı Universitetdə müasir tədris metodları və üsullarından istifadə edildiyi də qeyd edilmişdir.

Universitetdə yerində baxış zamanı, Komissiya sədri və üzvləri səkkiz bakalavr və iki magistr səviyyəsində tədris olunan dərslərdə (Kimya, Fizika, Beynəlxalq Münasibətlər, Hüquq və Filologiya fakültələrində) iştirak etmiş və dərslərin qismən *innovativ və interaktiv* metod və texnologiyalarından istifadə edilərək tədris olunduğunu müşahidə etmişlər. Ümumi olaraq, müşahidə edilən 10 dərsdən 5-ni *innovativ* (proyektordan istifadə edildiyi faktını nəzərə alaraq) və qismən *interaktiv* (sual-cavab, kiçik qruplarda işin təşkilini nəzərə alaraq) qiymətləndirmək olar. "Yaradıcı" tədris metod və texnologiyalarından istifadə barədə professor-müəllim heyətinin təlimləndirilməsi ehtiyacı da yerində baxış müddətində müəyyən edilən məqamlardandır.

BDU-nun Özünütəhlil Hesabatında qeyd olunur ki, "Müəllimlər əsasən "Beyin fırtınası", dəyirmi masa şəklində təşkil olunan seminar, izahlı-illüstrativ seminar, oyun şəklində təşkil olunan seminar formalarına, interaktiv təlim forması, problemli mühazirələr, dialoq mühazirələr, mətbuat konfransı şəklində təşkil olunan mühazirə və s. formalara üstünlük verirlər. Universitet üzrə tədris olunan fərqli ixtisaslar üzrə sillabuslarda təlim formalarının və nəticələrinin daha əhatəli təsvir edilməsi məqsədəuyğun hesab edilir.

BDU-da əməkdaşlarla aparılan müsahibələr zamanı qeyd olundu ki, ATM-in hər bina və otağında sürətli internet mövcud olmadığından mövcud elektron təhsil portalından (Blackboard) və mövcud digər texnologiyalardan tam şəkildə istifadə etmək mümkün olmur. Mövcud müasir tədris metodları və alətlərindən istifadəni optimallaşdırmaq üçün Universitetin bütün tədris binalarının və auditoriyalarının sürətli internetə çıxışını təmin etmək üçün müvafiq addımların atılması tövsiyə olunur.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

BDU-da aparılan müsahibələr zamanı tədris metodlarının tələbəyönümlü olduğu, fənlərin tənqidi təfəkkür, problem yönümlü və səriştə əsaslı tədris yanaşmalarından istifadə edilərək tədris olunduğu qeyd olundu. Eyni zamandan BDU-nun Özünütəhlil Hesabatında (səh. 53) kafedralarda müasir təlim və tədris metodlarının tətbiqinin əhəmiyyəti müzakirə olunduğu qeyd olunsa da, hansı dərəcədə tədbiq olunması ilə bağlı məlumat təqdim

olunmadı. Məlumatın dəqiqləşdirilməsi ilə bağlı Keyfiyyət Təminatı Şöbəsində (KTŞ) açıq, monitorinq dərslərinin müşahidə olunması ilə bağlı hesabatlar və sorğu nəticələrinə baxış keçirildi. Qeyd olunan məsələ ilə bağlı təqdim olunmuş verifikasiya sənədlərinə baxış zamanı müəyyən olunmuşdur ki, keçirilən açıq və monitorinq dərslər haqqında müşahidəçilərin rəyləri əsasən ümumi xarakter daşıyır və detallı təsvir təmin olunmamışdır.

Müsahib qismində dəvət edilmiş təhsilalan nümayəndəsinə verilmiş uyğun məzmunlu suala cavab olaraq tələbəyönümlü tədris üsulları kimi auditoriyada müəllim tərəfindən qarşılıqlı ünsiyyətin qurulması, auditoriyanın ələ alınması və mühazirə zamanı müəllimin nitq qabiliyyətinin yaxşı olması kimi fikirlər səsləndirildi. Qeyd edilən cavablara əsasən müvafiq yanaşma və onun tətbiqi ilə bağlı təhsilalanların maarifləndirilməsinə ehtiyac duyulur. Yerində baxış zamanı müşahidə edilən dərslərdən (fənlərdən) biri laboratoriya şəraitində tədris olunurdu ki, bu da BDU-da müvafiq fənlərin tədrisində praktiki tətbiqə əsaslanan tədris yanaşmalarının istifadə olunduğunu göstərir.

Tədris prosesinin müasir təlim texnologiyalarından istifadə edərək təşkilini təmin etmək məqsədilə Universitetin Keyfiyyətin təminatı və monitorinq şöbəsinin keçirilən açıq dərslərə nəzarət etməsi, aidiyyatı üzrə hesabatlar təqdim etməsi və əldə olunan nəticəyə uyğun təkliflər irəli sürməsi tövsiyə olunur. Fakültələrə təhkim olunmuş kafedraların əməkdaşlarının müasir təlim texnologiyalarından istifadəni optimallaşdırmaq, uyğun öyrənmə mühiti yaratmaq və praktiki tədris yanaşmalarından istifadə etmək və davamlı peşəkar inkişafı təmin etmək üçün təlimlərə cəlb olunması tövsiyə olunur. Universitet həmçinin innovativ tədris metodlarını dəstəkləmək üçün resursların və imkanların mövcudluğunu bütün Universitet ərazisində ( məs. hər bina, auditoriya, laboratoriyada) təmin etməsi, tədris və təlim metodlarını davamlı olaraq təkmilləşdirmək üçün müntəzəm əks-əlaqə mexanizminin yaradılması tövsiyə olunur.

**3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**
**3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**
**3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**
**3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**
**3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**
**3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Özünütəhlil Hesabatında qeyd olunur ki, fərdi qabiliyyətlərin inkişafına və tələbə mərkəzli təhsilin təmin edilməsinə diqqət yetirməklə BDU-da tədris və təlim proseslərində rəqəmsal texnologiyalardan istifadə edilir. Belə ki, rəqəmsal texnologiyaların tədris prosesində geniş tətbiqinə maneələrin aradan qaldırılması üçün multimedia tədris vəsaitlərinin istifadəsi və rəqəmsal infrastrukturun inkişafı həlledici əhəmiyyət kəsb edir. Aparılan görüşlər nəticəsində aydın oldu ki, Universitet rəhbərliyi bu istiqamətdə görülən işlərə böyük önəm verir və bu sahədə müvafiq addımlar atılır. BDU həmçinin problem əsaslı və nəzəriyyə-təcrübə yanaşmaları da daxil olmaqla bir sıra tədris yanaşmalarından- həm formal, həm də qeyri-formal tədris metodlarından istifadə edir. Yerində baxış zamanı (dərslərin müşahidəsi) sadalanan bəzi tədris metodlarına qismən də olsa rast gəlindi.

BDU rəqəmsal texnologiyaların və innovativ tədris metodlarının tətbiqinə xüsusi önəm verir. Tədrisdə tələbə mərkəzli yanaşmanın tətbiqinin vurğulanması da müsbət haldır. Bununla belə, BDU-nun daha da təkmilləşdirilməyə ehtiyac duyulan bəzi sahələri var. Qeyd etmək lazımdır ki, müəllimin yalnız bilik ötürən deyil, eyni zamanda, tələbələrin tənqidi təfəkkür və müstəqil düşünmə qabiliyyətini, tədqiqat, eləcə də yumşaq bacarıqlarını (soft skills) inkişaf etdirmək məqsədilə fərqli qiymətləndirmə tapşırıqlarından istifadə edən bir bələdçi (fasilitator) olması tövsiyə olunur. Bundan başqa, tələbələrin həm rəqəmsal infrastruktur, həm də tədris materialları baxımından yüksək keyfiyyətli resurslara çıxışının təmin edilməsinə daha çox diqqət yetirilməsi də prosesə öz müsbət təsirini göstərmiş olar. Müvafiq addımlar tədris prosesində yalnız dərs vəsaitlərindən deyil, hər mövzu üzrə beynəlxalq tədqiqat mənbələri platformasından məqalələr əldə etmə imkanı yarada bilər.

Bundan əlavə, tələbə mərkəzli təhsilin əhəmiyyətini nəzərə alaraq tələbə ehtiyaclarının və maraqlarının qarşılanmasının hansı formada təmin olunması ilə bağlı sübutedici sənədlərin sistemləşdirilməsi məqsədəuyğun hesab edilir. Tələbələrin iştirak etdiyi sorğu nəticələrinin təhlili, qiymətləndirilməsi və əldə olunan nəticələr əsasında hər hansı bir dəyişikliyin olunduğuna və ya işin görüldüyünə dair hesabatlardan faktoloji məlumatları (respondent sayı, sorğunun əhatə etdiyi fakültələr üzrə tələbə sayı, müəllimlərin qiymətləndirilməsi zamanı hesablanmış orta bal göstəriciləri və s) ümumiləşdirmək və bununla da hesabatın daha konkret yazılması tövsiyə edilir. BDU həmçinin tələbərin ehtiyaclarının ödənilməsini təmin etmək üçün onların rəylərini və qiymətləndirmələrini gələcəkdə akkreditasiya zamanı özünütəhlil hesabatına daxil etməyi də nəzərdən keçirə bilər.

## *3.5. Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

BDU-da tədris prosesində aktiv öyrənməni təşviq etmək məqsədilə texnoloji imkan olaraq Blackboard (BB) və CLİX sistemindən istifadə olunur. Hətta müsahibələr zamanı BB sisteminin daha rahat və geniş istifadəsi üçün  Azərbaycan dilinə tərcümə edildiyi də qeyd edilmişdir. ÖTH-də əksər mühazirələrin elektron variantının müvafiq veb səhifələrdə yerləşdirildiyi qeyd olunsa da müsahibə zamanı məlum olmuşdur ki, bəzi auditoriyalarda internet təminatı olmadığına görə Blackboard sistemindən bu məqsədlə istifadə qeyri-mümkündür.

Qeyd olunan CLİX proqramından isə əsasən pandemiya zamanı onlayn dərslərin təşkili üçün bir müddət istifadə olunduğu qeyd olundu. Eyni zamanda müsahibələr zamanı universitetin bəzi auditoriyalarında yüksək sürətli internetin olmamasından və  tədrisə cəlb olunan professor-müəllim heyətinin bir qisminin yaşlı nəsil olduğu üçün Blackboard platformasından aktiv istifadə olunmaması da qeyd olundu. Yerində baxış zamanı internetə çıxış və video müşahidənin hər tədris otağı üçün təmin olunması məqsədilə işlərin görüldüyü müşahidə olundu.

Müsahibə və müşahidələr zamanı Universitetdə elektron jurnalların mövcud olmadığı və tələbələrin davamiyyətinin və gündəlik dərs mövzularının qeydiyyatının ənənəvi üsülla, kağız jurnallarda aparıldığı müşahidə olundu.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Özünütəhlil hesabatında qeyd olunduğu kimi Universitetdə müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyalar var. Belə ki, "84 auditoriya proyektorla, 53 auditoriya ağıllı lövhələrlə təmin edilmişdir. İnternetə çıxışı olan kompüterlərin sayı ümumi kompüterlərin sayının 65%-ni təşkil edir. Auditoriyaların 56%-nin internetə çıxışı təmin olunmuşdur. Əksər auditoriya və laboratoriyalarda keçirilən mühazirə, məşğələ və laboratoriya dərslərinin gedişini mərkəzləşdirilmiş video sistemlə izləmək imkanı mövcuddur." (səh. 51). BDU-nun tələbə sayını və maddi-texniki bazasını (əsasən bina və auditoriya fondunu) nəzərə alaraq əldə edilən nəticələrin daha da genişləndirilməsinə ehtiyac var. Universitetin strateji inkişaf planında qeyd olunan hədəflərini nəzərə alaraq, mövcud avadanlıq və təhsil platformalarından (Blackboard və CLİX) tam səmərəli şəkildə istifadəni təmin etmək üçün bütün Universitet ərazisində sürətli internetə çıxışı təmin etmək zəruridir. Əlavə olaraq mövcud kompüterlərin tam şəkildə sürətli internetə çıxışına, bütün auditoriyaların yeni nəsil texnika ilə təchizatına və video izləmə imkanı olan auditoriya sayının artırılmasına ehtiyac var.

Müsahibələr zamanı müasir təlim prosesini təşkil etmək üçün lazımi texnika ilə təchiz olunmuş auditoriyaların sayının az olduğu qeyd olundu. Elektron jurnalların istifadə olunmamasının əsas səbəbi kimi internet təminatının bütün Universitet ərazisində olmaması ilə əlaqələndirildi. Müşahidə zamanı nəzarət otağına (control room) baş çəkildi və bəzi otaqlarda video izləmənin mövcud olduğu və bu video yazıların 1 ay ərzində saxlanıldığı haqda məlumat da əldə edildi.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyətinin yaxşılaşdırılmasına ehtiyac vardır. Universitetdə elektron jurnal mövcud deyil. Tələbələrin təlim prosesində iştirakı və aktivliyi kağız jurnalda qeydə alınır və qiymətləndirilir. Əlavə olaraq, Universitetdə iki fərqli elektron tədris platforması mövcud olsa da, müvafiq platformaların tam funksionallığının təmin edilməsinə ehtiyac vardır. CLİX Universitet tərəfindən öncədən istifadə edilən elektron tədris platforması olmaqla bütün imtahan və test sualların yerləşdirildiyi və imtahan qiymətləndirməsində istifadə olunduğu qeyd olundu.

Əlavə olaraq Universitetdə Blackboard platforması da mövcuddur və Azərbaycan dilinə tərcüməsi də təmin edilib. Müsahibə zamanı Youtube kanalında BDU-nun tələbə və professor-müəllim heyəti üçün Blackboard-un səmərəli istifadəsi üçün qısa təlim xarakterli videolar hazırlanıb və hər kəs üçün əlçatanlığının təmin olunması qeyd edildi. (https://www.youtube.com/@bakdovltuniversiteti-black622). Lakin sözügedən elektron tədris platformasının tam versiyasını əldə etmək üçün böyük maliyyə vəsaiti tələb olunduğu üçün Universitet hələ ki, sadəcə iki modulunu əldə edə bilib. Bu səbəbdən, Blackboard

platforması tam funksionallığının təmin edilmədiyi, yalnız hibrid dərslər üçün istifadə olunduğu müəyyən edildi.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Universitetdə tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu qismən təmin edilib və bu istiqamətdə təkmilləşmə işləri görülür. İstənilən təhsil proqramı üçün müasir rəqəmsal xidmətlərin və texniki təminatın mövcudluğu vacibdir. Bu baxımdan Universitetdə müəyyən auditoriyaların proyektor, kompüter və internetə çıxış ilə təmin edilməsi, kompüterlərlə təchiz olunmuş laboratoriyalar və elektron kitabxananın mövcud olması və təhsilalanların Universitetin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışının təmin edilməsi istiqamətində görülən işlər təqdirəlayiqdir.

Bu sahədə Universitet daha da çox iş görməli, mövcud texniki infrastrukturu daha da inkişaf etdirərək bütün mühazirə və məşğələ otaqlarını proyektor, kompüter və internetə çıxış ilə təmin etməlidir. Eləcə də Universitetin bütün ərazisindəki mövcud laboratoriyarda (computer labs) kompüterlərin internetə çıxışının hər kəs üçün əlçatan olmasının təmin edilməsi zəruridir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti qismən qənaətbəxş hesab edilir. Özünütəhlil Hesabatında qeyd olunur ki, "BDU-da akademik, inzibati və tədris otaqları da daxil olmaqla, ümumilikdə 2000-dən artıq kompüter vardır, onlardan 800-dən çoxu auditoriya və tədris laboratoriyalarındadır. Universitetdə 25 kompüter laboratoriyası fəaliyyət göstərir. İstifadə olunan internet şəbəkəsinin maksimal sürəti 500 mbit/san, orta sürəti isə 10 mbit/san-dir." (səh. 51). Halbuki, müsahibələr zamanı qeyd olundu ki, Universitetdə elektron jurnaldan və elektron tədris platformasından səmərəli istifadə üçün ən böyük maneələrdən biri hər otaqda kompüterin və sürətli internetin mövcud olmamasıdır. Yerində baxış zamanı, müşahidə olunan dərslər zamanı bəzi mühazirə və məşğələ otaqlarında proyektor və kompüterin olmadığı da müəyyən edildi. Lakin, Universitetdə bu istiqamətdə lazımi işlərin görüldüyü, nümunə olaraq, 2-ci korpusun tamamən yenilənməsi, yeni internet xəttlərinin çəkilməsi, yeni Mükəmməllik mərkəzinin inşası və s. kimi hallar da müəyyən edilmişdir.

Əlavə olaraq, hesabatda da qeyd edildiyi kimi "CodeAcademy" və "DevEducation" tərəfindən reallaşdırılan layihə çərçivəsində BDU tərəfindən ən müasir kompüter və avadanlıqlarla təchiz olunmuş yeni 6 xüsusi auditoriya yaradılmışdır.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

BDU-da mövcud auditoriya fondu onun mövcud tələbə sayına uyğun deyil. Bu narahatçılıq Universitetin rəhbərliyi tərəfindən də görüşlər zamanı qeyd edildi. Belə ki, Universitetin ümumi auditoriya fondu 48608 kv.m., umumi tələbə sayı isə 24584 nəfərdir. Tələbə sayını mövcud auditoriya fonduna nisbəti əsasında tədris auditoriyalarının çatışmamazlığı qənaətinə gəlinmişdir.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası qənaətbəxşdir. Özünütəhlil hesabatında qeyd olunduğu kimi, "Universitetdə akademik heyətin fəaliyyətini təmin edən 4914 kv.m. sahəsi olan otaqlar, inzibati və tədris-köməkçi heyət üçün isə 5830 kv.m. sahəsi olan otaqlar vardır." (səh. 50).

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikasında azalma olmuşdur və bunun da səbəbi kimi pandemiya dövrü göstərilir. Belə ki, Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, "2020-2021-ci illərdə oxuculara yerində xidmət dayandırıldığına görə kitabxanaya oxucu gəlişi və onlara ədəbiyyatın verilməsinin dinamikasında kəskin azalma olmuşdur." (səh 51). Hal-hazırda, tələbə və professor-müəllim heyətinin elektron kitabxanaya çıxışı tam təmin olunur.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası müşahidə olunur. Fənlərin spesifikliyi və yerli ehtiyaclar nəzərə alınmaqla BDU-nun professor-müəllim heyəti tərəfindən hazırlanan dərslik və dərs vəsaitləri Universitetin öz nəşriyatında nəşr olunur. Tədris vəsaitlərinə qrif hüququnun verilməsi hal-hazırda Elmi Şuranın tərkibində həll edilir (Əvvəllər tədris metodik şura tərkibində fəaliyyət göstərən Qrif Komissiyası tərəfindən icra edilirdi).

BDU-nun müxtəlif fakültələrində tədris olunan fənlərə dair dərslik, dərs vəsaiti və elmi ədəbiyyat BDU-nun mətbəəsində çap olunur və bu sahədə daim artım müşahidə olunur. Həmçinin, son illərdə oxucular daha çox elektron elmi bazalardan istifadə etdiyi üçün, Universitet bu istiqamətdə də lazımi tədbirləri həyata keçirir. Bu sahə üçün ayrılan vəsaitin həcmi mütəmadi artırılır. Statistik cədvəldə də bu artım aydın şəkildə izlənilir.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikasında da irəliləyiş müşahidə olunur. Kitabxanada tədris dillərinə uyğun olaraq, azərbaycan, rus, ingilis, şərq dilləri və digər dillərdə kitab fondu mövcuddur və 2017-2022 -ci illərə müqayisəli şəkildə nəzər yetirdikdə hər tədris dili üzrə müəyyən sayda əlavə kitab nüsxələrinin daxil olması müşahidə olunur.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Elmi Kitabxanada dərsliklərin, elmi ədəbiyyatların əldə edilməsi və elmi bazalardan istifadə üçün ayrılan vəsait haqqında təqdim olunan məlumata əsasən, 2017- 2022 -ci illərin statistikasına müqayisəli şəkildə nəzər yetirdikdə, azalma dinamikası müşahidə olunur. Səbəb kimi, 2020-2022-ci illərdə BDU-nun müxtəlif fakültələrində tədris olunan fənlərə dair dərslik, dərs vəsaiti və elmi ədəbiyyat BDU-nun yeni yaradılan mətbəəsində çap olunduğu faktı göstərilib.

Bu səbədən dərslik və dərs vəsaitlərinin abunə və ya köçürmə yolu ilə alınmasına faktiki olaraq ehtiyac duyulmadığı da qeyd olunub. Həmçinin, son illərdə oxucuların daha çox elektron elmi bazalardan istifadə etdiyi üçün, məhz Universitet bu istiqamət üzrə ayrılan vəsaitin həcmində artım edib və statistik cədvəldə də bu artım aydın şəkildə izlənilir.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

Universitetdə mövcud təlim və tədris resursları istifadə olunur və yenilənmə prosesi mütəmadi olaraq davam edir. Yeni kompüter laboratoriyalarının və tədqiqat laboratoriyalarının (nanolaboratoriya) istifadəyə verilməsi, ağıllı lövhələr, proyektorlar və s. avadanlıqların alınması, elektron tədris platformasının (Blackboard) əldə olunması, elektron kitabxana fondunun zənginləşməsi, Mükəmməllik mərkəzinin inşası, 2-ci korpusun yenilənməsi s. kimi işlərin görülməsi bu sahədə müsbət hal kimi qiymətləndirilə bilər.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

BDU-da təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı ümumilikdə təmin edilir. Əlavə olaraq auditoriya fondu, eləcə də kompüter laboratoriyalarında tam işlək vəziyyətdə olan və sürətli internetlə təmin olunan komüterlərin sayı mövcud tələbə sayına uyğun deyil. Tədris resurslarının təhsilalanlar üçün əlçatanlığı təmin edilir, Universitetin zəngin kitab fondu və öz nəşriyyatı mövcuddur.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

Sağlamlıq imkanı məhdud tələbələrin Universitetdə təhsil almaları, eyni zamanda hərəkətlərini rahatlaşdırmaq üçün lazimi infrastrukturun olduğu qeyd olundu, lakin müşahidə zamanı belə bir infrasturturun tam şəkildə olması aşkarlanmadı (məsələn əsas korpusa əlil arabası ilə giriş üçün şərait yaradılmayıb). Bundan başqa, müsahibə zamanı qeyd olundu ki, Universitetdə sağlamlıq imkanı məhdud tələbələr üçün audio-dərslik hazırlanmışdır və tələbələrin imtahan ve sessiyalarda iştirakını uyğun bir şəkildə təmin etmək üçün bütün şərait yaradılır (onlayn dərs, onlayn imtahan və s. imkanlar yaradılır).

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Professor-müəllim heyəti üçün 5 ildən bir təkmilləşmə kursları təşkil olunur. Bundan əlavə müəllimlərin mükafatlandırma sistemi də mövcuddur. İlin alimi, İlin müəllimi, İlin şöbə müdiri kimi adlar da verilir və bu mükafatı qazanan şəxslərin maaşına müəyyən əlavələr də edilir.

Müsahibə zamanı qeyd olundu ki, Universitetin bir çox əməkdaşı 2017-ci ildə ADA Universitetində Blackboard (BB) platformasından istifadə qaydalarını öyrənmək məqsədi ilə təlimlər keçib və sertifikat əldə etmişlər. Nəticədə, həmən əməkdaşlar BDU-nun digər professor-müəllim heyətinə təlim keçmişlər.

Universitetdə hal-hazırda vahid sillabus nümunəsi olsa da, qeyd olundu ki, bütün professor-müəllim heyəti tərəfindən istifadə olunmur. Bunun əsas səbəbi isə təhsilverənlərin böyük əksəriyyətinin yaşlı nəslin nümayəndələri olduğu üçün vahid sillabus formasının tətbiqinin yaratdığı çətinliklə əlaqələndirilir. Əsasən gənc müəllim kadrlarının yeni sillabus nümunəsindən istifadə etdikləri bildirildi. Nəticə: Fərqli sillabusların BDU üzrə mövcud olan vahid nümunəyə uyğunlaşdırılması tövsiyyə olunur.

### 3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu vəziyyəti qənaətbəxşdir. BDU-da həm tələbə təşkilatları (Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və "BDU könüllüləri" qrupu) həm də tələbə klubları (cinema klub, şahmatçılar klubu, debat klubu və s.) mövcuddur. Onların fəaliyyət göstərməsi üçün zəruri şərait yaradılmışdır. Belə ki, tələbə təşkilatları üçün avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılıb. Tələbələrin idman fəaliyyətinin dəstəklənməsi məqsədilə İdman-Sağlamlıq Mərkəzi və yaradıcılıq fəaliyyətlərinin inkişaf etdirilməsi məqsədilə isə Mədəniyyət-Yaradıcılıq Mərkəzi yaradılıb. Bu sahədə işləri koordinasiya etmək üçün Humanitar məsələlər və gənclər siyasəti şöbəsi də yaradılıb. Şöbənin əməkdaşı ilə görüş zamanı şöbənin Nizamnaməsinə, illik hesabatlarına və s. kimi sənədlərə baxış keçirildi.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

Psixoloji yardım sektoru 2018-ci ildə AR Prezidentinin Sərəncamına əsasən 2019-cu ilin sentyabr ayında yaradılması haqqında əmr imzalanmış və 2020-ci ilin fevral ayından fəaliyyətə başlamışdır. Fəaliyyətinin ilk dövrlərində pandemiya ilə əlaqədar olaraq müraciət sayı məhdud olmuş, lakin sonralar ənənəvi tədris bərpa olduqdan sonra müraciət sayı artmışdır. Yarandığı gündən bu günə 1200 tələbə müraciət etmişdir. Müvafiq xidmətin təmin edildiyi ilə bağlı əməkdaşlarla semestrin əvvəlində maarifləndirmə işləri aparır. Müvafiq xidmətlərin göstərildiyini təsdiq edən verifikasiya sənədləri təmin edilmişdir. Mövcud xidmətlərin təmin edildiyi barədə məlumatlar sosial media hesabı üzərindən aparılır. Mövzular əlçatan olmaqla, eyni zamanda fokus qrup müzakirələrində tələbələrin ehtiyacları nəzərə alınmaqla yenilənir.

## *3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

BDU-da bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur və Elm və Təhsil Nazirliyinin müvafiq əsasnaməsi və bakalavriat və magistratura səviyyələri üzrə təsdiq olunmuş təhsil proqramları ilə tənzimlənir.

Həmçinin, müsahibə zamanı, ÖTH-də BDU-da təcrübə və çox saylı mənbələrin təhlili əsasında yoxlama və qiymətləndirmənin əsas prinsipləri haqqında sual verildikdə, Tədrisin idarə olunması şöbəsi qiymətləndirmənin Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydalara əsasən keçirildiyini, xüsusi qiymətləndirmə prinsiplərinin olmadığını qeyd etmişdir. Həmçinin meyarlar və ya prinsiplərin formalaşdırılması mexanizminin ali məktəbin səlahiyyətində olmadığı əlavə olunmuşdur.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Mövcud siyasət və qiymətləndirilmə meyarları barədə tələbələr ilk dərsdə sillabus təqdim edilən zaman detallı şəkildə tanış olurlar. Əlavə olaraq, Universitetdə Apellyasiya Komissiyası da fəaliyyət göstərir və qiymətləndirmədən narazı olduqları halda tələbələr Komissiyaya müracət edə bilirlər.

Müsahibə zamanı Tədris işinin təşkili və idarə olunması şöbəsi tərəfindən təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üzrə təqdim olunmuş meyar və indikatorların sayının və əhatəliliyinin artırılması tövsiyə olunur. Bəzi fakültələrdə qiymətləndirmə zamanı fənnin spesifikasından asılı olaraq əlavə üsullardan istifadə edildiyi də müsahibə zamanı qeyd edilmişdir.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti qənaətbəxşdir. Müsahibələr zamanı təlim və tədris prosesinin tələbəyönümlü olduğu qeyd olundu. Müxtəlif dərslərin sillabusunu incələyərkən və 10 dərsin (müxtəlif fakültələrdən, Bakalavr və Magistratura səviyyəsində təklif olunan, azərbaycan, rus və ingilis dilində tədris olunan) müşahidəsi zamanı qiymətləndirmə üçün fərqli üsullardan istifadə edildiyi müşahidə olundu. Qiymətləndirilmədə aralıq imtahan, kollokvium, final imtahan, qrup işləri, kurs işləri, təqdimatlar, laboratoriya işləri və s. kimi tapşırıqlar yer almışdır. Müsahibə zamanı qeyd edildi ki, qiymətləndirmə üsulları fənlərə uyğun olaraq dəyişir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Qiymətləndirmədə subyektivlik faktorunun aradan qaldırılması məqsədilə müəllimin tələbəni qiymətləndirməsi (bal vasitəsi ilə) detallı şəkildə əsaslandırılmalıdır. Özünütəhlil hesabatında qeyd olunur ki, bütün müəllimlər qiymətləndirmədə obyektivlik, əsaslandırılma və sistemlilik prinsiplərinə əsaslanırlar. Bunun qeyd olunduğu kimi tətbiq olunduğunu Komissiyanın tələbələr arasında keçirdiyi sorğu nəticələri də təsdiqlədi. Qiymətləndirmə cari və aralıq olmaqla vahid prinsip əsasında aparılır. İmtahan yazı işlərinin yoxlanılması prosesinə dərs deyən fənn müəllimi deyil Rektor tərəfindən təyin olunmuş eyni fənni tədris edən digər müəllimlərin cəlb olunduğu qeyd olundu ki, bu üsulun şəffaflığa xidmət etdiyi vurğulandı.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Qiymətləndirmədə tələbələrin özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amilləri nəzərə alınır. Müsahibələr zamanı qeyd olundu ki, tələbələrə müəllimlərlə təhsilə dair bütün məsələləri müzakirə etmək üçün imkan yaradılır. Həmçinin, qiymətləndirməyə dair bütün detalların sillabusda qeyd olunduğu və tələbələrin rahat şəkildə müəllimlə bu barədə müzakirə apara bildikləri vurğulandı. Bununla belə, qiymətləndirmə prosesində müəllim tərəfindən müəyyən kriteriyalar əsasında tapşırıqların tərtibi zamanı yarana biləcək çətinliklərin aradan qaldırılması üçün sillabuslarda "təlim nəticələri" hissəsinin təkmilləşdirilməsinə və daha əhatəli yazılmasına diqqətin artırılması yerində baxış zamanı gəlinən qənaətlərdəndir.

Əlavə olaraq, müsahiblər tərəfindən qeyd olunmuşdur ki, qiymətləndirmə prosesini daha obyektiv və şəffaf şəkildə təşkil etmək üçün imtahan nəticələri tədris keçən və imtahanı təşkil edən müəllim yox, fərqli bir müəllim tərəfindən yoxlanılır. Tədris hər bir müəllimin fərdi metodikası üzərində qurulur. Eyni fənnin tədrisini müxtəlif müəllimlər müxtəlif üsulla həyata keçirsə də təlim nəticələri dəyişmir. Eyni prinsipin tamlıqla qiymətləndirməyə şamil edilə bilmədiyini nəzərə alaraq, qiymətləndirmə prosesində hər hansı müəllimin yazı işlərini digər müəllimin yoxlanılması zamanı qarşıya çıxa biləcək risk və təhlükələrin nəzərə alınması məqsədəuyğundur.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti qənaətbəxş deyil. Tələbənin qiymətləndirilməsi kağız jurnal üzərindən qeydə alınır. Universitetdə hal-hazırda iki elektron tədris platforması (CLİX və Blackboard) mövcud olsa da heç biri tam funksional deyildir. Universitetdə tələbələrin davamiyyətini və qiymətləndirməsini qeydə alan elektron jurnal mövcud deyil. CLİX, Universitet tərəfindən öncədən istifadə edilən elektron tədris platforması olub və hal - hazırda bütün imtahan və test sualları bu platformada mövcud olduğu üçün hələ də bu istiqamətdə istifadə olunduğu qeyd olundu.

Əlavə olaraq, Universitetdə Blackboard platforması da mövcuddur və azərbaycan dilinə tərcüməsi təmin edilib. Lakin sözügedən elektron tədris platformasının bütün modullarının əldə edilməsinin maliyyə yükünü nəzərə alaraq, Universitet tərəfindən sadəcə iki modul əldə edilmişdir. Bu səbəbdən, Blackboard platformasının tam funksional olmadığı, sadəcə hibrid dərslər üçün istifadə olunduğu qeyd edildi.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Müsahibələr zamanı qeyd olundu ki, sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə edilir, belə ki lazım olduğu halda tələbələr Universitetə gəlmədən Blackboard platforması vasitəsi ilə dərslərdə iştirak edib,

şifahi imtahanlarda iştirak edə bilirlər. Müvafiq kateqoriyadan olan tələbələrə lazımi bütün şəraitin yaradıldığı, bunun üçün Universitetə və korpusa girişdə xüsusi giriş yerlərinin mövcud olduğu müsahibə zamanı qeyd edildi.

**3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

Həm cari, həm də aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında müəyyən edilir. Tələbələrin cari qiymətləndirməsi əsasən sillabusda qeyd olunduğu kimi müxtəlif növ viktorina, sorğu-sual, test üsulu, məruzə, referat, və s. vasitələrdən istifadə olunur. Tələbələrin məşğələlərə davamiyyəti də cari nəzarətə aiddir. Aralıq qiymətləndirmə yekun - imtahan, tədqiqat işlərinin müdafiəsi, yekun təcrübə proqramının (hesabatının) qiymətləndirilməsi və s. şəklində təşkil olunur.

**3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili) qənaətbəxşdir. Yekun Dövlət Qiymətləndirilməsi həm bakalavriat, həm magistratura səviyyələrində Elm və Təhsil Nazirliyin müvafiq əsasnamələrinə uyğun olaraq təhsilalanlar tərəfindən tam başa çatdırıldıqdan sonra həyata keçirilir və ixtisas üzrə dövlət nümunəli sənədin verilməsi ilə başa çatır. Buraxılış işlərinin və dissertasiyaların müdafiəsi yaradılmış xüsusi komissiyalar tərəfindən aparılır. Müdafiələr üzrə əmr və protokolların surətinin kafedralarda saxlanılması tövsiyə olunur.

**3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti qənaətbəxş hesab oluna bilər. Müsahibələr zamanı qeyd olundu ki, hər semestr imtahan sessiyasında bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə fakültələrdə nəticələr analiz olunur, aidiyyəti prorektorlar tərəfindən bu barədə Elmi Şurada hesabat verilir. Lazım olduqda təkmilləşdirmə istiqamətində qərarlar qəbul olunur.

**3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formadadır və tələbələr üçün əlçatandır. Tələbələrin hər hansı bir sualı olduqda tyutorlara, kafedra müdirinə və ya dekana müraciət edərək müvafiq cavabları ala bilir.

**3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədi (diplom) və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışlar qanunvericiliyin tələblərinə uyğun olaraq verilir. Cari tədris ilində məzun ola bilməyən tələbələr təkrar tələbə olaraq kontingentdə saxlanılır. Yerində baxış zamanı dekanlıqlarda bununla bağlı əmr nümunələrinə baxıldı. Normativ təhsil müddətini müvəfəqqiyyətlə başa vuran tələbələrə diplomlar verilir.

***3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər***

**3.7.1. Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

BDU-da akademik heyətin işə qəbulu Elmi Şuranın 30 mart 2021-ci il tarixli iclasının qərarı ilə təsdiq olunmuş “Bakı Dövlət Universitetində işə qəbul qaydaları” əsasında aparılır. ”Müsahibədə akademik heyətin işə qəbulu ilə bağlı ümumi prosesin qanunvericiliyin tələblərinə uyğun şəkildə nizamlanması bildirildi. Qeyd olundu ki, akademik heyət müsabiqə əsasında, texniki heyət isə müsahibə əsasında (komissiya) işə qəbul olunur. Müddəti başa çatacaq əməkdaşların siyahısı İnsan resursları və hüquq şöbəsi tərəfindən fakültələrə / kafedralara təqdim olunur. Müsabiqə ilə bağlı “Xalq qəzeti”ndə və Universitetin rəsmi internet səhifəsində elan dərc olunur. Ehtiyac olduqda əmrlə akademik heyətin müsabiqəyə qədər işə qəbul olunması həyata keçirilir, sonra isə müvafiq qaydada müsabiqə keçirilir.

Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarların İnsan resursları və hüquq şöbəsi tərəfindən konkretləşdirilməsi ve sistemli mexanizm formasına gətirilməsi komissiya tərəfindən məqsədəuyğun hesab edilmişdir.

**3.7.2. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

Müvafiq təlimlərin Universitetin Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən həyata keçirildiyi vurğulandı. Müvafiq şöbədə bildirildi ki, təlimlərin keçirilməsi ilə bağlı olaraq şöbə tərəfindən struktur bölmələrə sorğu göndərilir və alınan cavaba uyğun olaraq təlimlər təşkil olunur. Gənc müəllimlərin ixtisasartırma kursları keçirilir. İxtisasartırma təlimləri əsasən aşağıdakı sahələri əhatə edir: pedaqoji, psixoloji, İT və milli-mənəvi məsələlər.

Təlim ehtiyaclarının müəyyən edilməsi ilə bağlı mövcud mexanizmlərin yenilənməsi və beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak edən professor-müəllim heyətinin sayının artırılması üzrə mexanizmlərin işlənib hazırlanması tövsiyə olunur.

Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi ilə bağlı əməkdaşların əməyinə görə aşağıdakı ödənişlər edilir: əməkhaqqı; elmi dərəcə və elmi ada görə əməkhaqqına əlavələr; semester, il ərzində görülmüş işlərin nəticələrinə görə, ixtiraların tətbiqi üzrə işlərinə görə mükafatlandırmalar; digər kompensasiya, sosial və stimullaşdırıcı xarakterli ödənişlər.

Eyni zamanda akademik heyətin qiymətləndirilməsi tələbələr arasında keçirilən sorğu nəticəsində, açıq dərslər və kafedra müdirinin tədrisə nəzarət jurnalındakı qeydlər vasitəsilə də həyata keçirilir.

Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü Elmi Şuranın müvafiq qərarına əsasən aparılır. Belə ki, BDU-da elmi-tədqiqatla aktiv məşğul olan professor-müəllim heyətinin tam ştat vahidinin illik dərs yükü 500 saat müəyyən edilmişdir. Kafedralarda ştatda olan müəllimlərə dərs yükü bölündükdən sonra artıq qalan yük kafedranın ştatda olan əməkdaşlarına saathesabı qaydada (240 saata qədər) və ya digər müəssisələrdən tədrisə cəlb olunan yüksək ixtisaslı mütəxəssislərə verilir.

**3.7.3. Fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti**
**3.7.4. Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və və digər təlim kurslarında iştirakı vəziyyəti**
**3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**
**3.7.6. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**
**3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**
**3.7.8. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**
**3.7.9. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**
**3.7.10. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**
**3.7.11. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**
**3.7.12. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti**

BDU-da tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri olması bir çox fakültələrdə gözlənilir. Jurnalistika fakültəsində isə professor-müəllim heyətinin əsasən kənardan tədrisə cəlb olunması müəyyən edilmişdir. Özünütəhlil Hesabatına görə Universitetdə 115 əməkdaş xarici ölkələrdə təhsil alıb. Bunlardan yeddi nəfəri Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil alıb. Xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan əməkdaşların böyük əksəriyyəti sovet dövründə SSRİ-nin müxtəlif respublikalarında təhsil almış yaşlı müəllimlərdir. Fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti aşağıdakı cədvəldəki kimidir:

Müsahibə zamanı əvvəllər qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sistemi ilə bağlı müəyyən mexanizmin olmasına baxmayaraq, hal-hazırda müvafiq sistemin təkmilləşdirildiyi istiqamətində işlərin görüldüyü vurğulandı. Struktur bölmələrin rəyləri və təqdimatları ilə əmək haqqına möhlətli əlavələr edilir. Əməkdaşların fəaliyyətinə görə dəyərləndirmələr aparılır və dövri əlavələr verilir. Hesabatda qeyd olunduğu kimi, 2023-cü il ərzində yeni meyarlar əsasında hazırlanmış differensiallaşdırılmış

| № | Fakültə | Bakalavriat və magistratura | Professor-müəllim heyəti | T/PMH |
|---|---|---|---|---|
| 1 | Mexanika-riyaziyyat | 1368 | 119 | 11,49 |
| 2 | Tətbiqi riyaziyyat və kibernetika | 1853 | 157 | 11,80 |
| 3 | Fizika | 1229 | 122 | 10,07 |
| 4 | Kimya | 1180 | 88 | 13,41 |
| 5 | Biologiya | 1204 | 134 | 8,99 |
| 6 | Ekologiya və torpaqşünaslıq | 971 | 131 | 7,41 |
| 7 | Coğrafiya | 1636 | 137 | 11,94 |
| 8 | Geologiya | 546 | 59 | 9,25 |
| 9 | Filologiya | 1481 | 268 | 5,67 |
| 10 | Tarix | 2064 | 171 | 12,07 |
| 11 | Beynəlxalq münasibətlər və iqtisadiyyat | 3452 | 290 | 11,90 |
| 12 | Hüquq | 1669 | 222 | 7,52 |
| 13 | Jurnalistika | 673 | 78 | 8,63 |
| 14 | Kitabxanaçılıq-informasiya | 569 | 52 | 10,94 |
| 15 | Şərqşünaslıq | 940 | 128 | 7,34 |
| 16 | Sosial elmlər və psixologiya | 1951 | 292 | 6,68 |
| Cəmi | | 22786 | 2448 | 9,31(orta qiymət) |

əməkhaqqı sisteminin tətbiqi məsələsinin müvafiq qaydada müzakirəyə çıxarılması nəzərdə tutulur.

### 3.8. *Tələbəyönümlü tədris*

#### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Müsahibə zamanı qeyd olundu ki, təhsilalan fərdi tədris planının tərtib edilməsində iştirak edir, birinci kursda bu proses əsasən tyutorların (akademik işlər üzrə məsləhətçilərin)

yardımı ilə həyata keçirilir. Yay tətilindən öncə tələbə fərdi planını hazırlayıb və sentyabrda dərs başlamadan öncə təsdiqlənməsi və imzalanması üçün dekana təqdim edir.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənləri tələbələr sərbəst şəkildə seçə bilirlər. Bu prosesdə tyutorların və ya müəllimlərin yardımına müraciət olunur.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Təhsilverənlərin tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyi müəyyən qədər təmin edilir. Akademik məsləhətçilərin (tyutorların) seçimində isə müəyyən məhdudiyyətlər tətbiq olunur. Belə ki, müsahibələr zamanı müəyyən olunmuşdur ki, akademik məsləhətçilər adətən kurslar üzrə müvafiq tələbə sayında fakültə üzrə akademik məsləhətçiyə təhkim olunur.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Müsahibə zamanı qeyd olundu ki, tələbələr tərəfindən semestr ərzində keçirilən dərslərin və fənni tədris edən müəllimin semestrin sonu qiymətləndirilməsi mütəmadi olaraq aparılmır. Əvvəllər bu prosesi əsasən dekanlıqların, son bir neçə ildə isə, Keyfiyyətin təminatı və monitorinq şöbəsinin həyata keçirdiyi bildirildi. Lakin, bu prosesin daim keçirilmədiyi (müsahibə zamanı 2-3 aydan bir kimi fikirlər səsləndirilirdi) və mütamadi olaraq semestrin sonuna təsadüf etmədiyi qeyd olundu. Ancaq belə bir qiymətləndirmə keçirildiyi zaman, əldə olunan qiymətləndirmə nəticələrinin yoxlanıldığı, kafedrada müzakirə olunduğu, rektorluğa bildirildiyi və nəticəyə uyğun olaraq qərar verildiyi qeyd edildi. Belə hallarda müəllimdən tələbələrin narazılığı aşkarlandıqda, saathesabı işləyən müəllimlərdən dərs yükünün alınıb başqa əməkdaşa verildiyi, ştatda işləyən əməkdaş olduqda isə lazımi söhbət və istiqamətləndirmənin keçirildiyi qeyd olundu. Ümumi olaraq, bu sahədə BDU üzrə vahid və sistemli mexanizmin hazırlanması və tətbiqi tövsiyə olunur.

Bundan başqa, tələbələrin məmnunluq sorğularının elektron formada da keçirildiyi haqda məlumatlar müsahibə zamanı heyət üzvləri tərəfindən qeyd olundu. Əlavə olaraq, kitabxanada təqdim edilən xidmətlərin məmnunluğunun müəyyən edilməsi məqsədilə adıçəkilən struktur tərəfindən təşkil edilən, açıq suallardan ibarət məmnunluq sorğuları da mövcuddur.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ÖTH-da qeyd olunur ki, “BDU-da tələbə və məzunların imtahan sessiyasının təşkili, qiymətləndirmə metodlarının təkmilləşdirilməsi, əmək bazarının tələb etdiyi kompetensiyalar, elektron kitabxana üzrə təklifləri mütəmadi olaraq toplanılır, təhlil edilir və qərar qəbul edilmək üçün müzakirəyə çıxarılır.” (səh. 61)

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Məsələ ilə bağlı olaraq, Keyfiyyətin təminatı və monitorinq şöbəsi (KTŞ) ilə görüş zamanı şöbənin əsasnaməsi, fənlər üzrə məmnunluq sorğusu nümunələri (köhnə və yeni), açıq dərslərin qiymətləndirmə forması (anketinin), məzun sorğu anketinin nüsxələrinə baxış keçirilmişdir.

Müəyyən olunmuşdur ki, son bir neçə ildə tədris edilən fənlərin keyfiyyəti aşağıda qeyd edilmiş üç üsul əsasında monitorinq edilir:

1. Kafedra tərəfindən təşkil olunan açıq dərslər - Dərslərin təşkili kafedrada müzakirə olunur, KTŞ-yə və dekanlıqlara məlumat verilir. Dərslərdə iştirak hər kəs üçün açıq elan olunur. Açıq dərslər haqqında hesabatları kafedra KTŞ, dekanlığa və s. göndərir. Bu hesabatlar semestr ərzində tərtib olunur. Bundan başqa hər kafedrada kafedra müdiri tərəfindən nəzarət olunan Tədrisə Nəzarət Jurnalı da mövcuddur.
2. KTŞ əməkdaşları tərəfindən açıq dərslərin monitorinqi - Şöbə əməkdaşları dərs zamanı əsasən inzibati məsələlərin (dərsə davamiyyət) yoxlanışını həyata keçirir.
3. Tədris Metodik Şuranın xətti ilə yaradılmış işçi qrupları (ödənişli əsaslarla) – İşçi qrupunun tərkibi davamlı (çox az hallarda ad-hoc ola bilər) əsasla təyin olunur. Hal-hazırda bu tipli açıq dərs monitorinqi həyata keçirilmir və Şura ləğv olunub.

Açıq dərslərin qiymətləndirilməsinə dair anket formalarına da baxış keçirilmişdir. Formalarda qiymətləndirmə balları üzrə müəyyən dəyişikliklərin edildiyi müşahidə olundu. Bu dəyişikliklər müsbət yöndə qiymətləndirilə bilər. Belə ki, “auditoriyanın təşkili” üzrə maksimum bal 15 baldan 10 bala endirilib, “müəllim tərəfindən tələbələrin əsas bilik, bacarıq, davranış və digər xarakteristikaların qiymətləndirilməsi” 20 baldan 15 bala endirilib, “dərsin metodiki təşkili” beş baldan 10 bala qaldırılıb, və “interaktiv dərs aparma qabiliyyəti” 5 baldan 10 bala qaldırılıb.

Lakin bəzi sorğu qiymətləndirmə anketlərində (məs. 2018-2019-cu illər üzrə) əsaslandırma hissəsi kifayət qədər deyil (bir-iki sözdən ibarət əsaslandırma təqdim olunub), bəzi hallarda isə əsaslandırılmamış şəkildə təqdim olunmuşdur.

Vurğulamaq lazımdır ki, tələbələrin müəllimin tədris fəaliyyəti ilə bağlı məmnunluq anketi 2012-ci ildən başlayaraq keçirilməkdədir. Sorğular adətən aprel ayında aparılır. Pandemiya dövründə onlayn dərslər zamanı açıq dərslərin keçirilməsi və monitorinqlərin təşkil edilməsi də Keyfiyyət təminatı və monitorinq şöbəsi tərəfindən qeyd edilən məqamlardan idi.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Müsahibələr zamanı tələbələrin məmnunluq səviyyəsini ölçmək üçün Universitet tərəfindən mütəmadi olaraq sorğuların keçirildiyi qeyd olundu. Tələbələrin istənilən zaman üst idarəetmə - Universitet rəhbərliyinə birbaşa vebsəhifə üzərindən, həmçinin dəhlizlərdə yerləşdirilmiş xüsusi rəy və təkliflər qutusu vasitəsi ilə öz problem, rəy və təkliflərini çatdırma imkanı vardır.

**3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti**

Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti qənaətbəxşdir. Belə ki, tyutorlar bu sahədə müəyyən təcrübəsi olan ali təhsilli şəxslər arasından seçilirlər və rektorun əmri ilə bu vəzifəyə təyin olunurlar. Hər tyutor 200-ə yaxın tələbə ilə çalışır. Əlavə olaraq, tyutorlar üçün Universitetin təşkil etdiyi tyutor kursları mövcuddur. Müvafiq kurslar, ehtiyac və müraciət əsasında tyutorların kvalifikasiyalarının artırılması məqsədilə də istifadə olunur**.**

**3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və tyutorlar arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiya həyata keçirilir. Pandemiya zamanı görüşlərin əksər hissəsi onlayn (əsasən Teams, sonradan isə Blackboard) tədris platformaları üzərindən keçirildiyi qeyd olundu. Hal-hazırda 2-ci korpusda əsaslı təmir işləri aparıldığı üçün bəzi fənlər üzrə tədris və görüşlər hibrid formada keçirilir. Hal-hazırda müəllim və tyutorlarla görüşlər əsasən üzbəüz təşkil olunur. Bundan əlavə, tələbələrə 1-ci kursa başladıqları zaman professor-müəllim heyəti və müvafiq şəxslərlə daxili kommunikasiyanın yaradılması məqsədilə elektron poçt ünvanı (e-mail) təqdim edilir.

**3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti**

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması yanaşması mövcuddur və ÖTH-də qeyd edildiyi kimi (səh.62) universitetdə sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququ təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə müəyyən qədər təmin edilir və onların təhsili üçün əlverişli mühit yaradılır.

**3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

Müsahibələr zamanı qeyd olundu ki, Vətən müharibəsində iştirak etmiş BDU tələbələri alt qrup ödənişlərindən azad edilib və sosial həssas qrupa aid edilən tələbələrin bir qisminin gündəlik qida xərcləri BDU TKİH tərəfindən qarşılanır. Universitetin yataqxanasından istifadə zamanı öncəlik sosial həssas ailə qrupuna aid olanların yerləşdirilməsinə verilir. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyətini qənaətbəxş kimi qiymətləndirmək olar.

**3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**

Təhsilalanlara Universitet tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti müvafiq qaydalara əsasən tənzimlənir. Belə ki, dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla

təhsil almalarından asılı olmayaraq əyani təhsil alan tələbələrə təqaüd onların ümumi orta müvəffəqiyyət göstəricisinə görə "əlaçı", "həvəsləndirici" və ya "adi" təqaüd verilir.

### *3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

**3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu**
**3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu**
**3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə 3.9.4 töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti**
**3.9.5 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti**
**3.9.6 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti**

Müsahibə zamanı məlum olmuşdur ki, Özünütəhlil Hesabatında qeyd olunan məsələlər, BDU-da tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun təmin edilməsi üçün sistemli yanaşmanın tətbiq edilməsinə ehtiyac vardır. Təhsil proqramları əsasən Keyfiyyətin təminatı və monitorinq şöbəsi, Elm və İnnovasiyalar mərkəzi və kafedralarda müzakirə olunub yenilənsə də prosesdə istifadə olunan meyarlar dəqiqləşdirilməsinə və müvafiq maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsinə ehtiyac vardır.

Təhsil proqramlarında əmək bazarına uyğun tələb olunan kompetensiyalar üzrə təlim nəticələrinin əldə olunması yolları ilə bağlı suala müsahiblər ixtisas fəaliyyəti, təhsil prosesinin psixoloji-pedaqoji istiqamətinin təmin edilməsi, təhsilalanların sosiallaşmasını təmin edən şəxsi ixtisas və sosial inkişafı, şəxsiyyətdə ümumi mədəniyyətin formalaşması məzmununda cavab vermişlər. Proses ərzində əmək bazarının tələblərinə uyğun kompetensiyalara yiyələnmək üçün təhsil proqramlarının yenilənməsi istiqamətində görülmüş işləri verifikasiya etmək mümkün olmadı.

Dəqiq hansı təşkilatların, şirkətlərin paydaş rolunu icra etməklə təhsil proqramlarının vaxtaşırı yenilənməsində verdiyi töhfə haqqında məlumat verilmədi.

Növbəti müsahibə zamanı, Tədrisin təşkili və idarə olunması şöbəsinin müdiri ilə görüşdə tədris yüklərinin bölünmə prinsipləri, kafedraların təqdim etdiyi tədris yüklərinin icra mexanizminin yoxlanılması haqqında söhbət aparılmışdır. Məlum olmuşdur ki, yüklər əvvəlki ilin may ayında eyni adlı şöbə tərəfindən bölünür. Cari ilin sentyabr ayının 15-nə qədər təsdiq olunur. Bölünən tədris yüklərinin icra mexanizmlərinin necə yoxlanılması ilə bağlı soruşduqda isə ilin əvvəlində verilmiş cədvəl əsasında yerində yoxlama prosesinin getdiyi deyilmişdir. Təqaüdlərin bölünməsi prinsipinə gəldikdə, eyni ixtisaslaşmaya aid fənlər üzrə əlavə yerlər qalarsa müvafiq ixtisaslarda bölünür, əgər müxtəlif ixtisaslaşmada yerlər boş qalırsa, o zaman eyni vəziyyətdə saxlanılır. Təhsil proqramlarının yenilənməsi sonuncu dəfə 2020-ci ildə tədris planının yenilənməsi ilə bir yerdə olmuşdur. Təhsil proqramlarının monitorinqi və ya yoxlanılması qəbul edilmiş beynəlxalq prinsiplərə uyğun həyata keçirilmir. Fənn tədris planından çıxana qədər eyni təhsil proqramından istifadə olunur. Tədrisin təşkili və idarə olunması şöbəsi dərs jurnallarının yoxlanılması prosesini həyata keçirir. Seçmə fənlərin təyin olunması fakültə daxilində fəaliyyət göstərən komissiyaların hesabatı ilə

tənzimlənir. Bu mənada, əmək bazarına uyğunluğun müəyyən edilməsi üçün müvafiq ölçü/qiymətləndirmə meyarlarının təyin olunması və tətbiqi tövsiyə edilir.

## *3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

BDU da hesabat dövrünü əhatə edən zamanda "Karyera və Təcrübə Mərkəzi" fəaliyyət göstərmişdir. Lakin, 2019-cu ildən etibarən həmin Mərkəzin fəaliyyəti istiqamətlər üzrə bölünmüş, karyera istiqaməti üzrə "İnsan resursları və hüquq şöbəsi" daxilində "Karyera və məzunlarla əlaqə" sektoru yaradılmışdır. 2021-ci ildən başlayaraq Sektor aktiv fəaliyyətdədir. Əsasən karyera istiqamətli təlimlər və Məzunlarla əlaqənin qurulması istiqamətində fəaliyyətlərin icrasını həyata keçirir. Hal-hazırda bu sektorun "Karyera və məzun" mərkəzinin yaradılması ilə bağlı geniş strateji planı mövcuddur. Adı çəkilən strukturun strateji hədəflərə çatmaq istiqamətində peşəkar komanda ilə təmin olunmasına və karyera məsləhətçilərinin cəlbinə ehtiyac vardır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

BDU-da karyera məsləhət xidmətinin yaradılmasına ehtiyac vardır. Hazırkı dövrdə "Karyera və məzunlarla əlaqə" sektoru bir sıra şirkətlərlə əməkdaşlıq prizmasında qurulan əlaqələr çərçivəsində yerli və xarici şirkət nümayəndələri tərəfindən BDU-da Karyera istiqamətli təlimləri yalnız təhsilalanlara təqdim edə bilir. Lakin, bu olduqca az sayda və kiçik həcmdə qruplar üçün təmin olunur. Tələbələrin bu istiqamətdə təşviq olunmasında çətinliklər mövcuddur.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Bu mexanizm BDU-da fakültələrdə ibtidai şəkildə yaradılsa da onun monitorinqi və izlənilməsi ümumən problemlidir. Belə ki, hər fakültə üzrə cəlb olunmuş tyutorlar bu işi idarə etsələr də məlumatların yenilənməsində və onların monitorinq olunmasında boşluqlar mövcuddur. Özünütəhlil Hesabatına təqdim edilən 9a və 9b saylı əlavələrdə göstərilən rəqəmlərlə, fakültələrin təqdim etdiyi rəqəmlər arasında ciddi fərqlərin olduğu ortaya çıxmışdır.

Lakin o da qeyd olunmalıdır ki, BDU-da məzunların əmək bazarında iştirakının izlənilməsi prosesi 2019-cu ildən başlayaraq daha sistemli şəkildə aparılmağa başlamışdır. Belə ki, BDU məzunlarının əmək bazarında işlə təmin olunması, onların məşğulluq səviyyəsi barədə müntəzəm təhlillərin aparılması məqsədi ilə AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Məşğulluq Agentliyindən mütəmadi olaraq məlumatlar toplanılır. "Karyera və məzunlarla əlaqə" sektoru həmin məlumatları komissiyaya təqdim etmişdir.

Məzunların əmək bazarında iştirakının izlənilməsi ilə bağlı digər maraqlı məlumat BDU məzunları arasında işsizlərin sayı ilə bağlı olmuşdur. Bu məlumat aşağıdakı kimidir:

- 2019 cu il üzrə -1402 nəfər
- 2020 ci il üzrə - 2236 nəfər
- 2021 ci il üzrə - 2723 nəfər
- 2022 ci il üzrə - 3271 nəfər

Göründüyü kimi bu statistikada artım müşahidə olunur.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Özünütəhlil Hesabatına əlavə olunan 2 saylı əlavədən aydın olur ki, BDU-da məzunlar arasında karyera xidmətlərindən məmnunluq və təhsil müddətində qazanılmış səriştələrdən məmnunluq istiqamətində son 5 il ərzində cəmi 8 sorğu keçirilmişdir. Bu sorğularda 50 şirkət nümayəndəsi və 624 respondent iştirak etmişdir. Aşkarlanan problemlər, iş axtarma alətlərindən zəif istifadə vərdişləri, İT biliklərin yetərsizliyi və CV hazırlaya bilmək təcrübəsinin zəif olması müəyyənləşdirilmişdir. "Karyera və məzunlarla əlaqə" sektorunun verdiyi məlumatlardan aydın olur ki, bu istiqamətdə son illərdə müvafiq təlimlər, seminarlar və görüşlər mütəmadi olaraq təşkil olunur.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

BDU-da mövcud fakültələrin hamısında məzun bazası mövcuddur. Bir sıra fakültələrdə xüsusən "Mexanika Riyaziyyat", "Ekologiya və torpaqşünaslıq", "Tarix", "Jurnalistika", "Geologiya", fakültələrində hesabatlılığın daha sistemli şəkildə qurulması təqdim edilən sənədlərlə təsdiqini tapmışdır. Bir sıra fakültələrdə isə məzun bazalarının daha çox formal şəkildə qalması qənaətinə gəlinmişdir. Məzun bazalarının hansı aralıqlarda yenilənməsi, mütəmadi olaraq monitorinqinin keçirilməsi və izlənilməsi isə ümumən müşahidə edilməmişdir.

BDU-nun Karyera xidməti və məzunlarla davamlı əlaqə sisteminin vəziyyətini ümumən qənaətbəxş hesab etmək olar.

## 4. ELMİ TƏDQİQAT

### *4.1 Elmi-tədqiqat strategiyası*

BDU-nun Elmi Şurasının 2014-cü il 21 may tarixli iclasında (protokol № 4) qəbul edilmiş "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə Missiya və Strateji İnkişaf Planı" nda və "Bakı Dövlət Universitetinin 2014-2020-ci illər üzrə İnkişaf Proqramı" nda Universitetin elmi-tədqiqat istiqamətində strateji hədəfləri ilə bağlı müəyyən müddəalar öz əksini tapmışdır. Bu plan Universitetin saytında yerləşdirilmişdir və maraqlı tərəflər üçün əlçatandır.

### 4.1.1 BDU-nun elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi "Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası" sənədi hazırlanmış və BDU-nun Elmi Şurasının

2021-ci il 28 dekabr tarixli iclasının qərarı ilə (protokol № 12) təsdiq edilmişdir. Bu sənəd elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin tətbiqi və yayılması, aprobasiyası və təbliği, tədris prosesinə inteqrasiyası və elmi araşdırma sahəsində bacarıq, vərdiş və səriştələrin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini və s. əks etdirir.

Sənədin surətinin BDU-nun müvafiq struktur bölmələrində olduğu müəyyən edildi. BDU-nun istifadəyə verilməsi nəzərədə tutulan yeni rəsmi veb səhifəsində sənədin əlçatanlığının təmin ediləcəyi də yerində baxış müddətində bildirilən məsələlərdəndir.

Mövcud vəziyyət BDU-nun qarşıya qoyduğu hədəflərə çatmaq üçün əsasən uyğundur.

#### 4.1.2. Elmi-tədqiqat strategiyasının BDU-nun missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Elmi-tədqiqat strategiyası (ETS) BDU-nun missiya və hədəflərinə əsasən uyğundur.

#### 4.1.3. BDU-nun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

BDU-nun elmi tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunması ETS-də nəzərə alınmışdır. Belə ki, Sənədin 3.1-ci bəndində qeyd edilir ki, Strategiyanın və onun reallaşdırılması istiqamətində BDU-nun elmi və innovativ fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:

- Elm-təhsil-istehsalat inteqrasiyası, tədris prosesi ilə elmi tədqiqatın vəhdətinin təmin edilməsi, tədris prosesində tədqiqat komponentinin genişləndirilməsi əsasında ali təhsilli mütəxəssislərin və yüksək ixtisaslı elmi kadrların hazırlanma keyfiyyətinin davamlı olaraq yüksəldilməsi;
- BDU-da müasir standartlara uyğun innovativ elmi mühitin formalaşdırılması;
- BDU-nun elmi və elmi-pedaqoji potensialının inkişaf etdirilməsi;
- BDU-nun təşkilati strukturunun və elmi infrastrukturunun davamlı (daimi və ya vaxtaşırı) olaraq müasirləşdirilməsi;
- İnnovativ tədqiqat layihələrinin dəstəklənməsi üçün BDU-nun maddi-texniki bazasının genişləndirilməsi və modernləşdirilməsi;
- Respublikada elm, texnika və texnologiyanın inkişafının prioritet istiqamətləri çərçivəsində fundamental və tətbiqi tədqiqatların səmərəliliyinin artırılması;
- Elmi-tədqiqat sahəsində BDU-nun yüksək rəqabət qabiliyyətliliyinin təmin ediməsi,
- Elmi-tədqiqat işlərinin səviyyəsinin beynəlxalq səviyyəyə qaldırılması və beynəlxalq əməkdaşlığın təmin edilməsi;
- Ölkənin davamlı sosial-iqtisadi inkişafına elmi dəstəyin verilməsi və s.

BDU-nun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-

tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti qarşıya qoyulan məqsədlərə çatmaq üçün əsasən uyğundur.

### 4.1.4. ETS-nin BDU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Strateji inkişaf planında (SİP-də) elmi tədqiqatla bağlı 4 hədəf və 4 prioritet müəyyən edilmişdir. Həmçinin innovasiyalar istiqamətində də 4 hədəf və 3 prioritet müəyyən edilmişdir. ETS əsasən SİP-ə uyğundur.

### 4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyası 1.2 və 1.5-ci bəndlərdə nəzərə alınmışdır. Belə ki, 1.2-ci bənddə qeyd edilir ki, "Elmi-tədqiqat fəaliyyəti Universitetin inkişafının prioritet istiqamətlərindən biridir və mövcud kadr hazırlığı istiqamətində fundamental və tətbiqi tədqiqatlar əsasında təlim-tədris və tərbiyə prosesinin fasiləsiz təkmilləşdirilməsini təmin edir". Strategiyanın 1.5-ci bəndində isə göstərilmişdir ki, "Strategiya elmi-tədqiqat, təlim və tədris arasındakı milli və Universitetdaxili əlaqələri əks etdirir".

Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti uyğundur.

### 4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Strategiyanın 6.1-ci bəndində BDU-da elmi-tədqiqatın əsas iştirakçıları kimi aşağıdakılar qeyd olunub:

- Kafedralarda çalışan professor-müəllim heyəti;
- Elmi-tədqiqat qurumlarında çalışan elmi işçilər və digərləri.

Strategiyanın 5-ci bəndində qeyd olunub ki, "BDU-nun elm-təhsil müəssisəsi kimi inkişafının ən mühüm hissəsi olan uğurlu elmi fəaliyyətin təşkili professor-müəllim heyəti və tədqiqatçıların bilik, bacarıq və tədqiqatçılıq səriştəsinə əsaslanır".

Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti uyğundur.

### 4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

2021-2030-cu illəri əhatə edən ETS-in, BDU-nun saytında yerləşdirilməsi və uyğun olaraq akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığının təmin edilməsi məqsədəuyğundur.

#### 4.1.8. Elmi tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ÖTH-da qeyd edilmişdir ki, "Elmi-tədqiqat Strategiyasının hazırlanması üçün yaradılmış işçi qrupun tərkibinə aktiv elmi-tədqiqatla məşğul olan alimlər, gənc tədqiqatçılar da daxil edilmişdir. Strategiya kafedralarda, elmi-tədqiqat institutları və laboratoriyalarında, Gənc Alimlər Şurası və Tələbə Elmi Cəmiyyətlərində, həmçinin əməkdaşlıq əlaqələrinin mövcud olduğu bir sıra elmi-tədqiqat institutlarında və sənaye müəssisələrində müzakirə edilmişdir. Bu müzakirələrin irad və təklifləri fakültə və institut elmi şuraları tərəfindən ümumiləşdirilərək müvafiq struktur bölməsinə təqdim edilmişdir. Qeyd edilənləri nəzərə alaraq, Strategiyanın hazırlanmasında bütün daxili və xarici maraqlı tərəflərin iştirakı təmin edilmişdir". Müvafiq məsələnin yerində verfikasiyası müddətində sübutedici istinadlar və faktlar (foto şəkil, protokol və s.) təqdim edilmədi.

### *4.2. Tədqiqat resursları*

#### 4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

BDU-nun 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu (ETİ), 7 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETL), müxtəlif xidmətlər göstərmək imkanına malik Elmi Kitabxana və tədris-təcrübə bazasında mövcud olan 1000-dən çox müxtəlif təyinatlı cihaz, material və avadanlıqlar (atom qüvvət və optik mikroskoplar, nüvə maqnit rezonansı, skanedici elektron mikroskopları, müxtəlif tipli rentgenstruktur difraktometrləri, spektroflüorimetrlər, müxtəlif dalğa uzunluğu oblastlarını əhatə edən spektrometrlər, kimyəvi reaktivlər, reaksiya avadanlıqları, bioloji inkubasiya kabinləri, mexaniki qurğular, maqnit və elektrik sahə cihazları, kalorimetrlər, termoqravimetrlər, temperatur və sahə ölçü cihazları, ekoloji tədqiqatlar üçün nəzərdə tutulmuş cihazlar, pH-metrlər, xromotoqraflar, ossilloqraflar və 400-dən çox texnoloji avadanlıqlar və ölçü cihazları və s.) BDU-nun əməkdaşları, tələbələri, magistrantları və doktorantları, həmçinin əməkdaşlıq çərçivəsində və Respublikanın elmi-tədqiqat institutları, ATM-lərinin və digər müvafiq qurumların əməkdaşlarının istifadəsində olmuşdur. BDU-nun elmi-tədqiqat institut, mərkəz, laboratoriyalarında və kafedralarda mövcud olan istiqamət və sahələr üzrə elmi tədqiqatlarda müxtəlif proqramlarla və internetə çıxışla təchiz olunmuş 1000-dən çox kompüter və İT avadanlıqlarından istifadə edilmişdir.

Son 2 il ərzində BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar, Astrokosmik və atmosfer tədqiqatları, Hüceyrə kulturası və genom redaktəsi kimi yeni sənaye yönümlü ETL-lər yaradılmış, maddi-texniki baza müasirləşdirilmiş və elmtutumlu avadanlıqlarla təchiz olunmuşdur.

ÖTH-da illər üzrə BDU büdcəsindən elmi-tədqiqatlara ayrılan vəsait göstərilsə də, 2022-ci il üçün ayrılmış vəsait haqqında məlumatlar təqdim edilməmişdir.

### 4.2.2. Aktiv ET-la məşğul olan professor müəllim heyətinin mövcud olma vəziyyəti

Hesabat dövründə BDU-da ET-la məşğul olan professor-müəllim heyətinin sayı 1276-1326 arasında dəyişmişdir. Müsahibə zamanı bu sayın müxtəlif olması məsələsinə aydınlıq gətirilmişdir.

### 4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

BDU-da Tələbələrin Elmi-Texniki Yaradıcılıq Mərkəzi (TETYM), Gənc Alimlər Şurası və Tələbə Elmi Cəmiyyətləri fəaliyyət göstərir. Bu təşkilatlar tələbələrdə yaradıcılığın formalaşdırılması (kreativlik) üçün qeyri-standart tapşırıqların əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparır. 2022-ci ildə "TeknoFest Azərbaycan - 2022" Festivalında BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət 2 komandası qalib olmuşdur:

- SAP əsaslı hidrojeller və ağıllı suvarma sistemi; Aqrar Texnologiyalar üzrə II yer; Layihə rəhbəri: Kimya fakültəsinin 4-cü kurs tələbəsi İsa İsayev, 5 tələbə iştirakçı qismində;

- Triboelektrik nanogeneratorlar əsasında görmə və eşitmə əngəlli insanlar üçün sensorların hazırlanması; Sosial Yönümlü Texnologiyalar üzrə III yer; Layihə rəhbəri: Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi, BDU-nun doktorantı Orxan Güləhmədov, 6 tələbə iştirakçı qismində.

- 2022-ci ildə Gənclər Fondunun "İdeyanı Reallaşdır - 2022" Qrant Müsabiqəsində BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət 3 komandası qalib olmuşdur:

- Su mühitində müxtəlif çirkləndirici maddələrin parçalanması; Layihə rəhbəri: BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin laborantı Reyhan Mirsultanova, 4 tələbə iştirakçı qismində;

- Hidrogellərin sintezi və ağıllı suvarma sistemi; Layihə rəhbəri: Kimya fakültəsinin 4-cü kurs tələbəsi İsa İsayev, 6 tələbə iştirakçı qismində;

- İnnovativ gənc mühəndislər; Layihə rəhbəri: Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi, BDU-nun doktorantı Orxan Güləhmədov, 7 tələbə iştirakçı qismində.

### 4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışı vəziyyəti

BDU-nun Kitabxana fondunda azərbaycan, rus, şərq və avropa dillərində 2 milyon nüsxədən artıq çap məhsulu; 20000-dən çox elektron məhsul mövcuddur (http://elibrary.bsu.edu.az).

BDU-da Clarivate Analitics şirkətinin Web of Scince bazasına və InCites qiymətləndirmə sisteminə açıq çıxış mövcuddur; Eyni zamanda BDU daxilindən EBSCO, IOP, BIONE, OED (Oxford Universitetinin nəşrləri), ALL-RUSSIAN MATEMATICAL PORTAL, Cambridge University Press Journal, Springer, Springer Nature və s. elektron bazalarına çıxış mümkündür.

#### 4.2.5. Nəticə yönümlü elmi tədqiqat işlərinin davamlılığı üçün stimullaşdırıcı tədbirlər

İl ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş BDU-nun əməkdaşlarını mükafatlandırmaq məqsədilə BDU əməkdaşları arasında hər il 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" müsabiqəsi keçirilir. Müsabiqə Elmi Şura tərəfindən qəbul olunmuş müəyyən olunmuş meyarlar əsasında təşkil olunur və müsabiqə üzrə qaliblər aşağıdakı nominasiyalar üzrə "İlin alimi" adını alır, diplom və pul mükafatları ilə təltif edilirlər: 1-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (2 500 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (2 500 manat); 2-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (1 500 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (1 500 manat); 3-ci yer: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (1 000 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (1 000 manat).

İl ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş və yaşı 35-ə qədər olan BDU magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılması və elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə 2021-ci ildən başlayaraq hər il BDU-da "2 Fevral - Azərbaycan Gəncləri Günü"nə həsr olunmuş "İlin gənc alimi" nominasiyası üzrə müsabiqə keçirilir. Müsabiqə üzrə qaliblər "İlin gənc alimi" adını alır, BDU-nun döş nişanı, diplom və pul mükafatları ilə təltif edilirlər: Təbiət və texnika elmləri üzrə – 1 nəfər (2 000 manat); Humanitar və ictimai elmlər üzrə – 1 nəfər (2 000 manat).

#### 4.2.6. Elmi Tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Hesabat dövründə BDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elmi-tədqiqat sahəsində ümumi dəyəri 10300000 manat təşkil edən 100-ə yaxın qrant alınmışdır. İllər üzrə nəticə aşağıdakı kimi müəyyən edilmişdir:

| İllər | Layihələrin sayı | Layihələr üzrə maliyyə resursları (manatla) |
|---|---|---|
| 2017 | 34 | 1766034 |
| 2018 | 37 | 1815909 |
| 2019 | 39 | 1983372 |
| 2020 | 38 | 2047152 |
| 2021 | 22 | 1647652 |
| 2022 | 21 | 1046902 |

#### 4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu

Yerində baxış zamanı "SOCAR", "Azərsu" və digərləri ilə birgə tədqiqatlara dair əməkdaşlıq müqavilələri təqdim edildi.

### *4.3. Elmi-tədqiqat fəaliyyəti*

#### 4.3.1.Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

ÖTH-da qeyd edildiyi kimi Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi səmərəliliyinin artırılması üçün Elmi Şuranın 2019-cu il 09 oktyabr tarixli qərarı əsasında və rektorun müvafiq əmri ilə BDU-da Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi yaradılmışdır. Mərkəzin tərkibində:

- Elmi-tədqiqatların təşkili və təhlili şöbəsi;
- Elmi-təşkilati şöbə;
- Texnologiyaların transferi və innovasiyalar şöbəsi;
- Magistratura və doktorantura şöbəsi;
- Əqli mülkiyyətin qorunması şöbəsi

Verifikasiya müddətində 5 şöbədən 3-nün - Elmi-tədqiqatların təşkili və təhlili; Elmi-təşkilati və Əqli mülkiyyətin qorunması şöbələrinin müdiri vəzifəsi uzun müddətdir vakant olması müəyyən edilmişdir. Qeyd edilənləri nəzərə alaraq, müvafiq struktur vahidlərinin heyətinin optimallaşdırılması və fəaliyyətləri üçün müvafiq infrastrukturun təmin edilməsi (3 şöbənin fəaliyyəti bir otaqda təşkil edilmişdir) məqsədəuyğundur.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Hesabat dövründə BDU-da ümumilikdə 359 konfrans (Respublika və beynəlxalq səviyyəli), 1488 elmi seminar və məktəb, 179 ustad mühazirəsi keçirilmişdir. 2017-2022-ci illər ərzində BDU-da keçirilmiş konfransların illər üzrə statistikası belə olmuşdur:

- 2017-ci il -23
- 2018-ci il -25
- 2019-cu il -24
- 2020-ci il - 33
- 2021-ci il - 30
- 2022-ci il - 34

Bir qayda olaraq beynəlxalq konfranslar üçün xüsusi Veb səhifələr yaradılır

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ÖTH-da qeyd edilir ki, son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə kadr hazırlığı önəmli rol oynayır. Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələrin digər rəqəmsal elmi məlumatlarla əlaqələndirilməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. Bu proqram çərçivəsində 2022-ci il 31 oktyabr-4 noyabr tarixlərində BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və BDU tərəfindən keçirilmiş "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" BMT/Azərbaycan beynəlxalq tədbiri (United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere) Azərbaycanda adı çəkilən sahənin

inkişafı üçün geniş imkanlar açmış, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaratmışdır. 65 ölkədən 281 alim və mütəxəssisin iştirak etdiyi tədbir üzrə hesabat BMT Baş Assambleyasının hesabatına daxil edilmişdir.

Ümumilikdə hesabat ilində BDU tərəfindən təşkil edilmiş konfrans və tədbirlərdə yerli və əcnəbi iştirakçı sayı aşağıdakı kimi olmuşdur:

- 2017-ci ildə - 561 nəfər
- 2018-ci ildə - 707 nəfər
- 2019-cu ildə -755 nəfər
- 2020-ci ildə - 421 nəfər
- 2021-ci ildə - 884 nəfər
- 2022-ci ildə - 932 nəfər

**4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti**

BDU tələbələrin və gənc tədqiqatçıların yeni texnoloji yeniliklərlə və ən son elmi nəticələrlə tanış olmalarına xüsusi önəm verir. Bu məqsədlə BDU-da dünyada tanınmış alim və mütəxəssislərin iştirakı ilə beynəlxalq yay və qış məktəbləri və təlimlər təşkil olunur. 2021-ci il 4-7 oktyabr tarixlərində Bakı Dövlət Universitetinin təşkilatçılığı və ICESCO-nun təşəbbüsü ilə “Cihazqayırma və mühəndisliyin əsasları” üzrə təlim-seminar keçirilmişdir.
2022-ci il 22 sentyabr - 4 oktyabr tarixlərində BDU və Almaniyanın “Volkswagen” Fondunun birgə təşkilatçılığı ilə keçirilmiş “Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər” mövzusunda Beynəlxalq Yay Məktəbində 12 ölkədən 40-dan çox magistrant, doktorant və gənc tədqiqatçı iştirak etmişdir.
2017-2020-ci illərdə fakültə Tələbə Elmi Cəmiyyətlərinin, 2021-2022-ci illərdə isə BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi və fakültə Tələbə Elmi Cəmiyyətlərinin birgə təşkilatçılığı ilə 78 elmi konfrans və 214 elmi seminar təşkil olunmuşdur.
Ümumi halda, BDU-da və digər qurumlarda keçirilmiş konfrans və elmi seminarlarda 8000-dən çox tələbə və gənc tədqiqatçı iştirak etmişdir. İllər üzrə statistika aşağıda kimi olmuşdur:

- 2017-ci il – 1458 nəfər
- 2018-ci il - 1706 nəfər
- 2019-cu il- 1867 nəfər
- 2020-ci il - 1636 nəfər
- 2021-ci il - 2081 nəfər
- 2022-ci il - 2245 nəfər

**4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti**

Hesabat dövrü ərzində BDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elmi-tədqiqat sahəsində 100-ə yaxın qrant alınmışdır. BDU əməkdaşlarının rəhbərliyi və ya iştirakı ilə 36 beynəlxaq qrant layihəsi yerinə yetirilmişdir.

Beynəlxaq qrant layihələrindən 6-sı - ümumi dəyəri 9000000 (doqquz milyon) manatdan çox olan Avropa Birliyi (FP7, HORIZON-2020, Erasmus+), 5-i ümumi dəyəri 2000000 (iki milyon) manata yaxın olan TÜBİTAK (TÜBİTAK, AMEA-TÜBİTAK, EİF/AEF-

TÜBİTAK) və 5-i ümumi dəyəri 200000 (iki yüz min) manata yaxın olan Ukrayna Elm-Texnologiya Mərkəzi (STCU) və digərləti tərəfindən maliyyələşdirilmişdir. Bundan əlavə, Azərbaycan Elm Fondu (AEF) (EİF-Elmin İnkişafı Fondu) tərəfindən elan olunmuş Azərbaycan-Belarus və Azərbaycan-Rusiya qrant müsabiqəsinin, Avropa Nüvə Tədqiqatları Mərkəzinin (CERN), Almaniyanın DAAD proqramının, Halle-Vitterberq Universitetinin, TEMPUS proqramının, BMT-nin Əhali Fondunun (UNFPA), Birləşmiş Nüvə Tədqiqatları Mərkəzinin, Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin (ICTP) və digərlərinin elan etdikləri qrant müsabiqələrinin qalibləri olmuş layihələr BDU-da yerinə yetirilmişdir.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

ÖTH-də qeyd olunduğu kimi 2017-2022-ci illər ərzində BDU-da ümumilikdə, 49 elmi-tədqiqat nəticəsi üzrə patent əldə edilmişdir. Onlardan 3 patent beynəlxalq (Avrasiya) səviyyəlidir. Yerində yoxlama zamanı patentlərin əslinin şöbədə saxlanıldığı müəyyən edilmişdir.

### 4.3.7 İnstitusional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

ÖTH-də BDU-da yaradılmış Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Elmi-təşkilati şöbəsi və BDU-nun Beynəlxalq əlaqələr şöbəsi birgə olaraq institusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlər işləyib hazırlayır və həyata keçirilməsi üçün müvafiq təkliflər verildiyi qeyd olunsa da, yerində yoxlama zamanı bu təkliflərin nədən ibarət olduğuna aydınlıq gətirilməmiş və nümunələr göstərilməmişdir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Erasmus+ proqramı çərçivəsində 2017-2021-ci illər ərzində BDU-nun 182 əməkdaş və gənc tədqiqatçılarının birgə tədqiqat aparmaları üçün Türkiyənin Yıldız Teknik, Sivas, Orta Doğu Teknik, Cumhuriyyet, Hacettepe, Eskişehir Teknik, İngiltərənin Keele, İtaliyanın Pavia və Roma La Sapienza, Fransanın Montpellier, Çex Respublikasının Masaryk və Karlova, Almaniyanın Berlin Humbolt, Estoniyanın Tartu, İsveçin Linköping, Polşanın Rzeszow, Rumıniyanın Alexandru İoan Cuza və Cluj-Napoca Kənd Təsərrüfatı Elmləri və Baytarlıq Tibb Universitetlərinə qısa və uzunmüddətli ezamiyyətləri təşkil olunmuşdur.

BDU tərəfdaş kimi MAGnUS layihəsində iştirak edir. Ali təhsil sahəsində potensialın artırılmasına xidmət edən bu layihə çərçivəsində BDU-da “Mobil tətbiqlər və Oyun dizaynı” ixtisası üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə müasir standartlara cavab verən laboratoriya qurulmuşdur. Layihədə BDU ilə yanaşı Derbi Universiteti (Birləşmiş Krallıq), Tomar Politexnik İnstitutu (Portuqaliya), Tallin Universiteti (Estoniya), Cənub Federal Universiteti (RF), Həştərxan Dövlət Universiteti (RF), Voronej Dövlət Universiteti (RF), BMU (Azərbaycan) və ADNSU (Azərbaycan) iştirak edir.

Hazırda BDU-da Hüquq fakültəsində İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası və Biologiya fakültəsində Biotibbi materiallar ICESCO kafedrası fəaliyyət göstərir.

### 4.3.9 Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

BDU aşağıdakı beynəlxalq elmi-tədqiqat, təlim, tədris şəbəkə və assosiasiyalarının üzvüdür:

MDB ölkələrinin Nanotexnologiya Beynəlxalq İnnovasiya Mərkəzi;

Nüvə Texnologiyası Sahəsində Təhsilin və Kadr Hazırlığının Təşkili Regional Şəbəkəsi (STAR-Net);

Avropa Universitetləri Assosiasiyasının Tədqiqat və İnnovasiya Strategiyası Qrupu (RISG);

Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyası.

### 4.3.10 Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Hesabat dövründə BDU-nun 16 fakültə, 120 kafedra, Fizika Problemləri ETİ və Tətbiqi Riyaziyyat ETİ, 7 ETM və 21 elmi-tədqiqat laboratoriyasında təbiət-dəqiq və humanitar-sosial elm sahələrinin aşağıdakı şəkillərdə göstərilən müxtəlif istiqamətlərində aparılmış işlər üzrə 13117 məqalə, 6887 konfrans materialı, 1358 proqram, 564 dərs vəsaiti, 295 dərslik, 249 kitab, 253 monoqrafiya və 149 metodiki göstəriş dərc olunmuşdur.

Elmi-tədqiqat mövzuları üzrə alınmış nəticələr dərslik, dərs vəsaiti, monoqrafiyalarda öz əksini tapmış, mövzular üzrə bakalavriat səviyyəsində təhsil alan tələbələr buraxılış işi formasında, magistratura səviyyəsində isə magistr dissertasiyaları formasında verilmişdir. Buraxılış işlərinin və xüsusilə də magistr dissertasiyalarının bilavasitə Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin elmi-tədqiqat laboratoriyalarında, elmi tədqiqat institutlarında və fakültələrin nəzdində fəaliyyət göstərən laboratoriyalarda yerinə yetirilməsi təhsil-elm-istehsalat inteqrasiyasının gücləndirilməsi ilə təhsilalanlarda nəzəri biliklərin möhkəmlənməsinə, praktiki vərdişlərin aşılanmasına və elmi-tədqiqat mövzuları üzrə alınmış nəticələrin mənimsənilməsi və tətbiqinə şərait yaradır.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

BDU-da təbiət-dəqiq və humanitar-sosial elm sahələrini əhatə edən 21 jurnal nəşr olunur. “Bakı Universitetinin xəbərləri” 1992-ci ildən 4 seriyada nəşr olunur. BDU-nun elmi prioritetlərinə uyğun olaraq yeni 5 jurnal – Baku State University Journal of Physics and Space Sciences, Baku State University Journal of Earth Sciences and Environment, Baku State University Journal of Chemistry and Materials Science, Baku State University Journal of Life Sciences and Biology, Baku State University Journal of Mathematics and Computer Sciences və Baku State University Journal of Oriental Studies təsis olunmuş, Azırbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir. Jurnalların nəşri üzrə beynəlxaq standartlara uyğun (məqalələrin elektron qaydada qəbulu, rəyə göndərilmə və s.) veb səhifələri hazırlanmışdır.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası

BDU-nun həmtəsisçiliyi ilə dərc edilən və Web of Science Core Collection bazasında ən yüksək - Q1 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan “Applied and Computational Mathematics” jurnalı dünyada tətbiqi riyaziyyat kateqoriyası üzrə 267 beynəlxalq nəşr arasında 4-cü yerdə qərarlaşıb.

BDU-nun “Science Citation Index Expanded” (SCIE) bazasında indekslənən “TWMS Journal Pure and Applied Mathematics” jurnalı “Riyaziyyat” kateqoriyasında 330 beynəlxalq nəşr arasında 43-cü yerdə, Q1 kvartil kateqoriyalı və “Tətbiqi riyaziyyat” kateqoriyasında 265 beynəlxalq nəşr arasında 84-cü yerdə qərarlaşaraq Q2 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olmuşdur. Dərc olunmuş elmi əsərlərə 2022-ci ildə edilmiş istinadlar 2017-ci illə müqayisədə 4 dəfə artmışdır. Bu da öz növbəsində həm BDU-nun Hirş indeksinin (hal-hazırda 54-dür), həm də elmi əsər müəlliflərinin Hirş indeksinin artmasına gətirib çıxarmışdır.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

ÖTH-də qeyd edilmişdir ki, mövcud qanunvericilikdə doktoranturanın əyani, qiyabi və dissertant təhsil formalarında fənlərin tədrisi nəzərdə tutulmamışdır. Azərbaycan Respublikası NK-nin 1 iyul 2010-cu il tarixli 129 saylı qərarının 3.27-ci bəndində qeyd edilmişdir ki, “doktorant təhsil müddətində: peşə biliklərinə dərindən yiyələnməli; müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli; elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli; fərdi iş planını tam yerinə yetirməli; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tatixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”yə uyğun olaraq imtahanlar verməli; elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli; elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirməli; elmi tədqiqat işini bitirməlidir.”

ÖTH-də Magistratura səviyyəsində mövcud tədris planlarında 1-ci tədris ilində ümumnəzəri və praktik fənlər tədris olunduğu, 2-ci tədris ilində isə ixtisas və tədqiqatyönümlü fənlərin tədrisi aparıldığı həmçinin, magistratura səviyyəsində 2 həftəlik elmi-tədqiqat təcrübəsi təşkil olunduğu göstərilmişdir. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, elmi-tədqiqat təcrübəsinin müvafiq təhsil proqramında göstərildiyi kimi 4 həftə müddətində təşkil edilməsi, həmçinin, ixtisaslar üzrə magistr tədris planlarına elmi-tədqiqatı aşılayan fənlərin daxil edilməsi məqsədəuyğun hesab edilir.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

BDU-da elmi fəaliyyətin təkmilləşdirilməsi məqsədilə aşağıdakı işlər görülür:

- Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün bütün fakültələrdə, kafedralarda, institut, mərkəz və laboratoriyalarda mütəmadi olaraq təlimlər, elmi seminarlar keçirilir, dissertasiya işlərinin mövzusunun seçilməsi, dissertasiya işi və elmi-tədqiqat nəticələri üzrə müzakirələr təşkil olunur;

- Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi tərəfindən professor-müəllim heyəti və gənc tədqiqatçılar üçün tədqiqat cihazlarından istifadə, təcrübə aparmaq, nəticələrin təhlili üzrə seminar və təlimlər təşkil olunur;
- vaxtaşırı olaraq akademik heyət Respublikanın və dünyanın müxtəlif ölkələrinin elmi qurumlarına elmi ezamiyyətlərə göndərilir;
- Respublikada fəaliyyət göstərən istehsalat və sənaye müəssisələrinin elmi araşdırmalar yolu ilə həll edilə biləcək problemləri üzrə müzakirələr təşkil olunur;
- Dünyanın müxtəlif (ABŞ, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya, Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası və s.) elmi-tədqiqat institutlarında və universitetlərində çalışan tanınmış mütəxəssislərin (o cümlədən diaspora alimlərinin) ustad dərsləri, mühazirələri və elmi seminarlar təşkil olunur;
- Gənc tədqiqatçılar üçün yay və qış elmi məktəbləri təşkil olunur.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

BDU-da doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasəti əsasən aşağıdakı kimidir:

- Gənc Alimlər Şuraları və Tələbə Elmi Cəmiyyətlərinin təşkil etdiyi elmi konfrans, seminar və debatlarda elmi tədqiqata marağı olan istedadlı tələbələri seçmək;
- Seçilmiş tələbələri kafedra, elmi-tədqiqat institutlarında, mərkəz və laboratoriyalarda, habelə Tələbə elmi-texniki yaradıcılıq Mərkəzində yerinə yetirilən qrant və müqavilə əsaslı layihələrə cəlb etmək, onların əməyini stimullaşdırmaq;
- Müxtəlif layihələr və proqramlar (Erasmus+, ikili diplom və s.) əsasında həmin tələbələri xarici ölkələrə təhsil və ya elmi-tədqiqatlar üzrə ezamiyyətə göndərmək;
- Magistratura təhsil səviyyəsini bitirdikdən sonra bu tələbələrə doktorantura üzrə ixtisasın seçilməsində köməklik göstərmək və doktoranturaya cəlb və təşviq etmək;
- Təhsil müddətində və illik attestasiyalarda doktorantların nailiyyətlərinin monitorinqini aparmaq;
- Doktorantura proqramı çərçivəsində doktorantın cari fəaliyyətini qiymətləndirmək;
- Doktorantura hazırlığının nəticələrini optimallaşdırmaq və təkmilləşdirmək məqsədilə doktorantlarla mütəmadi görüşlər və təlimlər təşkil etmək;
- Doktorantlar üçün məqsədli təqaüdlər ayırmaq;
- Təcrübə imkanlarını genişləndirmək;
- Normativ təhsil müddətində doktorantın fəaliyyətinin keyfiyyət göstəricilərini (dərc olunmuş elmi məqalələri, dissertasiyanın tamamlanması, doktorantın tədris fəaliyyətinə cəlb olunması və s.) təhlil etmək;
- İşəgötürənlərlə tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək;
- Doktorantın akademik və qeyri-akademik karyera imkanlarını öyrənmək;
- Doktoranta karyera imkanları haqqında məlumat vermək.

**4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti**

ÖTH-də BDU-da ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti tədris illəri üzrə aşağıdakı cədvəldə göstərilmişdir.

| Tədris illəri | Elmlər doktorların ın sayı | Elmlər doktorlarının professor-müəllim heyətinin sayına nisbəti, % -lə | Professorların sayı | Professorların professor-müəllim heyətinin sayına nisbəti, % -lə |
|---|---|---|---|---|
| **2016/2017** | 248 | 19 | 240 | 18 |
| **2017/2018** | 241 | 19 | 244 | 19 |
| **2018/2019** | 246 | 19 | 237 | 18 |
| **2019/2020** | 239 | 19 | 228 | 18 |
| **2020/2021** | 237 | 19 | 217 | 17 |

**4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

ÖTH-də BDU-da tədqiqatçıların akademik heyətə olan nisbəti aşağıdakı qrafikdə verilib.




**4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

Doktoranturaya qəbul planının hazırlanması zamanı kafedra, institut, mərkəz və laboratoriyalar tərəfindən verilmiş sifarişlərdə ixtisasların BDU-nun elmi prioritetlərinə, elmi-tədqiqat hədəflərinə və əmək bazarının tələblərinə uyğunluğu, habelə, ixtisas üzrə mütəxəssisin hazırlanması imkanları (doktoranta rəhbərlik edə biləcək mütəxəssisin olması, tədqiqatın aparılması üçün BDU-nun imkanları və s.) nəzərə alınır.

BDU-da doktorantura səviyyəsində fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə 123 ixtisasda kadr hazırlığı aparılır. Universitetdə müxtəlif ixtisaslar üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilən 9 AMEA-nın həqiqi üzvü, 5 AMEA-nın müxbir üzvü, 240 nəfərdən çox professor və 600-ə yaxın dosent çalışır. Hər bir professor və dosent eyni

zamanda eyni elm sahəsinə daxil olan bir neçə ixtisas üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

BDU-da elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi əsasən aşağıdakı kimi təşkil olunur:

- BDU-nun elmi prioritetlərinə uyğun olaraq istiqamətlər üzrə elmi-tədqiqat mövzuları fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında müzakirə olunaraq müəyyən olunur;
- İl ərzində mövzu üzrə aparılan elmi tədqiqatların nəticələri fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında, elmi seminarlarda, konfranslarda müzakirə və təhlil olunur;
- Plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında və elmi şuralarda elmi hesabatların dinlənilməsi (hər bir əməkdaşın və mövzu rəhbərinin) yolu ilə müzakirə olunur və müvafiq qərar qəbul olunur;
- Nəticələr Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Elmi fəaliyyətin təşkili və təhlil şöbəsində statistik təhlil olunur;
- İl ərzində struktur bölmə rəhbərlərinin və fakültə dekanlarının BDU-nun Elmi Şurasında hesabatları dinlənilir və il ərzində elmi fəaliyyəti qiymətləndirilir (mükafatların verilməsi, vəzifə dəyişiklikləri və s.);
- Fakültə, institut, kafedra, şöbə, mərkəz və laboratoriya iclaslarında və elmi şuralarda fəlsəfə və elmlər doktoru proqramları üzrə təhsil alan doktorantların hesabatlarının dinlənilməsi (hər bir əməkdaşın və mövzu rəhbərinin) yolu ilə fərdi iş planı üzrə attestasiyası keçirilir və doktorantın illik attestasiyası üzrə müvafiq qərar qəbul olunur. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir;
- Elmi işçilərin attestasiyası, onun keçirilməsi qaydaları, şərtləri və attestasiyanın nəticələrinin tənzimlənməsi Azərbaycan Respublikası Əmək Məcəlləsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 97 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydaları"na uyğun həyata keçirilir;
- BDU-da il ərzində aparılmış elmi-tədqiqat işlərinin nəticələri üzrə hesabat kitab şəklində çap olunur və müvafiq qaydada təqdim olunur;
- Plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin ən mühüm nəticələri və nəticələr üzrə statistik məlumatlar müvafiq qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim olunur.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

BDU-da doktorluq dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

Doktoranturaya qəbul prosesindən sonra ilk altı ay müddətində doktorantın, doktorant və elmi rəhbərin qarşılıqlı razılığı əsasında elmi rəhbəri (məsləhətçisi) və elmi tədqiqat

mövzusu ilk olaraq kafedrada, sonra fakültə Elmi Şürasında müzakirə edilərək əmrləşdirilmək üçün təqdimat formasında müvafiq qaydada təqdim olunur. Eyni zamanda doktorantın təhsil müddəti ərzində görəcəyi elmi-tədqiqat işinin ümumi planı (Doktorantın Fərdi İş Planı) hazırlanır. Planda illər üzrə görüləcək işlər, dərc olunacaq elmi nəticələr, fəlsəfə doktoru imtahanlarının verilməsi, tədqiqat işinin yerinə yetirilməsi mərhələləri göstərilir. Tədqiqat işləri elmi-tədqiqat institutlarında, mərkəz və laboratoriyalarında, kafedralarda həyata keçirilir. Elmi rəhbər kimi əsasən bu sahədə böyük elmi təcrübəsi olan elmlər doktorları və zəruri hallarda fəlsəfə doktorları da cəlb olunur.

Doktorant təhsil müddətində (fəlsəfə doktoru proqramı üzrə əyani 3 il, qiyabi və dissertant 4 il, elmlər doktoru proqramı üzrə əyani 4 il, qiyabi və dissertant 5 il) tədqiqat işini yerinə yetirməli, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara uyğun dissertasiyasını tərtib etməlidir. Müvafiq doktorluq imtahanlarını verdikdən sonra doktorantın dissertasiyası dissertasiyanın yerinə yetirildiyi struktur bölməsinin genişləndirilmiş iclasında (iclasda ixtisas üzrə mütəxəssislərin iştirakı vacibdir) müzakirə olunur. Elmi-tədqiqat işinin aktuallığına, verilmiş müddətdə yerinə yetirilməsinə bilavasitə elmi rəhbər cavabdehdir.

Dissertasiya işinin müdafiəsi ixtisaslaşdırılmış müdafiə şuralarında həyata keçirilir. 2019-2022-ci illər ərzində BDU-da 19 ixtisas üzrə 8 daimi və 26 ixtisas üzrə 11 birdəfəlik Dissertasiya Şurası fəaliyyət göstərmişdir.

### *4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

BDU-da müəllif hüquqlarının qorunması və plagiatla mübarizə məqsədilə 01 mart 2021-ci il tarixində "Plagiat.Pl" MMC-in Azərbaycan filialı ilə müqavilə bağlanmış, müqaviləyə uyğun olaraq rektorun 12 aprel 2021-ci il tarixli R-36 saylı əmri ilə Universitetdə antiplagiat sistemi tətbiq olunmuşdur.

#### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

BDU rektorunun 12 aprel 2021-ci il tarixli R-36 saylı əmri ilə komissiya yaradılmış və prosedur qaydalar müəyyənləşdirilmişdir. Müəyyən edilmiş qaydaya görə buraxılış işlərinə 20 faiz, magistr işlərinə 10 faiz, digərlərinə isə 5 faizə qədər oxşarlığa icazə verilir. Birinci dəfə sistemdə yoxlanış Universitet hesabına, təkrar yoxlanış müəllif hesabına aparılır. Yoxlamanın nəticəsi protokol formasında müəllifə təqdim edilir. Komissiya rəhbəri hər 3 ayda bir dəfə rektora məlumat verir. Bundan başqa ildə bir dəfə olmaqla komissiya rəhbərinin Elmi Şurada hesabatla çıxış etməsi də təmin edilmişdir.

#### 4.4.3 BDU-nun antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Antiplagiat sisteminin tələbləri bütün fakültələrə, kafedralara, ETİ-nə göndərilmiş və bütün maraqlı tərəflər qaydalarla məlumatlandırılır. Yerində yoxlama zamanı məlum oldu ki, bu günə kimi buraxılış işləri istisna olmaqla bütün işlər Antiplagiat sistemindən keçirilir. 2023-

cü ildən başlayaraq buraxılış işlərinin də sistemdən keçirilməsi nəzərdə tutulmuşdur. Bu prosedurlarla bağlı məlumatların BDU-nun rəsmi saytı vasitəsilə maraqlı tərəflərə çatdırılması məqsədəuyğundur.

## 5 İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş Bakı Dövlət Universitetinin NİZAMNAMƏSİ ilə BDU-da idarəetmə orqanlarından Elmi Şura, Himayəçilər Şurası, Elmi-metodiki Şura fəaliyyət göstərir. Universitetin cari fəaliyyətinə rəhbərliyi isə rektor həyata keçirir. BDU-nun idarəetmə sistemi Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında", "Publik hüquqi şəxslər haqqında" Qanunlarına və BDU-nun Nizamnaməsinə uyğun şəkildə qurulmuşdur. İctimai əsaslarla fəaliyyət göstərən BDU-nun Himayəçilər Şurası Universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə, Elmi Şura isə Universitetin ali idarəetmə orqanıdır, BDU-nun İctimai Nəzarət Şurası isə məşvərətçi qurumdur, Universitetin fəaliyyətinə ictimai nəzarəti həyata keçirir. Elmi-Metodiki Şura (2021-ci ilə qədər Tədris-Metodiki Şura adlandırılıb) metodiki işlərin əsas istiqamətini hazırlamış, təhsil prosesində iştirak edən struktur bölmələrinin, fakültələrin, kafedraların qarşılıqlı əlaqələrini koordinasiya edir.

Adıçəkilən idarəetmə orqanlarından yalnız Elmi Şuranın iclas və protokollarının illər üzrə sənədləşmələrinin sistemli şəkildə aparılması təsdiqlənmiş oldu. Elmi Şuranın əsasnaməsinin, fəaliyyət/iş planlarının mövcudluğu yerində yoxlanılmışdır. Əvvəlki illər üzrə Elmi Şura iclaslarının bir neçəsinin gündəlikdə duran məsələ(lər) ilə yekun qərar(lar) və çıxarış(lar) arasında uyğunsuzluqlar aşkarlanmışdır. Belə ki, çıxarışda qərara salınmış bir sıra məsələlər ya əvvəlki iclasların gündəliklərində nəzərdə tutulan məsələlər sırasındadır, ya da ümumiyyətlə müzakirəsi nəzərdə tutulmamışdır. Sənədlərə baxış zamanı 03.11.2017-ci il (09 saylı) keçirilmiş Elmi Şuranın protokulu olduğu halda, Elmi Şuranın iş planında bunun nəzərdə tutulmadığı, 22.02.2017- cil il (03 saylı) tarixdə keçirilmiş Elmi Şuranın 2 protokolu olduğu, sonuncu sənədə əlavə 1 məsələ və qərar daxil edildiyi aşkarlanmışdır. 06.01.2017-ci il tarixli (01 saylı) Elmi Şura iclasının iki ədəd fərqli məzmunda protokolu aşkarlanmışdır. Hazırda Elmi Şura iclaslarının video lentə alınması və protokol növü kimi stenoqramın istifadəsi məlumatların dəqiqliyinin qorunması baxımından önəmlidir.

BDU nizamnaməsi ilə Universitetin idarə olunmasında bəzi uyğunsuzluqlar da mövcuddur. Belə ki, Nizamnamənin 4.13 bəndində BDU-da 7 prorektorun mövcudluğu qeyd olunsa da hazırda 6 prorektor fəaliyyət göstərir. Bu sayla bağlı heç bir verifikasiyaedici məlumata rast gəlinməmişdir.

BDU nizamnaməsi ilə (6.7 bəndi) Universitetin Himayəçilər Şurası tərkibində daxili audit bölməsi yaradılsa da bu bölmə üzrə fəaliyyət 3 ildir mövcud deyil. Hal-hazırda bu bölmənin yaradılması və fəaliyyətinin təşkili məqsədilə işlər görülür.

**5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

BDU-nun Elmi Şurasının tərkibi BDU rektorunun 14.11.2016- cı il R-97 saylı əmri ilə formalaşmışdır; Elmi Şuranın sədri (Rektor), Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor (sədrin müavini), prorektorlar, Qazax filialının direktoru, “Gənc istedadlar” liseyinin direktoru, elmi katib, fakultə dekanları, ETİ- nin direktorları, digər struktur bölmə rəhbərləri, BDU Tədris Metodiki Şuranın sədri, Müəllim və Tələbə Həmkarlar İttifaqlarının – Tələbə Gənclər Şurasının, Tələbə Elmi Cəmiyyətinin, Veteranlar şurasının üzvləri daxildir. BDU-nun Himayəçilər Şurasının tərkibinə isə tanınmış dövlət, elm və mədəniyyət xadimləri, nüfuzlu alimlər daxildir.

**5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

BDU Elmi Şurasının əsasnaməsi fəaliyyət və iş planlarının mövcudluğu yerində təsdiqlənmiş oldu. Şura, fəaliyyət planı əsasında mütəmadi olaraq öz iclaslarını, yığıncaqlarını, müvafiq tədbirləri həyata keçirir, əldə edilmiş nəticələri təhlil edərək gələcək fəaliyyətlərini müəyyənləşdirirlər. Elmi Şurada mütəmadi olaraq, müvafiq struktur bölmələrinin hesabatları dinlənilir.

**5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

BDU-nun ümumi İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun təkmilləşdirilməsinə, yenidən işlənilməsinə ehtiyac vardır.

**5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

İdarəetmə orqanlarında qanunvericiliyin, normativ-hüquqi aktların tələblərinə uyğun olan qərarlar qəbul olunur. Qəbul olunmuş qərarlar Universitetin rəsmi saytında və sosial media hesablarında yerləşdirilməklə bərabər, struktur bölmələrinə elektron kommunikasiya vasitələri ilə və kağız daşıyıcılarında ötürülür. İctimai əhəmiyyət kəsb edən qərarlar haqqında ölkənin kütləvi informasiya vasitələrində də məlumat verilir.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

BDU-da idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bakı Dövlət Universitetinin Nizamnaməsi” və müvafiq əsasnamələr ilə tənzimlənir.

BDU-nun təşkilati struktur sxemində təqdim edilmiş idarəetmə strukturları arasında biri-birini fuksionallıq, fəaliyyət baxımından təkrarlayan adlara rast gəlmək mümkündür. Şöbə və mərkəzlərin əsasnamələrinə baxış zamanı eyni fəaliyyətin icrasının müxtəlif

şöbə/mərkəzlərə verilməsi müşahidə edilir ki, burada da strukturun optimallaşdırılması ehtiyacı ortaya çıxır. Bundan başqa strukturlar arası əlaqənin optimallaşdırılması ehtiyacı da diqqət çəkən məqamlardandır. İdarəetmə proseslərində planlama, təşkil etmə, büdcələşdirmə (budgeting) mərhələləri uğurlu olsa da, xüsusilə kadrların müəyyən edilməsi (staffing), yönəltmə/təlimatlandırma (directing), koordinasiya, hesabatlılıq mərhələlərində strukturların idarə edilməsində çatışmamazlıqlar müəyyən edilmişdir. Həmçinin tədris fəaliyyəti aparan 120 kafedranın da say və məzmun etibarı ilə optimallaşdırılmasına da zərurət vardır.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizmi, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyətinin əsaslı təkmilləşdirilməsinə ehtiyac vardır. Hesabatlılıq daha çox məlumat əsaslı olduğundan, təhlilə yer verilmədiyindən gələcək işlərin planlanması, proqnozlaşdırılması baxımından çətinlik yaradır. Hesabat nümunələrilə tanışlıq zamanı onların daha çox formal xarakterdə tərtibi müşahidə edilmişdir. İdarəetmə orqanları və aidiyyatı strukturlar üzrə qiymətləndimələr nəzərdə tutulsa da, konkret mexanizmlər, ölçülən meyarların/indikatorların müəyyənləşdirilməsinə, prosedurların hazırlanmasına xüsusi diqqətin ayrılması məqsədəuyğundur.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Universitetdə idarəetmə orqanları öz fəaliyyətlərini BDU-nun Nizamnaməsi və öz əsasnamələri əsasında qururlar. İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar müvafiq şura iclaslarında müzakirə edilərək qəbul olunur, protokollaşdırılır və hesabatlar aidiyyəti üzrə təqdim olunur. Bununla belə, İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi istiqamətində ardıcıl və sistemli işlərin görülməsinə ehtiyac vardır.

***5.2. İnsan resurslarının idarə edilməsi***

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

**5.2.2 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Universitetdə işə qəbul prosedurları müsabiqə və müsahibə yolu ilə aparılır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları” və Azərbaycan Respublikası təhsil nazirinin 1996-cı il 7 avqust tarixli 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”yə uyğun

olaraq fakültə dekanı, kafedra müdiri, professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqənin nəticəsinə əsasən həmin vəzifələrə seçilmiş şəxslərlə işəgötürən arasında əmək münasibətləri 5 il müddətinə bağlanılmış əmək müqaviləsi ilə tənzimlənir (ÖTH səh.113). Universitetdə şəffaf və əlçatan formada işə qəbul prosedurları mövcuddur, seçkili vəzifələrin tutulması prosedurları qanunvericiliyin tələblərinə uyğundur. Akademik və inzibati heyətin kəmiyyət və keyfiyyət göstəriciləri strateji inkişaf proqramına və maliyyə resurslarına uyğundur. (ÖTH səh.164)

BDU-da işə qəbul qaydaları mövcuddur və bu məqsədlə Universitetin Elmi Şurasının 30.03.2021-ci il tarixli iclasında "İşə Qəbul Üzrə Müsahibə Komissiyası"nın yaradılması ilə bağlı qərar və bu qərar əsasında rektorun 08.04.2021-ci tarixli əmri mövcuddur. Lakin sənədlərlə tanışlıq zamanı Müsahibə komissiyasının fəaliyyətini əks etdirən iclas protokollarında sistemsizlik və müəyyən qüsurlar müəyyən edilmişdir. Verifikasiya zamanı komissiyanın fəaliyyəti ilə bağlı hesabatlar təqdim edilməmişdir. BDU-da "İşə qəbul qaydaları"nın 2.9 bəndində göstərildiyi kimi həmin komissiyanın fəaliyyətinə dair əsasnamənin mövcudluğu nəzərə alınsa da, bu əsasnamə mövcud deyildir. Beləliklə, BDU-da "İşə qəbul Qaydaları" tələblərinin Universitetdə yetərli səviyyədə tətbiq olunmalı və təkmilləşdirilməlidir.

"İşə qəbul qaydaları"nın 3.2. bəndində qeyd edilir ki, ştat cədvəlində boş olan digər vəzifələrin tutulması üçün həmin vəzifəyə irəli sürülən tələblər göstərilməklə müvafiq elan verilir. Son illər ərzində seçkili vəzifələr istisna olaraq digər vəzifələr üzrə açıq elanların paylaşılmadığından müvafiq vakansiyaların maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsi məqsədəuyğundur.

İnsan resursları və hüquq şöbəsində aparılmış verifikasiya zamanı aydın olmuşdur ki, hesabat dövründə işə qəbul prosedurunu həyata keçirən struktur bölmə Elmi Şuranın 24.05.2013-cü cü il qərarı ilə yaradılmış "Kadrlar şöbəsi" olmuşdur. Şöbənin Əsasnaməsi mövcuddur. Şöbədə çalışan 8 nəfər işçinin həmin dövr üzrə iş bölgüləri və fəaliyyət planları təqdim edilmişdir. Elmi Şuranın 19.12.2019-cu il iclasının qərarı ilə həmin şöbənin əsasında "İnsan resursları və hüquq" şöbəsi yaradılmışdır. Şöbənin tərkibində 3 sektor

1. Hüquq sektoru
2. İnsan resursları sektoru
3. Karyera və məzunlarla əlaqə sektoru yaradılmışdır.

Şöbənin Əsasnaməsi mövcuddur. Şöbə bütövlükdə öz fəaliyyətini bu Əsasnaməyə uyğun icra edir. Bununla belə, "İnsan resursları və hüquq" şöbəsinin Əsasnaməsində yer alan bir sıra məsələlər öz təsdiqini tapmamış və ya təsdiqedici sənədlərin mövcud olmadığı müəyyən olunmuşdur. Bu, Əsasnamənin 2.2 bəndində verilən "3R" beynəlxalq işə qəbul prinsipi ilə bağlı olmuşdur. Bu prinsipin tətbiqi üzrə beynəlxalq sertifikat və ya o dəyərdə hər hansı bir təsdiqləyici sənədin olmadığı bildirilmişdir. Əsasnamənin 4.1.3 bəndində verilən fəaliyyət istiqaməti - işçi ehtiyaclarına uyğun olaraq əmək resursları bazarının araşdırılması və müvafiq kadrların cəlb edilməsi üzrə fəaliyyətin icrasına dair təsdiqləyici sənədlər aşkarlanmamışdır. "İnsan resursları və hüquq" şöbəsinin Əsasnamənin 4.1.6 İnsan resursaları və hüquqların planlaşdırılması və işə qəbul üzrə proqram və layihələrlə bağlı fəaliyyətin mövcud olmadığı bildirilmişdir. Əsasnamənin 4.1.8 bəndi üzrə göstərilən işçilərin Universitet daxili və kənar formalarda təhsili və inkişafı prosesi, 4.1.10 bəndində nəzərdə tutulan işçilərin karyera planlaşması prosesinin təşkili mövcud deyil. Əsasnamədə 4.1.66 bəndində "Məzunlarla iş" bölməsinin adı çəkilsə də, belə bir bölmənin mövcudluğuna rast gəlinməmişdir.

Verifikasiya üçün təqdim edilən 01 iyul 2021-ci il, 15 oktyabr 2021-ci il, 25 noyabr 2022-ci il Müsahibə Komissiyasının iclaslarının Protokol çıxarışları (müvafiq olaraq № 02, № 09, № 01) nümunəsindən də göründüyü kimi işə qəbulla bağlı namizədlərin qiymətləndirilməsi meyarları və ona müvafiq olaraq rubriklərin müəyyənləşdirilməsinin təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, hər bir namizəd 1. Ümumi dünyagörüşü; 2. İxtisas uyğunluğu; 3. Bilik səviyyəsi və peşə hazırlığı; 4. Şəxsi keyfiyyətlər şəklində 4 istiqamət üzrə qiymətləndirilir. Qeyd olunan istiqamətlər üzrə qiymətləndirmə üsul və vasitələrin (test, tapşırıqvermə, layihə işi, şifahi sual-cavab və s.) təkmilləşdirilməsinə ehtiyac vardır. Bundan başqa, qiymətləndirmənin ölçü rubrikləri/şkalasının da müəyyənləşdirilməsinə ehtiyac vardır. Hər bir istiqamət üzrə namizədə "+" və ya "-" işarələrindən biri qeyd edilməklə dəyərləndirilir. Namizədlərdə dəyərləndiriləcək keyfiyyətlərin ölçüləbilən olması, həmçinin işə qəbul üzrə vahid (lakin çeşidli) dəyərləndirmə formasının, müvafiq olaraq bal sisteminə əsaslanan (10 ballıq, 100 ballıq və s.) qiymətləndirmə şkalasının müəyyən edilməsi məqsədəmüvafiqdir.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

BDU-nun akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğunluğuna dair hazırlanmış proqnoz cədvəlləri müəyyən edilməmişdir. SİP-in ortamüddətli (2021-2025-ci illər) fəaliyyət planında fəaliyyətə cavabdehlik və icra müddəti göstərilmişdir. Maliyyə və Təminat Departamentində SİP-in qısa müddətli, orta müddətli və uzun müddətli maliyyə proqnozlaşdırılmasının aparılmadığından müvafiq proqnozlaşdırmanın aparılması məqsədəuyğun hesab edilir.
BDU-da akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbəti 3:1 səviyyəsini keçir.

| Tədris ili | Professor müəllim heyətinin sayı | Tədris köməkçi heyət | | | İnzibati heyət | Say Nisbəti |
|---|---|---|---|---|---|---|
| | | tyutor | metodist | laborant | | |
| **2016/2017** | 1364 | 119 | 21 | 304 | 529 | 1.4 |
| **2017/2018** | 1332 | 120 | 21 | 345 | 587 | 1.2 |
| **2018/2019** | 1333 | 137 | 24 | 180 | 787 | 1.18 |
| **2019/2020** | 1315 | 117 | 22 | 162 | 897 | 1.09 |
| **2020/2021** | 1306 | 106 | 21 | 258 | 801 | 1.1 |
| **2021/2022** | 1296 | 94 | 0 | 218 | 818 | 1.14 |

*Məlumat BDU nun "İnsan resursları və hüquq" şöbəsinə məxsusdur.*

Akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbətinin tələb olunan səviyyəyə (3:1) çatdırılması BDU-nun Strateji İnkişaf Planının 2021-2030-cu illər üzrə reallaşdırılmasının hədəfləndiyi bildirilmişdir.

### 5.2.3.ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Universitetdə işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması üzrə məsələlər Maliyyə və Təminat Departamentində araşdırılmış, bununla bağlı əmrlərlə Sənədlər və müraciətlərlə iş şöbəsində tanış olmaq təklif edilmişdir. Əmək haqqı sistemində differensiallığın tətbiqi şərtlərinə dair yekun sənəd təqdim edilməmişdir.

BDU-nun rektorunun 12 aprel 2021-ci il tarixli R-37 nömrəli əmri ilə təsdiq edilmiş, Elmi Şurasının 30 mart 2021-c il tarixli qərarı ilə müəyyən edilmiş Bakı Dövlət Universitetinin Daxili İntizam Qaydalarının 4-cü bölməsinə müvafiq olaraq İşçilərin Mükafatlandırılması və Həvəsləndirilməsi əsasında aparıldığı qeyd olunmuşdur. Bununla belə, mükafatlandırma üzrə prosedurlar/qaydalar/şərtlərin spesifikləşdirilməsinə ehtiyac vardır.

İşçilərin sosial vəziyyətinin yaxşılaşdırılması prioritetini və BDU-nun mövcud maliyyə imkanlarını əsas tutaraq Elmi Şuranın müvafiq qərarlarına əsasən Universitetin bütün işçilərinin aylıq əməkhaqqları mütəmadi olaraq artırılır, bir sıra əlamətdar və bayram günləri ilə əlaqədar onlara eyni həcmdə mükafatlar verilir. Bununla yanaşı əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində, Web of Science bazasında indekslənən dərgilərdə nəşr edilən əsərlərə görə fərqlənmiş əməkdaşlara fərdi qaydada həvəsləndirici mükafatlar verilir, yubileyi olan işçilərə pul mükafatı yazılır və ya qiymətli əşyalar hədiyyə edilir (ÖTH 165).

Yuxarıda qeyd olunan "əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsi, müəssisədaxili intizam qaydalarına əməl edilməsi" şərtlərinə görə mükafatların verilməsi indikatorlarının spesifikləşdirilməsinə ehtiyac vardır. Belə ki, hər bir işçidən mövcud əmək funksiyalarının icrasında yüksək peşəkarlıq və intizam qaydalarına əməl olunması şərtlərinin ödənməsi tələb edilir, gözlənilir. Bu eyni zamanda işçilərin öhdəlikləri sırasındadır. Müəssisədə işçilərin mükafatlandırılması qaydalarının, şərtlərinin aydın və dəqiq meyarlarla ifadə edilməsi prosesdə ehtimal edilə biləcək subyektivlik faktoru minimuma endirməklə yanaşı, işçilərin motivasiyalarının yüksəlməsinə, sağlam rəqabət mühitinin inkişafında da dəstək olacağı birmənalıdır.

Mükafat əmrlərinin hesabatlılıq cədvəli aşağıdakı kimi təqdim edilmişdir.

| İllər üzrə | Maddi yardım mükafat | Həvəs-ləndirmə | Yubiley | Fəxri fərman | Cəmi |
|---|---|---|---|---|---|
| **2016** | 603 | 0 | 196 | 2 | 801 |
| **2017** | 258 | 30 | 0 | 4 | 292 |
| **2018** | 458 | 0 | 193 | 0 | 651 |
| **2019** | 490 | 37 | 32 | 1 | 560 |
| **2020** | 564 | 3 | 1 | 0 | 568 |

*Məlumat BDU nun "İnsan resursları və hüquq" şöbəsinə məxsusdur.*

Təqdim olunmuş cədvəl üzrə 2016 və 2018-ci illərdə həvəsləndirmə tədbirlərinin tətbiq edilməyi qeyd olunur. Həmçinin əməkdaşların mükafatlandırılması 2017-ci ildə 2016-cı ilə nisbətən 43% azalmışdır.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

"İnsan resursları və hüquq" şöbəsinin Əsasnaməsinin 4.1.33-cü bəndində göstərilən işçi performansının qiymətləndirilməsi əsasında işçilərin peşəkar və ixtisas dərəcələrinin uyğunluğunu rəsmiləşdirmək, işçilərin attestasiyasının keçirilməsini təşkil etmək və bu sahədə komissiyanın işində iştirak edilməsi bu şöbənin səlahiyyətində olsa da hazırda bu fəaliyyətin icra olunmadığı məlum olmuşdur. Verifikasiya zamanı aydın olmuşdur ki, əməkdaşların işdən/universitetdən məmnunluq səviyyəsini araşdıran sorğu/tədqiqatlar aparılmamışdır. Qeyd olunan sorğuların Keyfiyyət təminatı şöbəsi tərəfindən aparıldığı qeyd olunsa da, sorğularla tanışlıq zamanı sualların məzmununun tədris keyfiyyətinin ölçülməsinə yönəldiyi aşkarlanmışdır. Universitetdə Keyfiyyət təminatı şöbəsi tərəfindən vaxtaşırı olaraq təhsilalanların məmnuniyyəti sorğuları keçirilsə də, bu günə qədər təhsilverənlərin, digər işçi heyətin işdən məmnunluq sorğuları keçirilmədiyi qeyd edilmişdir. İnsan resursları və hüquq şöbəsi tərəfindən bildirilmişdir ki, şöbələrin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı tərəflərindən mütəmadi təhlillər aparılsa da, əməkdaşların qiymətləndirilməsi və buna uyğun motivasiya sistemi mövcud deyildir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Hesabat dövrü ərzində BDU-da akademik heyətin öz ixtisas sahələri üzrə ixtisasartırma, təkmilləşdirilmə və digər təlim kurslarında iştirakı həyata keçirilmişdir. Belə ki, 2015-2016-cı tədris ilində 81; 2016-2017-ci tədris ilində 93; 2017-2018-ci tədris ilində 171; 2018-2019-cu tədris ilində 190 müəllim, 2020-2021 tədris ilində 155 müəllim respublikanın elm və təhsil müəssisələrində ixtisasartırma kurslarında iştirak etmişdir.

Verifikasiya zamanı bununla bağlı hesabatlar illər üzrə işçilərin stajkeçmə cədvəlləri "Keyfiyyət təminatı və monitorinq" şöbəsi tərəfindən təqdim edilmişdir. Lakin, verifikasiya zamanı aydın olmuşdur ki, professor/müəllim heyətinin ixtisasartırmaya cəlbi onların təlim ehtiyacları müəyyənləşdirilmədən aparılır. Universitetdə davamlı olaraq kiçik qruplar və ya fərdi şəkildə fərqli mövzularda peşəkar inkişaf təlimləri keçirilsə də, orada iştirak edən əməkdaşların yekun siyahıları İnsan resursları və hüquq şöbəsində sistemli şəkildə toplanmamışdır.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

BDU Özünütəhlil Hesabatından aydın olur ki, əməkdaşların ictimai fəallıqlarının artırılması məqsədilə BDU-da müxtəlif mövzuda konfranslar, dəyirmi masalar, müsabiqələr, ağacəkmə aksiyaları, iməciliklər və s. keçirilir. Onların bu istiqamətdə keçirilən ölkəmiqyaslı sosial layihələrdə iştirakı təmin olunur. Bayram və əlamətdar günlərdə əməkdaş və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir.

İşçilərin asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili məqsədilə İdman-Sağlamlıq Mərkəzində və Mədəniyyət-Yaradıcılıq Mərkəzində mütəmadi olaraq idman və mədəni-kütləvi tədbirlər təşkil olunur.

Əməkdaşların məzuniyyət dövründə istirahətinin təşkili üçün BDU-nun Quba Tədris-Təcrübə və İstirahət Mərkəzinin imkanlarından mütəmadi istifadə olunur. Eləcə də BDU Həmkarlar İttifaqı Komitəsinin köməyi ilə ölkənin müxtəlif kurort-sanatoriya müəssisələrinə göndərişlər verilir. Mədəniyyət-yaradıcılıq Mərkəzində əməkdaşların şəxsi yaradıcılıqlarının inkişaf etdirilməsi, Universitetin yaradıcı qrup və dərnəklərinin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır.
İşçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti barədə “İctimaiyyətlə əlaqələr və informasiya” şöbəsi tərəfindən mütəmadi olaraq məlumatlar paylaşılır.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

BDU özünütəhlil hesabatında qeyd olunur ki, inzibati, texniki və köməkçi heyət üzvlərinin illik iş planı tərtib olunur. Müvafiq struktur bölmənin iclasında əməkdaşın müəyyən olunmuş müddət üzrə hesabatı dinlənilir. Onun fəaliyyəti struktur bölmə tərəfindən qiymətləndirilir və müvafiq qərarlar qəbul olunur.

Lakin verifikasiya zamanı aydın olmuşdur ki, strukturlarda heyətin illik iş planı və hesabatları mövcud olsa da, qeyri-akademik heyətin fəaliyyətinin struktur bölmələr tərəfindən hansı formada qiymətləndirilməsinin müəyyən edilməsinə və bununla bağlı əməli tədbirlərin görülməsi istiqamətində vahid yanaşmanın tətbiq olunmasına ehtiyac vardır.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri gözlənilməklə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir.

Əmək müqavilələri, onlarda dəyişikliklərin edilməsi və ya xitam verilməsi Universitet tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə elektron imza vasitəsilə daxil edilir. Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

## *5.3. Maliyyə resurslarının idarə edilməsi*

### 5.3.1 ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

BDU Nizamnaməsinin 5.2 bəndində göstərilir ki, Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır. Verifikasiya olunan zaman BDU-nun maliyyə təminatı məsələlərinin Nizamnaməyə uyğunluğu öz təsdiqini tapmışdır.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

BDU-da qısa və orta müddətli dövr üçün maliyyə resurslarının planlaşdırılması sistemi mövcuddur. Belə ki, hər il ötən ilin faktiki göstəriciləri nəzərə alınmaqla, yeni büdcə ili və

növbəti 3 il üçün fəaliyyət planına əsaslanan baza proqnoz göstəriciləri tərtib edilir və baxılması üçün BDU-nun Himayəçilər Şurasına və müvafiq dövlət qurumlarına təqdim edilir.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Maliyyə resurslarının planlaşdırılması prinsipləri və vəzifələri BDU-nun strateji inkişaf istiqamətləri və hədəflərinə uyğundur. Planlaşdırmanın əsas prinsipləri: fasiləsizlik, dəqiqlik, effektivlik, ödəmə qabiliyyətlilik, risklərin balanslaşdırılmasıdır. Verifikasiya zamanı SİP 2021-2030 üzrə maliyyə resurslarının planlamalarının aparılması barədə yetərli məlumatlar təqdim edilməmişdir.

### 5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti

Universitetin əlavə maliyyə resurslarının əldə etmək imkanları var. Bu əsasən qrantlar və elmi patentlərin hesabına reallaşdırılır. Universitet əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə fəaliyyət istiqamətlərini genişləndirməkdə maraqlıdır.

- Elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması hesabına gəlirlərin artırılması;
- Faktiki maliyyə mənbəyi (büdcə və ödənişli təhsil xidmətlərindən daxilolmalar) ilə yanaşı maliyyələşmə mənbələrinin artırılması (şəxsi ianələr, xeyriyyə vəsaitləri və s.);
- Bilavasitə təhsil xidmətlərinin istifadəçilərinin maliyyələşdirmə sferalarının genişləndirilməsi.
- Digər xidmətlərdən (elmi cihazlardan istifadə, istirahətin, qidalanmanın təşkili və yataqxanalardan gələn gəlir), maddi-texniki bazadan (icarə, nəqliyyat xidmətinin göstərilməsi, nəşriyyat xidmətləri və s.) gələn gəlirləri artırmaq.

Universitet yaxın gələcəkdə öz tədris-təcrübə və istirahət mərkəzi, tələbə yataqxanaları, nəqliyyat vasitələri, yeməkxana, və s. xidmətlərindən gəlir götürmək imkanlarını (BDU tərəfindən yaradılmış BUİLD MMC vasitəsilə) müzakirə edir və planlaşdırır. Eyni zamanda “Endowment” fondların formalaşdırılması, sponsor vəsaitlərinin, “dövlət-özəl tərəfdaşlığı” layihəsi çərçivəsində investisiyaların cəlb olunması istiqamətində də işlər aparılmaqdadır.

| TM-in maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Ümumi gəlir** | 43.141413 | 48.073933 | 60.754678 | 61.883082 | 71.929844 |
| **Ümumi xərclər** | 42.543408 | 44.815825 | 48.204680 | 57.379350 | 62.541860 |
| **Müəssisənin ümumi büdcəsi** | 51.896556 | 56.848574 | 72.787427 | 86.465829 | 101.016323 |
| **Təhsil haqqı istisna olmaqla digər daxil olmalar ümumi daxilolmalara nisbəti** | 0.038 | 0.037 | 0.020 | 0.037 | 0.038 |

*Məlumat BDU nun “*Maliyyə təminat Departamenti*”nə məxsusdur.*

Bu cədvəldən göründüyü kimi BDU-da Təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbətinin artırılmasına ehtiyac olduğunun qeyd etmək lazımdır.

**5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi**
**5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Son 5 ildə iki dəfə Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən müvafiq yoxlamalar həyata keçirilmişdir. 2020-ci ilin yanvar ayında Hesablama Palatası tərəfindən kənar audit yoxlaması aparılmış, lakin pandemiya səbəbilə və inventarizasiyanın tamamlanmaması səbəbilə proses yarımçıq qalmışdır. Sonradan 2021-ci ildə BDU-da inventarizasiya prosesi yekunlaşdırılmış, bununla bağlı cari ildə Auditor rəyinin verilməsi nəzərdə tutulmuşdur. Maliyyə hesabatlılığı Elmi Şuralarda vaxtaşırı təqdim edilir. BDU-nun maliyyə hesabatları auditor rəyi ilə birlikdə rəsmi internet səhifələrində və ya mətbu orqanda dərc etməsi və ya yerləşdirilməsi təşkil olunmamışdır.

**5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu**
**5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu**

BDU-nun Nizamnaməsinə görə Universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna yönəldilməsi nəzərdə tutulmuşdur.

Universitetin Nizamnaməsinin 5.2-ci bəndində göstərilən mənbələrdən (büdcə vəsaiti istisna olmaqla) daxil olan vəsait hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir (Nizamnamənin 5.12- ci bəndi).

Verifikasiya zamanı BDU-nun Maliyyə və təminat departamenti tərəfindən Universitetin maliyyə vəziyyəti haqqında hesabatlar, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlar, pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar xalis aktivlərdə dəyişikliklər haqqında hesabatlar təqdim olunmuşdur.

BDU-nun Nizamnaməsinin 3.1.18-ci bəndinə əsasən Universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək Universitetin əsas vəzifə və hüququ olaraq tanınmışdır. Verifikasiya zamanı təqdim olunan maliyyə sənədlərində büdcə- gəlir və xərc smetalarında qeyd olunan istiqamətlər üzrə bu prinsiplərin qorunduğu aydın olmuşdur.

**5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir (Nizamnamənin 5.9 bəndi). Rektor - Universitetin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir (Nizamnamənin 4.12.7 bəndi). Universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir və buna nəzarəti həyata keçirir (Nizamnamənin 4.12.12 bəndi). Universitet idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir (Nizamnamənin 6.5-ci bəndi).

Universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək (Nizamnamənin 5.6 cı bəndi) BDU-nun struktur bölməsi olan Maliyyə təminat Departamenti Universitetdə həyata keçirilən satınalmaların səmərəliliyinə və bağlanılmış satınalma müqavilələrinin icrasına nəzarət edir. Universitetin illik smetaların icra vəziyyətini təhlil edir, səlahiyyətləri daxilində bu işlərin təşkilinə nəzarət edir.

Departament Universitetdə əsas fəaliyyət göstəriciləri üzrə proqnozların icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

BDU-nun Maliyyə Təminat Departamenti Universitet və onun strukturlarında satınalmaların həyata keçirilməsinə nəzarət edir. Bağlanılmış satınalma müqavilələrinin icrasına nəzarət edir. Departament daxilində fəaliyyət göstərən Maliyyə şöbəsinin iş planında və təqdim olunmuş hesabatlardan aydın olur ki, şöbə il ərzində satınalma ilə bağlı prosedurun müəyyən edilməsi və qanunla icazəsi tələb olunan satınalma prosedurlarını həyata keçirir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi mövcud qanunvericiliyin tələbləri gözlənilməklə (tender və s.), təsdiq edilmiş müqavilə əsasında və müqavilədə təsbit edilmiş “Qiymətlərin razılaşdırılması protokolu”na uyğun həyata keçirilir. Dövlət satınalmaları üzrə vahid internet portalı vasitəsilə müvafiq işlər görülür, hesabatlar təqdim edilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Universitet “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Universitet “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir (Nizamnamənin 7.1 və 7.2 bəndi). BDU-nun Maliyyə Təminat Departamenti daxilində fəaliyyət göstərən Mühasibat uçotu və hesabatı şöbəsi Universitet aktivlərinin və öhdəliklərinin inventarizasiyasının aparılması və onların mühasibat uçotu hesablarında düzgün əks etdirilməsini təmin edir. SİNAM ERP proqramı vasitəsilə malların (iş və xidmətlərin) anbara mədaxil və məxaric sənədlərinin icra edilməsini təmin edir.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Universitetin Maliyyə Təminat Departamenti dövri olaraq müvafiq dövlət orqanlarına-Maliyyə Nazirliyi, Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsi, Elm və Təhsil Nazirliyi və s. hesabatlar təqdim edir. Maliyyə Təminat Departamentinin illik iş planları və hesabatları təqdim edilmişdir.

**5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

BDU Nizamnamənin 7.1-ci bəndinə əsasən Universitet "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Verifikasiya zamanı aydın olmuşdur ki, maliyyə hesabatlarının dərc olunması həyata keçirilmir. Yeni yaradılacaq rəsmi internet saytında bu tipli hesabatların yayımlanması gələcəkdə nəzərdə tutulur.

**5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu- BDU Nizamnaməsinin 6.7 bəndinə əsasən**

Universitetdə daxili audit bölməsinin fəaliyyəti nəzərdə tutulmuşdur və bu bölmənin fəaliyyətinə Himayəçilər Şurası nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir. Lakin məlum olmuşdur ki, bu bölmənin fəaliyyəti audit vəzifəsinin vakansiyada olması səbəbindən tam təmin edilməmişdir. Gələcəkdə Himayəçilər Şurası ilə razılaşdırmaqla bu bölmənin fəaliyyətinin tam təmin edilməsilə bağlı planların/təşəbbüslərin mövcud olduğu qeyd edilmişdir.

**5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyətilə bağlı mütəmadi olaraq maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyət həmin resursların aidiyyəti üzrə xərcləmələrin təhlili ilə aparılır.

***5.4. İnformasiya idarəetmə sistemi***

**5.4.1.İnformasiya idarəetmə sistemi**

İnformasiya texnologiyaları Mərkəzi Elmi Şuranın 14 fevral 2020-ci il tarixli iclasının qərarı ilə (protokol №1) BDU-nun struktur bölməsi olmaqla yaradılmış, internet texnologiyalarının tətbiqini, informasiya sistemləri və məlumat bazalarnın yaradılmasını, şəbəkə və sistem inzibatçılığını, informasiya təhlükəsizliyini və kompüterlərin texniki və proqram təminatını həyata keçirir. Mərkəzin tərkibinə aşağıdakı şöbələr daxildir:

1. İnternet texnologiyaları şöbəsi;
2. İnformasiya sistemləri və şəbəkələrinin inzibatçılığı şöbəsi;
3. Texniki və proqram təminatı şöbəsi;
4. İnformasiya təhlükəsizliyi şöbəsi.

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

BDU-da müxtəlif məqsədlər üçün bir neçə idarəetmə sistemi mövcuddur. Belə ki, Electron University (EU) platforması tədrisin idarə olunması, BLACKBOARD platforması – dərslərin online keçirilməsi və CLIX platforması -imtahanların keçirilməsi üçün istifadə edilir.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

Universitetdə informasiya idarəetmə sistemləri məsul struktur bölmələr tərəfindən idarə olunur:

- “Blackboard” və CLIX – Tədrisin təşkili və idarə olunması Mərkəzi;
- “SERP” – Maliyyə və təminat Departamenti;
- “AZDOC” – Sənədlərlə və müraciətlərlə iş şöbəsi;
- “AZIRVIS” – İnsan resursları və hüquq şöbəsi;
- “IRBIS” – Elmi Kitabxana.

EU platformasının idarəetmə funksiyaları tədrisin təşkili və idarə olunması mərkəzinin mütəxəssislərini, fakültənin dekan müavinləri və tyutorlarını əhatə edir. Yerində verifikasiya zamanı müəyyən edilmişdir ki, mərkəzin mütəxəssisləri, fakültə tyutorları tərəfindən məlumatlar qismən yenilənir.

İnformasiya idarəetmə sistemlərinin əməkdaş və tələbələr üçün əlçatanlığı təmin edilməsi məqsədilə əməkdaş və təhsilalanların sistemlərə girişi təmin olunmuş, hər biri korporativ e-mail ünvanları (ad.soyad@bsu.edu.az) ilə təmin edilmişdir. Lakin korporativ e-maillərin şəxslər tərəfindən istifadə vəziyyəti qeyri-qənaətbəxşdir. Universitetin rəsmi saytında bir çox müəllim və professorların e-mail ünvanları korporativ email əvəzinə gmail, mail.ru, inbox.ru qeyd olunmuş, şəxslərə açılmış korporativ emaillərdən istifadə səviyyəsi qənaətbəxş deyildir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış İnsan Resurslarını Vahid İdarəetmə Sistemi (AZIRVIS) BDU-da insan resurslarının idarə edilməsi işini avtomatlaşdırmaq, vahid hesabatlılıq sistemini qurmaq, əməkdaşların şəxsi məlumatlarının təhlükəsizliyini qorumaq və s. məqsədi daşıyır. Sistemin icrasına cari ilin yanvar ayından başlanıldığı üçün məlumatların daxil edilməsi prosesi davam edir, sistemin aktiv istifadəsi növbəti aylarda mümkün olacaqdır.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

EU platformasında səlahiyyət bölgüsü rollar əsasında həyata keçirilir. Belə ki, inzibatçı, fakültə dekanı, kafedra inzibatçısı rolları mövcuddur. Hər bir rol özünəməxus imkan və məhdudiyyətlərlə fərqləndirilir. Yerində verifikasiya zamanı, səlahiyyət bölgüsü üzrə işlərin icrasına nəzarətin artırılması və sistemli xarakter daşımasının təmin edilməsi ehtiyacının olduğu müəyyən edilmişdir.

**5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti**

Təlim və tədris prosesinin rəqəmsallaşdırılması aşağıdakılar:

- Tələbələrin (qiyabi və əlavə təhsil formaları üzrə) imtahanları CLIX platforması (2500-dən çox fənn üzrə 1460000 test toplusu) vasitəsilə;
- Dərslərin onlayn keçirilməsi BLACKBOARD platforması vasitəsilə;
- Tədrisin idarə olunması – EU platformasının Tədrisin İdarəetmə Sistemi (TİS) modulu vasitəsilə həyata keçirilir.

**5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi**
**5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi**

İnformasiya idarəetmə sistemlərinə əlçatanlığın səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsinin qənaətbəxş olduğu qeyd edilə bilər. İnformasiya texnologiyaları Mərkəzi Əsasnaməsinin 3.14-cü bəndinə əsasən korporativ şəbəkənin idarə olunması, monitorinq və təhlil işləri, eləcə də uçotunun aparılması məqsədilə internet trafikinin izlənməsi mərkəzin əsas funksiyalarından biri kimi qeyd edilmişdir. Lakin mərkəzin fəaliyyəti üzrə təqdim edilən işlər daha çox texniki dəstək xidməti xarakterindədir. Mərkəz tərəfindən mövcud idarəetmə sistemlərinin vəziyyəti barədə monitorinqlər və təhlillərin aparılması demək olar ki, həyata keçirilmir. Mərkəz xüsusilə hazırki informasiya sistemlərinin trafikinin izlənilməsi vəziyyətinin aylıq, yarımillik vəziyyəti barədə sistemli, ardıcıl məlumata sahib deyil. Bu da öz növbəsində Universitetdə mövcud olan informasiya idarəetmə sistemlərinin keyfiyyətinin idarə olunmasına töhfəsini dəyərləndirməkdə çətinlik yaradır.
Mərkəzin Əsasnaməsinin 3.3 bəndində Universitetin fəaliyyət sahələri üzrə yeni layihələr işləyib hazırlamaq və tətbiq etmək funsiyası üzrə verifikasiya zamanı hər hansı icra olunmuş fəaliyyətə rast gəlinməmişdir.

Verifikasiya zamanı Mərkəz Əsasnaməsinin 4.12 bəndi-Universitet əməkdaşlarının informasiya sistemlərindən istifadə bacarıqlarının artırılması üçün təlimlərin təşkil edilməsi vəzifəsi üzrə sistemli, ardıcıl, planlı işlərin aparıldığına dair hesabat təqdim olunmamışdır. Təşkil edilən seminarlar, təlimlər davamlı və periodik xarakter daşımır.

**5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi**

Universitetdə olan informasiya idarəetmə sistemlərinin təkmilləşdirilməsi, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının informasiya idarəetmə sistemlərinə inteqrasiyası istiqamətində işlər aparılır.

Zəruri informasiyalar mütəmadi olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Ali və Orta İxtisas Təhsili Alt Sistemi (ATIS), Tələbə Məzun Dövlət Elektron Məlumat Sistemi (TMMS), Diplom Təsdiq Sisteminə (DTS) daxil edilir.

**5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti**

İnformasiya idarəetmə sistemlərinin təhlükəsizliyi BDU-nun İnformasiya Texnologiyaları Mərkəzi tərəfindən təmin edilir. İnformasiya idarəetmə sistemləri Universitetin serverlərində və AzCloud-da saxlanılır. Fortigate, Cisco avadanlıqları vasitəsilə Firewall sistemi aktiv edilməsilə sistemlərin təhlükəsizliyi yüksək səviyyədə təşkil edilmişdir. Şəbəkə təhlükəsizliyi (Firewall) avadanlıqları üzərindən Web Filter, IPS, Application filter, Spam Filter kimi təhlükəsizlik sistemləri tətbiq edilmişdir.

## *5.5. İctimaiyyətlə əlaqələr*

**5.5.1. ATM saytının mövcudluq vəziyyəti**
**5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti**
**5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

BDU-nun rəsmi saytı www.bsu.edu.az -dır. BDU-nun əməkdaşlarının və tələbələrinin Universitet həyatı ilə bağlı əsas informasiyalar - tədris, elm və sosial həyat, beynəlxalq əlaqələr barədə informasiyalar saytda operativ işıqlandırılır. Yerləşdirilən məlumatlar və xəbərlər azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Saytın texniki proqram təminatı İnformasiya Texnologiyaları Mərkəzi, idarəedilməsi isə İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən həyata keçirilir. Rəsmi saytda məlumatlar dəqiq, faktlar və mənbələr əsasında hazırlanır və mütəmadi olaraq yenilənir. Sayt vasitəsilə fakültələrin, elmi-tədqiqat institutlarının, Elmi Kitabxananın saytlarına keçid imkanı yaradılmışdır. Həmçinin BDU-nun elektron kitabxanasına sayt vasitəsilə daxil olmaq mümkündür. Saytda “Tələbədən rektora” müraciət hissəsi vasitəsilə təhsilalanlar BDU-nun rektoruna öz şikayət və təkliflərini, təşəbbüslərini bildirirlər.

BDU-nun yeni dizaynda hazırlanmış yeni saytında e-BDU vahid informasiya idarəetmə sistemi tətbiq olunacaq, həmçinin əvvəlki saytda çatışmayan bir sıra panellər (məsələn, “Axtarış” butonu) əlavə olunacaqdır. Hazırda istifadədə olan saytda “BDU-nun İnkişaf Proqramı (2014-2020) sənədi “BDU haqqında” bölməsində yerləşdirilmişdir. BDU-nun yeni - Strateji İnkişaf Planı (2021-2030) sənədi saytda yerləşdirilməmişdir. Müvafiq yenilənmələrin yenilənmiş sayt istifadəyə verilən zaman nəzərə alınacağı müsahibə və verifikasiya zamanı bildirilmişdir.

Universitetin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi BDU-nun rəsmi saytı, sosial media hesabları (“Facebook”, “Instagram”, “Telegram”, “Twitter”, “YouTube”) yenilikləri və xəbərləri dərc edir. Saytla birgə BDU TV və “Bakı Universiteti” qəzetində də Universitetin elm, təhsil, sosial həyatı, beynəlxalq əlaqələri haqqında xəbərlər və elanlar operativ şəkildə işıqlandırılır. BDU-nun İctimai Nəzarət Şurasının üzvlərinin iştirakı ilə mütəmadi olaraq KİV nümayəndələrinin BDU-ya mediaturları təşkil olunur.

### 5.5.4. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti

Hesabat dövrünü əhatə edən 5 illik müddət üzrə fəaliyyət planlarının vəziyyətini şöbənin yenidən qurulması səbəbindən təhlil etmək mümkün olmamışdır. Verifikasiya zamanı yalnız 2022-ci (10 yanvar 2022-ci ildə təsdiqlənmiş) və 2023-cü (16 yanvar 2023-cü il tarixdə təsdiqlənmiş) illər üzrə Bakı Dövlət Universitetinin İctimaiyyətlə İş Planları təqdim edilmişdir.

### 5.5.5. ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

### 5.5.6. ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

BDU-nun fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi məqsədilə yaradılan İctimai Nəzarət Şurası ilə birgə Universitet həyatı haqqında ictimaiyyətin daha dolğun və operativ məlumatlandırılması üçün tədbirlər görülür.
Universitetin maraqlı tərəflərə onun məlumatlandırma fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyətinin araşdırılması BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin Əsasnaməsinin 2.4 bəndi üzrə şöbənin fəaliyyət istiqamətləri sırasında qeyd olunub. BDU-nun mətbuat və ictimaiyyətlə əlaqələrini daha da təkmilləşdirmək üçün Özünütəhlil Hesabatında qeyd olunur ki, İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən müxtəlif KİV-lər və qurumlar arasında sorğu keçirilir. Sorğularda BDU-nun ictimaiyyətlə əlaqələrinin müsbət və mənfi tərəflərini, eyni zamanda təklifləri qeyd etmək xahiş olunur. Sözügedən sorğunun nəticələri təhlil olunaraq fəaliyyətin daha da təkmilləşdirilməsi üçün istifadə edilir (ÖTH səh. 125). Verifikasiya zamanı hesabat dövrünü əhatə edən müddət üzrə maraqlı tərəflərlə hər hansı qiymətləndirmənin, sorğuların aparılması qeydə alınmamışdır. Son il üzrə 3 nəfər peşəkar KİV nümayəndəsinin saytın istifadəsinə dair müəyyən rəy və təkliflərinin qeyd olunduğu arayışlar (bir neçəsi əl yazısında olmaqla) təqdim edilmişdir.

Universitetin təhsilverənlərinin və təhsilalanlarının (tələbə sayının çox olduğunu nəzərə alaraq xüsusilə tələbələr) şəxsi istifadə üçün hansı platformalardan, sosial şəbəkələrdən daha çox istifadə etdiyi, Universitetə dair məlumatların hansı platformalardan əlçatanlığının daha uyğun və optimal olmasına dair sorğuların keçirilməsi məlumat alıcısı kütlələlərin ehtiyaclarının müəyyənləşməsi, həmçinin məlumatların hədəf kütlələrinə çatdırılması baxımından tövsiyə edilir. Hazırda “Facebook” və “Instagram” sosial şəbəkə platformaları üzərindən Universitetə dair paylaşımlar “Telegram”, “Twitter”ə nisbətən daha aktivdir.

Saytdan və sosial şəbəkələrdən istifadəyə dair izlənmə məlumatları statistik olaraq ardıcıl toplanılmır və ya bu mexanizmin yaradılması, sistemli izlənmənin həyata keçirilməsinin təşkili tövsiyə edilir.

## 6 İNFRASTRUKTUR

*6.1. Tədris infrastrukturu*

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

BDU-nun ərazisində tələbələrin təhsil aldığı auditoriyalardan normaya uyğun məsafədə idman meydançaları, yaşıllıq zolağı, əhatəsində passiv istirahət üçün sahələr, idman kompleksi, oxu zalları və yeməkxanalar vardır. İxtisaslara uyğun təcrübə otaqları və tədris laboratoriyaları mövcuddur. 24000-ə yaxın tələbə üçün tədris otaqlarının sayı kifayət qədər deyil. Belə ki, hər tələbəyə düşən sahə normativdən aşağıdır.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

BDU-nun ən geniş məlumat və biblioqrafik avadanlıqlarla zəngin Elmi Kitabxanası, Elektron kitabxanada vardır. Bununla belə, elektron kitabxadan istifadənin statistik təhlilin aparılması müvafiq fəaliyyətin və xidmətin təkmilləşdirilməsi baxımından məqsədəuyğundur.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

BDU-da kadr hazırlığının aparıldığı ixtisasların xüsusiyyətlərinə uyğun olaraq yaxşı təchiz olunmuş təlim-tədris bazaları vardır. Bunlara laboratoriyalar, linqafon kabinetləri, muzeylər və s. daxildir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Universitetdə əksər auditoriya və tədris laboratoriyalarında mərkəzləşdirilmiş sistemlə izləmə mümkündür. İxtisaslara uyğun təcrübə otaqları və tədris laboratoriyaları mövcuddur. Kadr hazırlığının yüksək səviyyədə aparılması üçün zəruri əyani vəsaitlər, qurğu və avadanlıqlarla təchiz edilmiş tədris laboratoriyaları ilə yanaşı, elmi-tədqiqat laboratoriyalarının, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin, Nanoaraşdırmalar, Rəqəmsal araşdırmalar, Sənaye kimyası, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyalarının, Tələbə elmi-texniki yaradıcılıq Mərkəzinin, elmi-tədqiqat mərkəzlərinin, tədris-təcrübə mərkəzlərinin maddi-texniki bazasından səmərəli istifadə olunur.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

BDU-da 3 ümumi sahəsi 13521 olan istehsalat-təcrübə bazası mövcuddur.

### 6.1.6 BDU-da distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ÖTH-da BDU-da distant təhsilin təşkili üçün zəruri infrastruktur mövcud olması qeyd edilir. BDU-da “Blackboard” platformasından istifadə tədrisin məsafədən təşkil olunması kimi qiymətləndirilə bilər. Belə ki, Universitet 2021-ci ilin may ayından etibarən ABŞ-ın təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan “Blackboard” şirkəti ilə əməkdaşlığa başlamışdır. 2020/2021-ci tədris ilindən başlayaraq “Blackboard” – tədrisin idarə edilməsi sisteminin tətbiqinə başlanılmışdır. Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi üçün bu sistemin “Blackboard Learn”, “Virtual Classroom Solution”, “Collaborate”, “Accessibility Solution” və “Blackboard Ally” kimi komponentlərindən istifadə olunur.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Nəqliyyat xidmətindən kütləvi tədbirlər, istehsalat təcrübəsi və s. zamanı professor-müəllim heyətinin və tələbələrin planlaşdırılmış formada istifadə imkanları mövcuddur.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

BDU-nun tədris infrastrukturunun professor-müəllim heyəti, tələbələr və inzibati heyət üçün əlçatanlığı təmin edilmişdir.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu qismən mövcuddur. Bununla belə, mövcud infrastrukturun müvafiq kateqoriyadan olan şəxslər üçün əlçatanlığının təmin edilməsi istiqamətində işlər görülməkdədir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

BDU-da ümumi sahəsi 3280 $m^2$ olan 7 yeməkxana vardır. Əməkdaş və tələbələrə iaşə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə yeməkxanalar 2019-cu ildə yenidən qurulmuşdur. Tədris korpuslarında yerləşən yeməkxanalar əsaslı təmir edilərək müasir standartlara cavab verən iaşə avadanlıqları ilə təchiz edilmişdir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

BDU-da 4 tələbə yataqxanası var. Bu yataqxanaların ümumi sahəsi 21002 $m^2$, faydalı sahəsi isə 2400 $m^2$-dir. Qeyd etmək lazımdır ki, yataqxanadan istifadə zamanı sosial həssas ailə qrupuna aid olan tələbə heyətinin yerləşdirilməsinə üstünlük verilir. Yataqxananın ümumi imkanlarının tələbə kontingentinin sayına uyğunlaşdırılması istiqamətində işlərin görülməsi tövsiyə edilir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

BDU-da 1990-cı ildən təhsilalanlara və professor-müəllim heyətinə tibbi xidmət göstərmək məqsədilə 30 nömrəli şəhər poliklinikası fəaliyyət göstərir. Poliklinikada 16 həkim və 13 tibb bacısı çalışır. Poliklinikada laboratoriya, terapiya, oftalmologiya, fizioterapiya, cərrahiyyə, stomatologiya, nevrologiya, revmotologiya, otorinolorinqologiya, ultrasəs müayinəsi, kardiologiya kabinetləri fəaliyyət göstərir.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

Universitetin İT xidməti səviyyəsini əsasən uyğundur kimi qiymətləndirmək olar. Bununla belə, tədris auditoriya fondunun innovativ təlim prosesini təmin etməsi üçün müvafiq texnoloji vasitələrlə təminatı səviyyəsi artırılmasına ehtiyac vardır.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastrukturundan istifadənin monitorinqi BDU-nun uyğun struktur bölmələri və Keyfiyyətin təminatı və monitoriq şöbəsi tərəfindən aparılır. Prosesin dövrü və sistemli aparılması tövsiyəedilәndir. İnfrastrukturdan istifadənin monitorinqinin nəticələrinin sistemli analizinin aparılması da tövsiyəedilən digər məsələlərdəndir.

## *6.2 Elmi-tədqiqat infrastrukturu*

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

BDU-da 7 Elmi-tədqiqat mərkəz var. Müsahibə və verifikasiya zamanı Universitetin 2009-cu ildən MDB ölkələrinin Nanotexnologiya Beynəlxalq İnnovasiya Mərkəzinin üzvü olduğu müəyyən edilmişdir. Universitetin beynəlxalq səviyyədə müasir elmi-tədqiqat və innovasiya mərkəzinə çevrilməsi prosesinin sürətləndirilməsi istiqamətində əsaslı fəaliyyətlərinin və tədbirlər planının olduğunu qeyd etmək lazımdır.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

BDU-da akademik heyət və tədqiqatçıların təcrübəsinin artırılmasına və tədqiqatların aparılmasına imkan verən mərkəz və laboratoriyalar mövcuddur. Uyğun olaraq qeyd edilən infrastruktur innovativ tədqiqatların aparılması üçün müvafiq göstəricilərə uyğundur.

# 7 BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

### 7.1.1.ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti

Universitetin beynəlmiləlləşmə siyasəti təhsil müəssisəsini tam şəkildə əhatə etməklə yanaşı, Universitetin ölkə və regional miqyasda ali təhsildə oynadığı rolu da əks etdirir. Beynəlmiləlləşmə siyasəti mövcud sahənin əsas elementlərini əks etdirməklə yanaşı, digər struktur vahidləri ilə əlaqələri də özündə ehtiva edir. Beynəlmiləlləşmə siyasətinin əsas müddəaları müvafiq sənəddə öz əksini tapmışdır. (2030-cu ilə qədər dövrü əhatə edən ‘Bakı Dövlət Universitetinin beynəlmiləlləşmə siyasəti’) Qeyd etmək lazımdır ki, Universitetin təşkilati strukturunda olduğu kimi, beynəlmiləlləşmə siyasətinin icrasına məsul əsas və alt strukturların məsuliyyət və səlahiyyət bölgüsünün dəqiqləşdirilməsinə ehtiyac vardır. Belə ki, yalnız yerində müsahibə zamanı alt strukturların iş və səlahiyyət bölgüsü barədə daha dəqiq təsəvvür yaratmaq mümkün olmuşdur. Ümumilikdə, beynəlmiləlləşmə məzmunlu məsələlər tematik yönümlü struktur bölmənin (məs: Beynəlxalq Münasibətlər Kafedrası) rəhbəri ilə müzakirə edilməklə yekun qərarın verilməsi məqsədilə rəhbərliyə təqdim edilir. İstər beyəlxalaq əməkdaşlıq istərsə də digər beynəlmiləlləşmə məzmunlu təkliflərin işlənilməsi mexanizmi mərkəzləşdirilmiş formadadır.

### 7.1.2. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Universitetin beynəlmiləlləşmə siyasəti maraqlı tərəflərə əlçatan, açıq və əməkdaşlığa yönümlüdür və onun təşkilati quruluşu bu strateji vektoru əks etdirir. Müsahibə və yerində

verfikasiya zamanı Universitetin dünyanın 46 ali təhsil müəssisəsi ilə ikitərəfli əməkdaşlığının olduğu bildirilmişdir. Bu əməkdaşlıqların sayının artırılması istiqamətində işlərin görüldüyü də qeyd edilən məsələlərdən olmuşdur. Bununla belə, Universitetin veb saytının, mobil mübadilə proqramları da daxil olmaqla yeni tərəfdaşlıq və mübadilələrin cəlb edilməsi kontekstində təşkilatın təqdirəlayiq faktiki fəaliyyətindən geri qaldığı da müəyyən edilmişdir. Beynəlxalq əlaqələr şöbəsi mübadilə proqramlarının təşfiqi, yerli və beynəlxalq səviyyədə müxtəlif tədbirlərdə iştirak və onların təşkili üçün bilavasitə məsuliyyət daşıyan Universitetin struktur bölməsi kimi nəzərdə tutulmuşdur.

**7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti**

2017/18-ci tədris ilindən başlayaraq əcnəbi tələbələrin sayında azalma tendensiyası müşahidə edilir. Müsahibə zamanı obyektiv səbəb kimi, bu azalmanın əsasən pandemiya ilə əlaqədar olduğu qeyd edilmişdir. Hal-hazırda əcnəbi tələbələrin cəlb edilməsi məqsədilə Universitetin, əsasən ‘Azərbaycanda təhsil’ (‘Study in Azerbaijan’) platformasında istifadə etməsi, eləcə də, müxtəlif regional təhsil yarmarkalarında mütəmadi iştirakı müəyyən edilən məsələlərdən olmuşdur. Ənənəvi əcnəbi tələbə bazarlarından (Türkiyə, Rusiya, Gürcüstan) savayı, Universitetin potensial əcnəbi təhsilalanlara Universitetin tanıdılması ilə bağlı beynəlxalq platformalardan istifadə göstəriciləri müəyyən edilməmişdir. Vurğulamaq lazımdır ki, Universitet Azərbaycanın təqdim etdiyi dövlət təqaüd proqramları çərçivəsində əcnəbi tələbələr üçün ən populyar təhsil müəssisələrindən biridir . Bu çərçivədə Universitetdə təhsil alan əcnəbi tələbələrin say göstəricisi (10%-dən çox), Universitetin ölkə çapında nüfuzunu təsdiq edən göstəricilərdəndir.

Bundan əlavə, Universitet rəhbərliyinin əcnəbi tələbələrlə müntəzəm görüşlər keçirməsi də yerində baxış müddətində müəyyən edilən məsələlərdəndir.

**7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**
**7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

Universitetin təhsil və tədqiqat çərçivəsində beynəlmiləlləşmə elementlərinin inkişafı istiqamətində fəaliyyətləri mövcuddur. Təsdiq üçün, 2011-2012-ci tədris ilindən etibarən təhsil proqramları üzrə təkliflərin üç dildə (azərbaycan, rus və ingilis) edilməsini göstərmək olar. Hesabatlar əsasən hal-hazırda 16 fakültənin hər birində ingilis dilində tədrisi həyata keçirilən təhsil proqramları/modullarının mövcud olduğunu qeyd etmək olar. Satistik göstəricilərə əsasən, ingilis dilində tədrisi həyata keçirilən təhsil proqramlarının ümumi proqramlara nisbətdə çəkisi bakalavriat və magistratura səviyyələri üzrə uyğun olaraq 7,5% və 10% təşkil etdiyi müəyyən edilmişdir. Universitetin beynəlxalq mütəxəssisləri/mühazirəçiləri/tədqiqatçıları təlim və tədris prosesinə cəlb etmək məqsədilə akademik mübadilə və digər bu istiqamətli müxtəlif imkanlardan istifadə etdiyi də müəyyən edilən məsələlərdəndir. Mübadilənin coğrafiyası 2016 ildən hal-hazırkı dövrə qədər 39 ölkəni əhatə etdiyi də (akademik mübadilərinin 36%-i Türkiyə, Rusiya və Qazaxıstandan beynəlxalq tərəfdaşlarla olmuşdur) sahə səfəri müddətində əldə edilmiş nəticələrdəndir. Bundan başqa, Universiteti mobillik və ya layihələr çərçivəsində beynəlxalq tədqiqatçıların prosesə cəlbindən savayı, müvafiq heyətin heyət üzvü statusunda sayının ümumi professor-müəllim heyətinin sayına nisbətdə artırılması istiqamətində də əsaslı işlər gördüyü də müvafiq məlumatlarla öz təsdiqini tapmışdır. Qeyd edilən məsələnin Universitetin

beynəlmiləlləşmə sənədində öz əksini tapması da bu işə təkan verən əsas məqamlardandır.

#### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitetin ölkə səviyyəsində prioritet elmi-tədqiqat mərkəzi statusu, müəssisənin beynəlxalq şəbəkələrdə iştirak imkanlarını təsdiq edən əsas faktorlardandır. Hal-hazırda, Universitetin 8 beynəlxalq təşkilatın üzvlüyünə qəbul edildiyi və bu çərçivədə fəaliyyətlər yerinə yetirdiyi yerində baxış müddətində verifikasiya edilmişdir. Qeyd edilən istiqamətdə müvafiq məlumatların Özünütəhlil Hesabatında öz əksini tapması daha məqsədəuyğun olardı.

#### 7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Hal-hazırda 10 ikili diplom proqramının icrası bilavasitə Universitet tərəfindən həyata keçirilir.

Bundan başqa mövcud sayın artırılması tendensiyası və hal-hazırda müvafiq fəaliyyətlərin icrası da Universitetdə müşahidə edilmişdir. Nümunə olaraq, Universitetin 2022-ci ildə 3 yeni ikili diplom proqramına (Qazaxıstanın Gumilyov adına Avrasiya Milli Universiteti və Yesenov adına Xəzər Texnologiya və Mühəndislik Universiteti və İsveçrənin Biznes İnnovasiya və Davamlı İnkişaf Universiteti ilə) qoşulmasını göstərmək olar. Qeyd etmək lazımdır ki, 2023-cü ildə "Dəniz və Enerji hüququ" və "Beynəlxalq Münasibətlər və Diplomatiya" ixtisasları üzrə magsistratura səviyyəsində ikili diplom proqramı (müvafiq olaraq, 2020-ci ildə imzalanmış Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti və 2021-ci ildə imzalanmış Biznes İnnovasiya və Davamlı İnkişaf Universiteti ilə birgə ikili diplom proqramları çərçivəsində) üzrə ilk məzun buraxılışı keçirilmişdir.

#### 7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Universitetin əsas strateji sənədinin ("Baki Dövlət Universitetinin beynəlmiləlləşmə siyasəti") 2030-cu ildən sonrakı müddətdə yenilənməsi nəzərdə tutulmuşdur. Ayrı-ayrı bölmələr səviyyəsində Beynəlxalq əlaqələr şöbəsi və digər əlaqəli şöbə, hər bir komanda üzvü üçün müəyyən edilmiş fəaliyyətlər çərçivəsində, strukturun qarşıdakı il üçün hədəflərini özündə əks etdirən illik fəaliyyət planları hazırlayır.

### *7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

#### 7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti

Universitet idarəçiliyinin əhəmiyyətli hissəsi təlim və tədris, həmçinin elmi-tədqiqat prosesinin beynəlmiləlləşməsinə yönəlmişdir. Müvafiq sahə, Rektorun ümumi idarəçiliyi altında, prorektor tərəfindən idarə olunur və sistemin real effektivliyi detallı şəkildə sənədlər vasitəsilə verifikasiya edilmişdir. Universitetin təşkilati strukturu, beynəlmiləlləşmə strukturları (məsələn, Beynəlxalq əlaqələr şöbəsi və Xarici tələbələrlə iş şöbəsi) və digər struktur vahidləri ilə (dekanlıq və kafedralar) qarşılıqlı əlaqələri aydın şəkildə göstərmir. Prorektor, müxtəlif şöbə mudirləri və rektorun Strateji inkişaf və əlaqələr üzrə müşaviri ilə

təşkil edilmiş müsahibələr müddətində müvafiq əməkdaşların idarəçilik təcrübəsi və təhsil sahəsində əhatəli anlayışının olduğu müəyyən edilmişdir.

### 7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Şöbələr, prorektor və bütün əlaqədar strukturlar arasında beynəlmiləlləşmə ilə əlaqəli bütün mövzularda, kəsintisiz və davamlı ünsiyyətin mövcudluğunu təsdiqlənmişdir. Universitetin təşkilatı strukturu beynəlmiləlləşmə prosesini, əcnəbi tələbələrin idarə olunması (təqribən 350 tələbə) və əcnəbi tələbələrin qəbul prosesindən ayrı formada idarə olunmasını nəzərdə tutur. Bu sahələr müxtəlif administrativ şöbələr tərəfindən idarə olunur. Müvafiq yanaşma 25000 tələbə kontingenti olan bir Universitet üçün qəbulolunandır. Beynəlmiləlləşmə strukturu müvafiq sahə üzrə prorektorun koordinasiyasında olmaqla, beynəlxalq əlaqələr şöbəsi və əcnəbi tələbələrlə iş şöbələrindən ibarətdir. Hər bir şöbə müvafiq rəhbər şəxs və əməkdaşlardan ibarətdir. Şöbələrin fəaliyyəti illik fəaliyyət planı əsasında müvafiq əməkdaşlar arasında iş bölgüsü edilməklə SİP-də və beynəlmiləlləşmə siyasətində öz əksini tapmış hədəflərin icrasına yönəlmişdir.

### 7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Mobilizasiya və mübadilə proqramlarında tələbələrin əldə etdiyi kreditlərin tanınması prosesi tələbələrin akademik öhdəlikləri və xüsusi mənimsəmə müqaviləsi çərçivəsində təşkil edilmişdir. Universitet rəhbərliyi anlayır ki, profesionallıqla həyata keçirilmiş akademik tanınma proqramının olmaması müəssisə üçün əlavə xərclər və işçi istehlakı yaradır. Tələbələr mübadilə proqramının qaydalarına riayət etməlidir və seçmə mərhələsini uğurla tamamladıqdan sonra (bunun üçün ayrıca prosedur mövcuddur), əməkdaşlığa cəlb olunmuş Universitet nəticələrlə bağlı məlumatlandırılmalıdır (arzuolunan hal budur ki, tələbə geri qayıtdıqdan sonra mübadilə proqramı zamanı keçdiyi dərsləri və imtahanları təkrar keçməsin, çünki bu vaxt itkisinə, həmçinin maddi və reputasiya itkisinə səbəb olacaq). Keyfiyyyətə Təminat bölməsi kreditlərin tanınması prosesinə cəlb olunur.

### 7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Universitet təlim və tədris prosesinə əcnəbi professor-müəllim heyətinin cəlb edilməsini həyata keçirir. Əcnəbi professor-müəllim heyəti barədə satistik məlumatlar Özünütəhlil Hesabatında əks olunmuşdur. Verifikasiya müddətində Ancaq müəyyən sayda əcnəbi professor-müəllim heyətinin Kral Sejong və ya Konfutsi İnstitutunda fəaliyyət göstərirlər (Onlar daha fərqli təhsil sisteminə birbaşa bağlıdırlar). Hazırda Universitetdə əcnəbi professor-müəllim heyətinin sayı 20-dən az olmaqla və Universitet miqyasında yetərli olmamağı ilə bərabər,  təlim və tədris və Elmi-tədqiqat prosesinin beynəlmiləlləşməsi üçün arzuolunan göstərici deyildir.

### 7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Universitetdə SİP və beynəlmilləşmə siyasəti müvafiq fəaliyyətlətin icrasını, həmçinin beynəlmiləlləşmə prosesinin monitorinqi və qiymətləndirilməsinin vacibliyini vurğulayır.

Prosesin həm keyfiyyət, həm də kəmiyyət baxımından monitorinqi, fəaliyyət planlarına əsaslanan prosedurlardan (Elmi Şura qarşısında hesabatlılıq təqdir olunan məsələlərdəndir) operativ istifadə olunmaqla icra olunmaqdadır. Qeyd etmək lazımdır ki, Universitetdə beynəlmiləlləşmə ilə birbaşa bağlı izləmə mexanizmləri hazırlanma mərhələsindədir.

### 7.2.6. ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Universitetdə müvafiq sahə üzrə tətbiq edilən sistem AKTS-nin yalnız akademik kreditləri əhatə etməməsi anlayışını bütöv şəkildə özündə ehtiva edir. Müvafiq yanaşma (AKKTTS) təlim və tədris prosesinin təşkilatçıları, onların struktur bölmələri, işçi heyəti və tələbələr arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün dəqiq ünsiyyət vasitələri, bilik, anlayış və informasiyanın ötürülməsində inam yaratmaq məqsədi daşıyır. Müsahibələr zamanı qeyd edilən prinsiplərin mübadilə proqramlarının icrası çərçivəsində konseptual səviyyədə mövcud olması qeyd edilmişdir. Adıçəkilən yanaşmanın normativ səviyyədə "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı" (Nazirlər Kabinetinin 451 nömrəli Qərarı ilə təsdiq edilmiş) kontekstləşdirildiyini də vurğulamaq lazımdır. Hal-hazırda ikili diplom proqramları çərçivəsində təklif olunan tədris və öyrənmə prosesinin qeyd edilən prinsiplər əsasında hazırlanması və təşkili formalaşma mərhələsindədir.

### 7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Daxili və xarici faktorların təsirindən dolayı akademik heyətin mobillik dinamikası hesabat dövründəki illərdə fərqli göstəricilərə sahib olmuşdur. Müvafiq illərdəki göstəricilərin aşağı olması səbəbi kimi pandemiyanın olduğu müsahibələr zamanı qeyd edilmişdir. Ümumilikdə, hesabat dövründə akademik heyətin mobillik göstəricilərinin dinamikasını əsasən stabil hesab etmək olar.

### 7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Universitetdə təşkil edilmiş müsahibələr zamanı prosesin şəffaflıq, peşəkar kollegiallıq, qanunauğunluq, sosial inklüzivlik prinsipləri nəzərə alaraq təşkil edildiyi müəyyən edilmişdir.

### 7.2.9. ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Yerində baxış müddətində Erasmus+, həmçinin, Mövlana proqramları ilə birgə, 20-dən çox ali təhsil müəssisəsi ilə bu məzmunda əməkdaşlıqların mövcud olduğu müəyyən edilmişdir. Pandemiya dövründə müvafiq dinamikada gerilələmələr qeydə alınsa da post-pandemiya dövründə dinamikanın sürətlə dəyişməsinin labüd olduğu müsahibələr zamanı qeyd edilmişdir.

#### 7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

İki əsas reytinq sistemində (QS və THE) Universitetin hazırkı mövqeyi status-kvonu əks etdirir. Müvafiq reytinq sıralamalarında geriləmə 2017-ci ildən başlayaraq siyahıya daxil olan xüsusilə Asiya-Sakit okean regionundan olan ali təhsil müəssisələrinin hesabına olduğunu da qeyd etmək lazımdır. Ümumilikdə Universitetin Azərbaycanın ali təhsil müəssisələri arasındakı yerini nəzərə alaraq, reytinq parametrləri üzrə tədbirlərin icrası vasitəsilə müvafiq reytinqlərdə irəliləyişlərin əldə edilməsi mümkündür. Xüsusilə QS ilə əlaqəli EECE 'səbəti' daxilində Mərkəzi-Şərqi Avropa və Mərkəzi-Qərbi Asiyanı birləşdirən böyük region daxilində, universitetin daha yüksək bir mövqeyə sahib olması mümkündür (xüsusən, 'Beynəlxalq Fakültə', Əcnəbi Tələbələr', tədqiqat işlərinə istinadlar' və 'İşəgötürənin Reputasiyası' istiqamətləri üzrə).

### *7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

#### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Qeyd etmək lazımdır ki, Universitetdə bu proses bir sıra istiqamətlərdə, o cümlədən, xarici tərəfdaş Universitetlərə akademik və inzibati heyətin müxtəlif növ ezamiyyətləri, beynəlxalq konfransların və ictimai əhəmiyyətli tədbirlərin təşkili, tədqiqatçıların və beynəlxalq reytinqlə əlaqəli xərclərin maliyyələşdirilməsi formasında idarə olunur.

#### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Sözügedən fəaliyyətə cəmi 9 nəfər insan resursu təhkim olunmuşdur. Həmin əməkdaşlar 6 aylıq və 1 illik əsasda hesabatlar təqdim edir. Fəaliyyət “Planlaşdırma-İcra-Təhlil- Fəaliyyət” (PCDA) modeli əsasında aparılaraq müvafiq ehtiyaclar müəyyənləşdirilir. Bundan əlavə, aidiyyəti prorektorluq, fakültələr, eləcə də Keyfiyyət təminatı şöbəsi bu və ya digər formada müvafiq fəaliyyətlərin icrası ilə əlaqəlidir.

#### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Tədris və tədqiqatların beynəlmiləlləşdirilməsi prosesi ilə bağlı müvafiq infrastruktur mövcuddur. Bundan başqa Universitetin Kral Sejong, Konfutsi, UNESCO chairs, Abay Kunanbayev Mərkəzləri və s. kimi çoxsaylı beynəlxalq təhsil mərkəzlərinə ev sahibliyi etməsi qeyd olunmalıdır.

#### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Hədəf fokuslu meyarlar və “Planlaşdırma-İcra-Təhlil-Fəaliyyət” sisteminin tətbiq olunduğu Təşkilatda, həmçinin yüksək səviyyəli hesabat mədəniyyəti müşahidə olunur. Məsələlərin bölüşdürülməsi ilə bağlı sağlam düşüncəyə əsaslanan anlayış mövcuddur və perspektivli struktur islahatları, makro səviyyədə büdcə tərtibatı və infrastrukturun inkişafı ilə bağlı bir sıra mövzular təxirə salınmadan birbaşa Universitet Şurasına ünvanlanır.

### *7.4. Beynəlmiləlləşmə performansı*

#### 7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Ümumilikdə prosesin icrası əsasən dövri hesabat xarakerli olduğundan, fəaliyyət çərçivəsində əldə edilmiş nəticələrin dinamikasına nəzarət maraqlı tərəflərin (məs:tələbə və professor-müəllim heyəti) iştirakı ilə qiymətləndirilmənin aparılması vasitəsi ilə təşkil olunması tövsiyə ediləndir.

#### 7.4.2. Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Universitetin mövcud strukturu ortaya çıxan ehtiyacların qarşılanması üçün müvafiq imkanlara sahibdir. Strukturda yer almış müxtəlif şöbə və mərkəzlər (Beynəlxalq əlaqələr şöbəsi, Xarici tələbələrlə iş şöbəsi və s.) ehtiyacların ödənilməsi baxımından sistemin etibarlılığını nümayiş etdirir. Müvafiq ehtiyaclar barədə informasiyaların sistemli toplanılmaması və ya ehtiyacların şifahi kommunikasiyasının üstünlük təşkil etməsinə baxmayaraq, ümumilikdə hal-hazırkı struktur ehtiyacların qarşılanmasına və təkmilləşdirilmələrin aparılmasına şərait yaradır.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | ❖ Universitetin missiya və hədəflərinin aydın olması; Burada məqsədlər spesifik, ölçülə bilən, əldə edilə bilən, müvafiq və vaxta bağlı qeyd edilib (SMART);<br>❖ Hədəflərin əlçatanlığı və əhatəliliyi;<br>❖ Ölkə üzrə Universitetin yüksək reputasiyası və brendinqinin olması;<br>❖ Təhsil-tədqiqat-innovasiya üçlüyünün birgə inkişafının diqqətə alınması;<br>❖ İstiqamətlər üzrə fəaliyyətlərin icrasının Universitetin yeni maliyyə imkanlarının yaranmasına təşviq etməsi;<br>❖ Resurslardan səmərəli istifadənin təşviqi, strukturlaşmada optimallaşdırmanın önə çəkilməsi;<br>❖ İxtisaslı professor-müəllim heyəti, tədqiqat imkanları, müxtəlif akademik proqramlar, effektiv tərəfdaşlıq və əməkdaşlıqlar və geniş məzunlar şəbəkəsi Universitetə yüksək ixtisaslı kadrları cəlb etməyə, effektiv maliyyələşməni təmin etməyə və bu sahədə güclü reputasiya yaratmağa imkan verən rəqabət üstünlüyünü təmin edə bilməsi;<br>❖ Tədqiqat və innovasiyaya sərmayə qoyuluşunun artırılması; |
| **Zəif tərəflər** | ❖ Uzun müddət üçün hesablanmış SİP-in icrasında risklərin və onun idarə olunmasına dair qeydlərin olmaması;<br>❖ Yeni SİP istiqamətləri üzrə hədəflər müəyyənləşdirilərkən əvvəlki SİP-in icra vəziyyətinin dəyərləndirilməsində yalnız kəmiyyət təhlilinin aparılması;<br>❖ SİP-in məzmun və icrası ilə bağlı yalnız yuxarı idarəetmə orqanlarında müfəssəl təsəvvürün olması;<br>❖ Yeni hazırlanmış SİP sənədi üzrə missiya və hədəflərin Universitetin bütün struktur vahidləri, həmçinin tələbələrlə yetərli koordinasiya edilməməsi;<br>❖ Xüsusilə təhsil istiqaməti üzrə fəaliyyətlərin icrasına, hədəflərin yerinə yetirilməsinə bütün paydaşların qismən və passiv cəlb olunması;<br>❖ Yeni SİP üzrə işlərin keyfiyyət monitorinqinin aparılması üzrə meyarların, strukturların /məsul şəxslərin, mexanzimlərinin dəqiq müəyyənləşdirilməməsi;<br>Tədqiqat və innovasiyayalar üzrə hədəflərinin reallaşdırılması ilə daxili insan resursu potensialı arasında uyğunluğun yetərli olmaması; |

| | |
|---|---|
| **İmkanlar** | ❖ Ali təhsilə artan tələbat;<br>❖ Texnoloji irəliləyişlər, qloballaşma və beynəlxalq tərəfdaşlıq, tədqiqat fondlarının və qrantların mövcudluğu,<br>❖ Yeni bazarlara çıxmaq və yeni, çeşidli proqramlar təklif etmək imkanı;<br>❖ Universitetin ölkə üzrə əsas tədqiqat mərkəzinə çevrilməsi; |
| **Təhdidlər** | ❖ Ölkə üzrə reallaşdırılması nəzərdə tutulan hədəf və məqsədlərdə uyğunluq olan digər ATM-lərlə rəqabət<br>❖ Hökumətin təhsil siyasətində, maliyyələşdirmə prioritetlərində dəyişikliklər<br>❖ Maliyyələşmənin azalması;<br>❖ Demoqrafik dəyişikliklər;<br>❖ Regionda siyasi qeyri-sabitlik və qlobal hadisələr; |
| **Komissiyanın tövsiyələri** | ❖ Maraqlı tərəfləri cəlb edilməsi: Universitetlər professor-müəllim heyəti, işçi heyəti, tələbələr, məzunlar və icma üzvləri kimi maraqlı tərəfləri strateji planların hazırlanması və həyata keçirilməsinə cəlb edilməsi məqsədəuyğundur.<br>❖ SİP-in icrasına nəzarəti artırmaq və monitorinqlərin keçirilməsini, hesabatlılığı təmin edilməsi: Universitet tərəfindən strateji planda qeyd olunan məqsədlərə doğru irəliləyişlərin mütəmadi olaraq izlənilməsi və qiymətləndirilməsi məqsədəuyğun hesab edilir. Bu, müvəffəqiyyət sahələrini, eləcə də düzəlişlər edilməli olan sahələri müəyyən etməyə kömək edə bilər.<br>❖ Resurslara sərmayənin qoyulması: Universitet tərəfindən strateji planın həyata keçirilməsi üçün lazımi resurslara; maliyyə resurslarına, texnologiyaya sərmayə qoyduğu kimi o cümlədən insan resurslarına da sərmayə qoyuluşunun artırılması məqsədəuyğun hesab edilir. Bu, planların uğurla həyata keçirilməsini və zamanla davamlı olmasını təmin etməyə kömək edəcək.<br>❖ Səmərəli ünsiyyətin qurulması: Universitet tərəfindən strateji planın və məqsədə doğru irəliləyişlərini həm daxili, həm də xarici tərəfdaşlara effektiv şəkildə çatdırılması məqsədəuyğundur. Bu, planlar üçün dəstək və məlumatlılığın yaradılmasına, həmçinin şəffaflığın və hesabatlılığın artırılmasına kömək edə bilər.<br>❖ Risklərin hesablanması/proqnozlaşdırılması və idarə olunmasına dair planın tərtib edilməsi: Universitetin strateji planının hazırlanması zamanı risklərin hesablanması/proqnozlaşdırılması və idarə edilməsi planının tərtibi SİP-in icrasının müvəffəqiyyətini təmin etmək, mənfi nəticələri minimuma endirmək, qərarların qəbulunu təkmilləşdirmək, resursları səmərəli şəkildə bölüşdürmək və maraqlı tərəflərin etimadını artırmaq üçün vacibdir. |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | ❖ Keyfiyyət Siyasəti Sənədinin əhatəli tərtib edilməsi<br>❖ "BDU könüllüləri"nin səmərəli koordinasiyası.<br>❖ Müxtəlif tipli sorğuların təşkili<br>❖ Universitetdə akademik heyətin elmi fəaliyyətinin qiymətləndirilməsi mexanizminin mövcudluğu.<br>❖ Universitetdə akademik heyətin açıq dərslərinin qiymətləndirilməsi üzrə müəyyən mexanizmin mövcudluğu.<br>❖ Universitetdə İKT təminatı səviyyəsi. |
| **Zəif tərəflər** | ❖ Keyfiyyətin təminatı sistemində ierarxiyanın dəqiq olmaması.<br>❖ Universitetin keyfiyyət təminatı üzrə aparılan sorğularda strukturlararası əlaqənin davamlı və mexanizm əsaslı aparılmaması;<br>❖ Sorğuların təşkilində innovativ alətlərdən istifadə səviyyəsi<br>❖ Akademik heyətin elmi fəaliyyətinin müəyyən edilməsi ilə bağlı apellyasiya prosesinin sistemli təşkil olunmaması;<br>❖ BDU könüllüləri, TGT və THİ arasında koordinasiyanın təşkili səviyyəsi. |
| **İmkanlar** | ❖ Müxtəlif xarakterli sorğuların təşkil edilməsi üçün innovativ alətlərin, Blackboard platforması və "Student information System"in mövcudluğu.<br>❖ Universitetdə akademik heyətin açıq dərslərinin qiymətləndirilməsinin təkmilləşdirilməsi.<br>❖ Universitetin İKT təminatı səviyyəsini nəzərə alaraq keyfiyyətə dair monitorinqlərin innovativ alətlər vasitəsilə təşkili. |
| **Təhdidlər** | ❖ Keyfiyyət təminatı sistemi əsaslı şəkildə qurulmaması, Universitetdə tədris işlərindən başqa digər fəaliyyətlər üzrə məlumatların sistemli toplanmaması və ya toplanmış dataların tədqiqat baxımından sistemli emal olunmaması səbəbindən data əsaslı qərarvermə mexanizminin qurulmaması.<br>❖ Təlim və tədris prosesinin məzmununun və nəticələrinin əmək bazarının və sənayenin gözləntiləri ilə uyğunluq təşkil etməməsi<br>❖ SİP-də nəzərdə tutulmuş beynəlmiləlləşmə və ya reytinq üzrə hədəflərin əldə olunmasının izlənilməsində yarana biləcək bariyerlər. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyələri** | ❖ Şöbənin strukturuna yenidən baxılması, fəaliyyətlər (monitorinq, təhlil və s.) üzrə alt strukturların formalaşdırılması məqsədəuyğun hesab edilir.<br>❖ Keyfiyyət təminatı Komissiyasının fəaliyyətinin təşkil edilməsi önəmli hesab edilir.<br>❖ Keyfiyyət strukturu üzrə əməkdaşlarının peşəkar bacarıqlarının artırılması istiqamətində fəaliyyətlərin icra edilməsinə ehtiyac vardır.<br>❖ Universitetin digər strukturları keyfiyyət təminatı mexanizmləri üzrə qarşılıqlı əlaqələrin və məsuliyyət bölgülərinin müəyyən edilməsi vacibdir.<br>❖ Universitet üzrə bütün prosesləri əhatə edən keyfiyyət təminatı mexanizmlərinin formalaşdırılması və icrası xüsusi önəm daşıyır. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | ❖ Universitet fərdi tədris planlarını təşviq edir.<br>❖ Tələbələrin seçmə fənləri seçməkdə sərbəstliyi var.<br>❖ Boloniya prinsiplərinə sadiqdir.<br>❖ Tədrisin keyfiyyəti müntəzəm olaraq qiymətləndirilir.<br>❖ Tələbə şikayət və təklifləri üçün kanallar mövcuddur.<br>❖ Tələbələr üçün ixtisaslı akademik məsləhətçilər var.<br>❖ Universitet elektron idarəetmə sistemləri, Blackboard və CLIX sistemləri, smart lövhələr, proyektorlar və elektron tədris platforması kimi müasir texnologiyalara sərmayə qoyur.<br>❖ Universitetdə müasir kompüter və avadanlıqlarla təchiz olunmuş sinif otaqları var.<br>❖ Universitet kompüter və tədqiqat laboratoriyaları, elektron kitabxana və mükəmməllik mərkəzi kimi yeni resurslar yaradır.<br>❖ Universitet tədris resurslarının keyfiyyətini və aktuallığını artırmaq üçün tədbirlər həyata keçirir.<br>❖ Universitetin kadr resursları kifayət qədərdir.<br>❖ Universitetdə təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır.<br>❖ Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı mövcuddur. |

| | |
|---|---|
| **Zəif tərəflər** | ❖ Fənlərin və müəllimlərin davamlı olaraq qiymətləndirilməməsi;<br>❖ Tələbə rəyi əsasında tədbirlərin sistemli olmaması və azlığı;<br>❖ Sağlamlıq imkanları məhdud olan təhsilalanlar üçün lazımi təlim və tədris resurslarının və infrastrukturun yetərli olmaması;<br>❖ Bəzi sinif otaqlarında lazımi internet bağlantısının olmaması və Universitet şəbəkəsinin internet sürətinin yüksək olmaması;<br>❖ Bütün professor-müəllim heyətinin Blackboard sistemindən istifadə edə bilməməsi;<br>❖ Mühazirə və seminar otaqlarında proyektorların və smart lövhələrin məhdud sayda olması, o cümlədən, kompüter laboratoriyalarında tam işlək kompüterlərin qeyri-kafi vəziyyətdə olması və təlim ehtiyaclarını tam ödəməməsi;<br>❖ Auditoriya fondunun tələbələrin sayına uyğun olmaması;<br>❖ Dərsliklərə, elmi ədəbiyyata (mənbələrə), məlumat bazalarına ayrılan vəsaitlərin həcmində azalmanın müşahidə olunması;<br>❖ Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının zəif olması;<br>❖ Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyətinin sistemli olmaması və qəbul edilmiş beynəlxalq yanaşmalara uyğun aparılmaması;<br>❖ Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyətinin sistemli olmaması. |
| **İmkanlar** | ❖ Müəllimlər üçün standartlaşdırılmış qiymətləndirmə prosesi;<br>❖ Tədris olunan fənnlərin müntəzəm qiymətləndirilməsi;<br>❖ Təkmilləşdirilməli sahələri müəyyən etmək üçün müəllimlərin, tələbələrin və administrativ heyətin rəyindən istifadə;<br>❖ Sağlamlıq imkanları məhdud olan tələbələrin lazımi infrastuktur/şəraitlə təmin edilməsi;<br>❖ Universitetin professor-müəllim heyətinin Blackboard sistemindən istifadəsini təkmilləşdirmək üçün onlara daha çox təlim və dəstəyin verilməsi;<br>❖ Bütün sinif otaqlarında internet bağlantısını yaxşılaşdırmaq və daha sürətli internetlə təmin etmək üçün internet infrastrukturunun təkmilləşdirməsi;<br>❖ Universitetdə elektron jurnalların istifadəsinin genişləndirilməsi, davamiyyət və dərslərin qeydiyyatı sistemlərinin müasirləşdirilməsi, qarışıq təlim kimi yeni tədris yanaşmalarının nəzərdən keçirilməsi;<br>❖ Universitetin tədris resurslarının keyfiyyətini və aktuallığını daha çox sərmayə qoyaraq artırması və tələbələrin ehtiyaclarını ödəmək üçün elektron resursların genişləndirilməsi;<br>❖ Əlavə resurslar əldə etmək, tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri ilə əməkdaşlıq imkanları;<br>❖ Rəsmi internet səhifəsi və digər vasitələrlə ATM-də mütəxəssis hazırlığı həyata keçirilən ixtisaslar, təhsil, təlim nəticələri və s. haqqında informasiyanın əlçatanlığının təmin olunması;<br>❖ Müxtəlif proqramlar, o cümlədən Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış şəxslərin əmək fəaliyyətinə cəlb edilməsi;<br>❖ Təhsil proqramlarının davamlı monitorinqinin faydaları. |

| | |
|---|---|
| **Təhdidlər** | ❖ Bəzi fənlər üzrə tələbələrin narazılığına səbəb ola biləcək tədris keyfiyyəti;<br>❖ Beynəlxalq tələbələri və tərəfdaşlıqları cəlb etmək üçün ötürülmüş imkanlar;<br>❖ Tələbələr üçün resurslara və dəstəyə təsir edən maliyyə məhdudiyyətlərinin olması;<br>❖ Universitetin professor-müəllim heyətinin və tələbələrinin elektron təlim vasitələrini və yeni sistemləri mənimsəməkdə çətinlik çəkmə ehtimalı;<br>❖ Uyğun auditoriyaların və tədris otaqlarının olmamasının tədrisin keyfiyyətinə təsir etmə və Universitetin qəbul edə biləcəyi tələbələrin sayını məhdudlaşdırma ehtimalı<br>❖ Digər Universitetlərin, xüsusən də daha qabaqcıl texnologiya və infrastruktura malik olan Universitetlərin rəqabəti potensial tələbə və müəllim heyətinin itirilməsinə səbəb ola bilmə ehtimalı;<br>❖ Dərsliklərə, elmi tədqiqatlara, məlumat bazalarına ayrılan vəsaitin həcminin azalması Universitetdə tədrisin və elmi-tədqiqat işlərinin keyfiyyətinə mənfi təsir göstərə bilmə ehtimalı;<br>❖ Mühazirə və seminar otaqlarında proyektorların və smart lövhələrin məhdud sayda olması, eləcə də kompüter laboratoriyalarında tam işlək kompüterlərin qeyri-kafi olması tələbələrin öyrənmə təcrübəsinə təsir göstərməsi;<br>❖ Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyətində qeyri-sistemlilik. |
| **Komissiyanın tövsiyələri** | ❖ Ümumi tədris prosesinin və professor-müəllim heyətinin standart qiymətləndirilməsinə diqqətin artırılması;<br>Bu, təkmilləşdirilməsinə ehtiyac olan sahələrin müəyyən edilməsinə və ardıcıl tədris keyfiyyətinin təmin edilməsinə kömək edəcək.<br>❖ Sağlamlıq imkanları məhdud olan tələbələr üçün lazımi şərait və əlavə resursların təmin olunması;<br>Bu, bütün tələbələrin təhsilə bərabər çıxışını təmin edəcək.<br>❖ Onlayn kommunikasiya platformalarınının genişləndirilməsi;<br>Bu, xüsusilə hibrid təhlis modelinin tətbiqi zamanı tələbələr, professorlar və məsləhətçilər arasında ünsiyyəti asanlaşdırmağa kömək edəcək.<br>❖ İnternet bağlantısının yaxşılaşdırılmasına və texnoloji infrastrukturun təkmilləşdirilməsinə sərmayənin artırılması;<br>Bu, tələbələrin öyrənmə təcrübəsini yaxşılaşdıracaq və elektron təlim alətləri və yeni sistemlərdən istifadəni dəstəkləyəcək.<br>❖ Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri əməkdaşlığın artırılması;<br>Bu, Universitetin rəqabətə davamlı olmasına və potensial tələbələri və professor-müəllim heyətini cəlb etməyə kömək edəcək.<br>❖ Dərsliklərə, elmi mənbələrə və elmi məlumat bazalarına daha çox vəsait ayrılması;<br>Bu, Universitetdə təhsilin və tədqiqatın keyfiyyətini təmin edəcək.<br>❖ Mühazirə və seminar otaqlarında proyektor və smart lövhələrin, eləcə də kompüter laboratoriyalarında tam işlək kompüterlərin sayının artırılması;<br>Bu, tələbələrin öyrənmə təcrübəsini yaxşılaşdıracaq və onları Universitetdə təhsillərini yüksək səviyyədə davam etdirməyə həvəsləndirəcək.<br>❖ Struktur bölmələrə tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin keçirilməsi, təlimatların hazırlanması;<br>Bu, hazırlanan sənədlərin əməli işdə tətbiqini və keyfiyyətini yüksəldəcək, qüsurların və formallığın qarşısını alacaq. |

| | |
|---|---|
| | **Komissiya təhsil proqramları ilə bağlı aşağıdakıları tövsiyə edir:**<br>❖ Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının artırılması;<br>❖ Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyətinə nəzarətin genişləndirilməsi;<br>❖ Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyətinin gücləndirilməsi.<br><br>Ümumilikdə, Universitet Boloniya prinsiplərinə riayət etməyə və fərdiləşdirilmiş təlim planlarını həvəsləndirməyə, zəif tərəfləri aradan qaldırmağa və təhsilin keyfiyyətini yaxşılaşdırmaq və potensial tələbələri və professor-müəllim heyətini cəlb etmək imkanlarından istifadə etməyə davam etməlidir. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | ❖ SİP-də Universitetin elmi-tədqiqat istiqamətində strateji hədəfləri ilə bağlı müəyyən tədbirlərin və fəaliyyətlərin öz əksini tapması.<br>❖ “Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası” sənədi hazırlanması və təsdiq edilməsi.<br>❖ Elmi tədqiqat strategiyasının elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin tətbiqi və yayılması, aprobasiyası və təbliği, tədris prosesinə inteqrasiyası və elmi araşdırma sahəsində bacarıq, vərdiş və səriştələrin fasiləsiz olaraq inkişaf etdirilməsində ümumi yanaşmaların, əsas prinsiplərini və mexanizmləri və s. əks etdirməsi.<br>❖ BDU da elmi tədqiqatlar üçün yetərli Maddi-texniki baza mövcudluğu.<br>❖ Kadr potensialının tədqiqat aparmağa imkan verməsi<br>❖ Müvafiq struktur bölmələrinin yaradılması<br>❖ Yerli və xarici ölkələrdəki ATM və tədqiqat qurumları ilə Elmi əlaqələr yaradılması<br>❖ Birgə elmi tədqiqatlar və Qrant layihələri həyata keçirilməsi<br>❖ BDU nəşriyyatının mövcudluğu və elmi tədqiqatların nəticələrinin çap edilməsi üçün yaradılmış şərait |

| | |
|---|---|
| **Zəif tərəflər** | ❖ Mövcud şöbə rəhbərləri vəzifələri vakant saxlanılması<br>❖ Elmi-tədqiqat strategiyasının maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməməsi<br>❖ Doktorantura pilləsində təhsilalanlar üçün müxtəlif bacarıqların və vərdişlərin təkmilləşdirilməsi üçün fənlərin tədris edilməməsi<br>❖ Magistr proqramlarının əksəriyyətində tədqiqat bacarıqlarının və vərdişlərinin aşılanması ilə əlaqəli fənlərin tədris olunmaması |
| **İmkanlar** | ❖ BDU-nun 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu (ETİ), 7 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETL), müxtəlif xidmətlər göstərmək imkanına malik Elmi Kitabxana və tədris-təcrübə bazasında mövcud olan 1000-dən çox müxtəlif təyinatlı cihaz, material və avadanlıqların mövcudluğu təhsilalanların və professor-müəllim heyətinin prosesə cəlb olunma imkanlarını artırması.<br>❖ Son 2 il ərzində BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar, Astrokosmik və atmosfer tədqiqatları, Hüceyrə kulturası və genom redaktəsi kimi yeni sənaye yönümlü ETL-lərin yaradılması, maddi-texniki bazanın müasirləşdirilməsi və elmtutumlu avadanlıqlarla təchiz olunması müvafiq sahə üzrə impact faktorlu jurnallarda tədqiqat işlərinin nəşr olunmasına və nailiyyətlərin əldə olunması imkanlarına müsbət təsiri |
| **Təhdidlər** | ❖ Struktur rəhbərləri vəzifəsinin vakant qalmasının idarəetməyə mənfi təsiri<br>❖ Doktrantura proqramları üzrə fənnlərin tədris edilməməsi aparılan tədqiqatların keyfiyyətinə təsiri<br>❖ Magistratura proqramlarının əksəriyyətində elmi-tədqiqatla əlaqədar fənlərin tədris edilməməsinin magistratura pilləsinin məzmununa mənfi təsiri<br>❖ Magistratura pilləsində cəmi 2 həftəlik elmi-tədqiqat təcrübəsi nəzərdə tutulmasının praktiki vərdişlərin əldə olunmasına mənfi təsiri |
| **Komissiyanın tövsiyələri** | ❖ İdarəetmənin effektiv təşkili üçün boş olan vakant vəzifələrə təyinatların aparılması;<br>❖ Doktrantura təhsil pilləsi üçün tədris planı hazırlanması və uyğun fənlərin tədrisinin təşkil olunması;<br>❖ Kadr hazırlığı aparılan magistratura təhsil proqramlarına Elmi-tədqiqat bacarıqlarının formalaşdırlmasını ehtiva edən fənlər daxil edilməsi,<br>❖ Magistratura pilləsində elmi-tədqiqat və pedoqoji təcrübələrin təşkilinin müvafiq qaydalara uyğun təşkili təmin edilməsi (hər bir təcrübə növünə 4 həftəlik müddət nəzərdə tutulmalıdır) tövsiyə edilir.<br>. |

| 5. İdarəetmə sistemi | |
|---|---|
| **Güclü tərəflər** | ❖ İdarəetmə orqanlarında maraqlı tərəflərin iştirakının təmin olunması<br>❖ Xüsusi öhdəlikləri olan aydın idarəetmə strukturunun mövcudluğu<br>❖ Maliyyə resurslarının idarə edilməsi və bölüşdürülməsi ilə məşğul olan ixtisaslaşmış şöbələrin mövcudluğu<br>❖ İşçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi istiqamətində səylərin mövcudluğu<br>❖ Əməkdaşların istirahətinin təşkili üçün hər cür şəraitin və imkanların olması<br>❖ “Karyera və məzun” mərkəzinin gələcəkdə yaradılması ilə bağlı geniş strateji planın mövcudluğu |
| **Zəif tərəflər** | ❖ İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizmi, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti qeyri qənaətbəxşdir.<br>❖ İşə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyətinin təkmilləşdirilməsinə ehtiyac vardır<br>❖ İşçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olmaması<br>❖ İşçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılmaması<br>❖ Köhnəlmiş veb səhifədən istifadə olunması<br>❖ İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsində hesabatlılığın və ya nəzarətin olmaması<br>❖ İşçilərarası iş yükünün qeyri-bərabər paylanması, könüllü tələbə fəaliyyətindən bəzi hallarda lüzumsuz istifadə hallarının mövcudluğu<br>❖ Universitetin maliyyə vəziyyəti haqqında məlumatların ictimaiyyət üçün məhdud açıqlığı |
| **İmkanlar** | ❖ Daha aydın təşkilati strukturun hazırlanması və həyata keçirilməsi üçün hər cür imkanların olması<br>❖ İdarəetmə strukturunun təkmilləşdirilməsi və onun mütərəqqi fəaliyyətinin monitorinqi, qiymətləndirilməsi üçün daha əhatəli planın hazırlanması səylərinin mövcudluğu<br>❖ Tələbə qəbulunda onları cəlb etmək üçün tələbə yönümlü yanaşmanın mövcudluğu<br>❖ İdarəetmə və mühasibat heyəti üçün təlim və inkişaf proqramlarına investisiyanın qoyulması imkanları<br>❖ Maliyyə resurslarının imkanlarının böyük olması və bu maliyyə resurslarının planlaşdırılması prinsipləri və vəzifələri BDU nun strateji inkişaf istiqamətləri və hədəflərinə uyğun şəkildə həyata keçirilməsi. |

| | |
|---|---|
| | ❖ Universitetin kifayət qədər əlavə maliyyə resurslarının əldə etmək, əlavə resurslar cəlb etmək üçün böyük imkanları var.<br>❖ Bir çox şirkətlərlə əməkdaşlıq prizmasında qurulan əlaqələrin mövcudluğu, tələəbələrin məşğulluq probleminin həllinə yönəlik səylərin mövcudluğu |
| **Təhdidlər** | ❖ Daha güclü strateji inkişaf planları olan digər böyük Universitetlər<br>❖ Pandemiya amilləri ümumilikdə Universitetin işlərinə təsir etməkdə davam edir<br>❖ Digər ATM-lərlə rəqabət mühiti<br>❖ Hökumətin təhsil siyasətində və ya maliyyələşdirmə prioritetlərində dəyişikliklər<br>❖ Təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbətinin aşağı göstəricisi<br>❖ Texnoloji irəliləyişlər və təhsil sahəsində dəyişikliklər infrastruktur və resurslara əhəmiyyətli investisiyalar tələb edir ki, bu da Universitetin maliyyə resurslarına təsir edə bilər<br>❖ BDU məzunları arasında işsizlərin sayı ilə bağlı artımın müşahidə edilməsi |
| **Komissiyanın tövsiyələri** | ❖ BDU-nun idarəetmə strukturu strateji hədəflərə, ümumi idarəetmə prinsiplərinə və təhsil müəssisələrinin idarəetmə strukturunun qurulması prinsiplərinə uyğunluq baxımından yenidən nəzərdən keçirilməsi tövsiyə olunur.<br>❖ BDU-nun struktur sxeminə yenidən baxılmalıdır. Strukturlararası əlaqələr ümumiyyətlə aydın təsvir olunmayıb. BDU-da idarəetmə strukturları arasında əlaqələrin optimallaşdırılmasına ehtiyac vardır.<br>❖ Təlim və inkişaf proqramlarına sərmayələrin artırılması: Universitet öz resurslarının səmərəli şəkildə idarə edilməsini təkmilləşdirmək üçün administrativ və akademik işçiləri üçün təlim və inkişaf proqramlarına investisiya qoymalıdır.<br>❖ Differensial əmək haqqı sisteminin yaradılmasına ehtiyac var bu həm pedoqoji həm də inzibati heyət arasında tətbiq oluna bilər.<br>❖ Tələbələrin məşğulluq problemlərinin daha dərindən öyrənilməsi və bu məsələnin daim diqqətdə saxlanılmasının zəruriliyi<br>❖ Rəqabətə nəzarət: Universitet digər universitetlərdən gələn rəqabəti izləməli və rəqabətə dayanıqlı qalması üçün addımlar atmalıdır. |

| 6. İnfrastruktur | |
|---|---|
| **Güclü tərəflər** | ❖ Universitetin kitabxana fondunun zənginliyi.<br>❖ Universitetin yaxşı qurulmuş təlim və tədris bazasına sahib olması<br>❖ Universitetin yaxşı qurulmuş və təmin edilmin maddi-texniki bazası.<br>❖ Elmi tədqiqat və innovasiya mərkəzi;<br>❖ Müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalar. |
| **Zəif tərəflər** | ❖ Tədris infrastrukturunun istifadəsinin monitorinqi;<br>❖ Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış infrastruktur;<br>❖ Auditoriya fondunun məhdudluğu.<br>❖ Kitabxanadan onlayn istifadənin izlənilməsi. |
| **İmkanlar** | ❖ Mərkəz və laboratoriyaların dövrün tələblərinə tam uyğunluğunun professor-müəllim heyətinin və tədqiqatçıların təcrübəsinin artırılmasına imkan verməsi.<br>❖ Universitetdə ümümi sahəsi 13521 $m^2$ olan istehsalat-təcrübə bazası mövcudluğunun tələbələrin praktiki vərdişlərinin inkişaf etdirilməsinə yaratdığı şərait<br>❖ Universitetin geniş məlumat və biblioqrafik avadanlıqlarla zəngin Elmi Kitabxanası və Elektron kitabxanasının mövcudluğunun yerli və xarici elmi-tədqiqatlara mənbələrin əlçatanlığına yaratdığ şərait |
| **Təhdidlər** | ❖ Sağlamlıq imkanlarının məhdud olan professor-müəllim heyəti və tələbələr üçün uyğunlaşdırılmış infrastrukturun çatışmamazlığı potensial tələbələr və əməkdaşlar üçün Universitetə marağın azalmasına, həmçinin, inkluzivlik statusuna göstərə biləcəyi mənfi təsir.<br>❖ Kitabxanadan onlayn istifadənin izlənilməməsi və auditoriya fondunun sayının kifayət qədər olmaması Universitetdə təhsil keyfiyyətinə və tələbələrin individual fəaliyyətinə məhdudlaşdırıcı təsiri. |
| **Komissiyanın tövsiyələri** | ❖ Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış təlim və tədris infrastrukturunun və resursların təmin edilməsi<br>❖ Kitabxananın onlayn istifadəsinin izlənilməsi, auditoriya fondunun sayını artırılması və mövcud auditorya fondunun innovativ alətlərə təmin edilməsi və davamlı monitorinqinin aparılması |

| 7. Beynəlmiləlləşmə | |
| --- | --- |
| **Güclü tərəflər** | ❖ Milli və regional məqsədlərə uyğun yaxşı sənədləşdirilmiş beynəlmiləlləşmə strategiyası<br>❖ Beynəlxalq qurumlarla yaxşı əlaqələr<br>❖ Təhsil proqramlarının hazırlanmasına tələbəyönümlü yanaşma<br>❖ Xüsusi öhdəlikləri olan aydın idarəetmə strukturu<br>❖ Beynəlmiləlləşmə prosesini idarə etmək üçün ayrıca inzibati struktur<br>❖ Maliyyə resurslarının idarə edilməsi və bölüşdürülməsi ilə məşğul olan ixtisaslaşmış şöbələr<br>❖ Beynəlxalq tədris və tədqiqat proqramlarını dəstəkləmək üçün bütün zəruri imkanlar və resurslar |
| **Zəif tərəflər** | ❖ Köhnəlmiş veb səhifə və mobil mübadilə proqramları<br>❖ 2017/18-dən bəri beynəlxalq tələbə qəbulunda azalma<br>❖ Əcnəbi professor-müəllim heyətinin sayı kifayət qədər olmaması<br>❖ Beynəlmiləlləşmə səylərinin monitorinqi və qiymətləndirilməsində hesabatlılığın və ya nəzarətin olmaması<br>❖ İş yükünün qeyri-bərabər paylanması işçilərin tükənməsinə və aşağı əhval-ruhiyyəyə səbəb olması<br>❖ AKTS sisteminin tam inkişaf etdirilərək, inteqrasiya edilməməsi<br>❖ Universitetin beynəlmiləlləşmə istiqaməti üzrə maliyyə vəziyyəti haqqında məlumatların əlçatanlığının kifayət qədər olmaması |
| **İmkanlar** | ❖ Daha aydın təşkilati strukturun hazırlanması və həyata keçirilməsi<br>❖ Daha çox beynəlxalq tələbə və tərəfdaşları cəlb etmək üçün vebsayt və mobil mübadilə proqramlarının təkmilləşdirilməsi<br>❖ Regional təhsil imkanlarını təşviq etmək üçün "Azərbaycanda təhsil" platformasından istifadəsi<br>❖ Digər Universitetlər, tədqiqat institutları və şirkətlərlə tərəfdaşlığın qurulması<br>❖ Onlayn təhsili artırmaq üçün texnologiyaya və rəqəmsal platformalara investisiyası<br>❖ İnterdisiplinar tədqiqat proqramlarının hazırlanması<br>❖ Daha çox əcnəbi müəllim heyətinin cəlb edilməsi<br>❖ AKTS sistemini Universitet sisteminə daha dolğun şəkildə inteqrasiyası<br>❖ Beynəlmiləlləşmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün daha əhatəli planın hazırlanması<br>❖ Tələbələri cəlb etmək üçün təhsil proqramlarının hazırlanmasına tələbə yönümlü yanaşmanın istifadəsi<br>❖ Planlaşdırma, icra, təhlil və fəaliyyət monitorinqini təkmilləşdirmək üçün PDCA (plan-do-check-act) sisteminin tətbiqi<br>❖ İdarəetmə və mühasibat heyəti üçün təlim və inkişaf proqramlarına investisiyanın qoyulması |

| | |
|---|---|
| **Təhdidlər** | ❖ Daha güclü beynəlmiləlləşmə strategiyası olan digər Universitetlər<br>❖ Pandemiya beynəlxalq tələbə qəbuluna və ümumilikdə Universitetin işlərinə təsir etməkdə davam edir<br>❖ Müəyyən edilmiş beynəlmiləlləşdirmə proqramları olan digər ATM-lərlə rəqabət<br>❖ Hökumətin təhsil siyasətində və ya maliyyələşdirmə prioritetlərində dəyişikliklər<br>❖ Texnoloji irəliləyişlər və təhsil sahəsində dəyişikliklər infrastruktur və resurslara əhəmiyyətli investisiyalar tələb edir ki, bu da Universitetin maliyyə resurslarına təsir edə bilər |
| **Komissiyanın tövsiyələri** | ❖ Veb səhifə və mobil mübadilə proqramlarını təkmilləşdirilməsi: Universitet daha çox beynəlxalq tələbə və tərəfdaşları cəlb etmək üçün veb səhifəni və mobil mübadilə proqramlarını yeniləməlidir.<br>❖ Tərəfdaşlıq qurun: Universitet əhatə dairəsini və resurslarını genişləndirmək üçün digər universitetlər, tədqiqat institutları və şirkətlərlə tərəfdaşlıq əlaqələri qurmağa çalışmalıdır.<br>❖ Texnologiyaya və rəqəmsal platformalara sərmayə qoyun: Universitet onlayn təhsili artırmaq üçün texnologiya və rəqəmsal platformalara sərmayə qoymalıdır ki, bu da hibrid təhsil modelinin tətbiqi zamanı tələbələrin cəlb edilməsində faydalı ola bilər.<br>❖ İnterdisiplinar tədqiqat proqramlarını inkişaf etdirin: Belə tədqiqat proqramlarının hazırlanması Universitetə daha çox maliyyə cəlb etməyə və onun nüfuzunu artırmağa kömək edə bilər.<br>❖ AKTS-ni Universitet sisteminə daha dolğun şəkildə inteqrasiya edin: Universitet beynəlmiləlləşdirmə səylərini təkmilləşdirmək üçün AKTS sisteminin daha tam şəkildə öz sisteminə inteqrasiyası istiqamətində çalışmalıdır.<br>❖ Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün daha əhatəli plan hazırlayın: Universitet öz məqsədlərinə nail olunmasını təmin etmək üçün beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün daha əhatəli plan hazırlamalıdır.<br>❖ Tələbəyönümlü yanaşmadan istifadə edin: Universitet daha çox tələbə cəlb etmək üçün təhsil proqramlarının hazırlanmasında tələbəyönümlü yanaşmasından istifadə etməlidir.<br>❖ PCDA sistemini tətbiq edin: PCDA sisteminin tətbiqi universitetə planlaşdırma, icra, təhlil və fəaliyyət monitorinqini təkmilləşdirməyə kömək edə bilər.<br>❖ Təlim və inkişaf proqramlarına sərmayə qoyun: Universitet öz resurslarının səmərəli şəkildə idarə edilməsini təkmilləşdirmək üçün administrativ və akademik işçiləri üçün təlim və inkişaf proqramlarına investisiya qoymalıdır.<br>❖ Rəqabətə nəzarət: Universitet digər universitetlərdən gələn rəqabəti izləməli və rəqabətə dayanıqlı qalması üçün addımlar atmalıdır. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

- ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 5; Keyfiyyət təminatı istiqaməti üzrə 5; Təlim və tədris istiqaməti üzrə 11; Elmi tədqiqat istiqaməti üzrə 4; İdarəetmə istiqaməti üzrə 6; İnfrastruktur istiqaməti üzrə 2; Beynəlmiləlləşmə istiqaməti üzrə 10 tövsiyə olmaqla, ümumilikdə 43 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin BDU tərəfindən həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, BDU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğun” hesab edilməsi;

BDU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.